# BEŞİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# XI SESSİYASI İCLASININ

# PROTOKOLU № 73

*Milli Məclisin iclas salonu.*
*1 oktyabr 2018-ci il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***O.Əsədov*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 110 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 12.06 dəq.) |
| İştirak edir | 106 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsi (ikinci səsvermə).

2. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi haqqında (birinci oxunuş).

3. Azərbaycan Respublikası Milli Məclisinin 2018-ci il payız sessiyasının qanunvericilik işləri planı haqqında.

4. “Azərbaycan Respublikası Hökuməti, Gürcüstan Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında” Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

5. “Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında sərhəd nümayəndələrinin/sərhəd komissarlarının fəaliyyəti haqqında” Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

6. “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Mədəniyyət Mərkəzlərinin təsis olunması, iş mexanizmi və fəaliyyətləri haqqında” Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

7. “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında şəxsi heyətin mübadiləsinə dair” Protokolun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

8. “Futbol oyunları və digər idman tədbirləri zamanı təhlükəsizlik, mühafizə və xidmət məsələlərinə vahid yanaşma haqqında Avropa Şurası Konvensiyası”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

9. “İslam Əməkdaşlığı Təşkilatının Əmək Mərkəzinin Nizamnaməsi”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

10. “Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Miqrasiya Orqanları Rəhbərləri Şurasının yaradılması haqqında” Sazışin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

11. “Azərbaycan Respublikası ilə Əlcəzair Xalq Demok-

ratik Respublikası arasında ekstradisiya haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

12. "Azərbaycanın Milli Qəhrəmanının xüsusi fərqlənmə nişanını təsis etmək haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

13. "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

14. "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

15. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

16. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

17. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

18. "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

19. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

20. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

21. “Yaşıllıqların mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

22. Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

23. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

24. “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

25. “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

26. “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

27. “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

28. “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

29. “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

30. “Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

31. Azərbaycan Respublikasının “Diplomatik xidmətə verilən töhfəyə görə” medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

32. “Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919–2019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

33. “Elm haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

34. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

35. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

36. “Tütün və tütün məmulatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

37. “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan

Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

38. “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

39. “İctimai televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

40. “Teatr və teatr fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

41. “Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi”ndə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

42. “Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi”ndə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

43. “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

44. “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

45. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

46. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

47. Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

48. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

49. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

50. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

51. "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

52. "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

53. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

54. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Res-

publikası qanununun layihəsi barədə (birinci oxunuş).

55. "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

56. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

57. "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

58. "Pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

59. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

60. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

61. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

62. "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

## Aşağıdakı məsələlər müzakirə edilmişdir:

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**1. "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsi (ikinci səsvermə).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli, Siyavuş Novruzov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**2. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**3. Azərbaycan Respublikası Milli Məclisinin 2018-ci il payız sessiyasının qanunvericilik işləri planı haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Fazil Mustafa, Zahid Oruc, Vahid Əhmədov, Fərəc Quliyev, Azay Quliyev, Əli Məsimli, Siyavuş Novruzov, Qüdrət Həsənquliyev, Gövhər Baxşəliyeva, Qənirə Paşayeva, Əflatun Amaşov, Rafael Hüseynov, Araz Əlizadə, Aytən Mustafazadə, Hikmət Məmmədov

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.28 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**4. "Azərbaycan Respublikası Hökuməti, Gürcüstan Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyafət Əsgərov, Qüdrət Həsənquliyev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.33 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**5. "Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında sərhəd nümayəndələrinin/sərhəd komissarlarının fəaliyyəti haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**6. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Mədəniyyət Mərkəzlərinin təsis olunması, iş mexanizmi və fəaliyyətləri haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Rafael Hüseynov, Fazil Mustafa, Siyavuş Novruzov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.46 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**7. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında şəxsi heyətin mübadiləsinə dair" Protokolun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.48 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**8. “Futbol oyunları və digər idman tədbirləri zamanı təhlükəsizlik, mühafizə və xidmət məsələlərinə vahid yanaşma haqqında Avropa Şurası Konvensiyası”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ülvi Quliyev, Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.50 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**9. “İslam Əməkdaşlığı Təşkilatının Əmək Mərkəzinin Nizamnaməsi”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Hadi Rəcəbli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.53 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**10. “Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Miqrasiya Orqanları Rəhbərləri Şurasının yaradılması haqqında” Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Azər Kərimli, Əli Hüseynli, Tahir Kərimli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.59 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**11. “Azərbaycan Respublikası ilə Əlcəzair Xalq Demokratik Respublikası arasında ekstradisiya haqqında” Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.00 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**12. “Azərbaycanın Milli Qəhrəmanının xüsusi fərqlənmə nişanını təsis etmək haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.05 dəq.) |
|---|---|
| Lehinə | 82 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 83 |

Nəticə: Qəbul edildi

**13. “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyad Səmədzadə, Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.06 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |

Nəticə: Qəbul edildi

**14. “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hal-**

**larından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 16.07 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

**15. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Ziyad Səmədzadə

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 16.09 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

**16. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda də-**

**yişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Ziyad Səmədzadə

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.10 dəq.) |
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |

Nəticə: Qəbul edildi

**17. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.11 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**18. "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.12 dəq.) |
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |

Nəticə: Qəbul edildi

**19. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Ziyad Səmədzadə, Qüdrət Həsənquliyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.15 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**20. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli, Eldar İbrahimov, Elmira Axundova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.20 dəq.) |
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**21. "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.21 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**22. Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.23 dəq.) |
| Lehinə | 89 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**23. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.23 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**24. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Rafael Hüseynov, Fazil Mustafa, Aqil Abbas, Aydın Mirzəzadə

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.41 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**25. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.42 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**26. "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Rafael Hüseynov, Çingiz Qənizadə

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.45 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

**27. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli, Elşən Musayev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.49 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

**28. "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Arif Rəhimzadə, Vahid Əhmədov, Qənirə Paşayeva

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.58 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 3 |

| | |
|---|---|
| Bitərəf | 2 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**29. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.58 dəq.) |
|---|---|
| Lehinə | 80 |
| Əleyhinə | 3 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |

Nəticə: Qəbul edildi

**30. "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.59 dəq.) |
|---|---|
| Lehinə | 82 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 17.00 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 3 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

**31. Azərbaycan Respublikasının "Diplomatik xidmətə verilən töhfəyə görə" medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 17.02 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**32. "Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919–2019)" Azərbaycan Respublikasının yubiley medalının təsis**

**edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli, Aydın Mirzəzadə

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 17.05 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**33. "Elm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, İsa Həbibbəyli, Qüdrət Həsənquliyev, Tahir Kərimli, Fazil Mustafa, Qənirə Paşayeva, Azay Quliyev, Bahar Muradova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 17.30 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**34. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.30 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**35. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli, Elmira Axundova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.51 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**36. "Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Eldar Quliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.51 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**37. "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Ülvi Quliyev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.52 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**38. "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi**

**barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Rafael Hüseynov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.53 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**39. "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.53 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**40. "Teatr və teatr fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi**

**haqqında (birinci oxunuş).**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

| | |
|---|---|
| **Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 17.54 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

**41. "Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 17.55 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

**42. "Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarni-**

**zon və qarovul xidmətləri nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 17.55 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**43. "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Hadi Rəcəbli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 17.56 dəq.) |
| Lehinə | 86 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**44. "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyi-**

**şiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Çingiz Qənizadə

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.58 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verMədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**45. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.59 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri** **O.ƏSƏDOV**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*1 oktyabr 2018-ci il. Saat 12.*

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***Oqtay Əsədov*** *sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli millət vəkilləri, hörmətli media nümayəndələri! Milli Məclisin 2018-ci il payız sessiyasını açıq elan edirəm.

Hörmətli millət vəkilləri, payız sessiyasının başlanması münasibəti ilə hamınızı bir daha ürəkdən təbrik edirəm!

Hörmətli millət vəkilləri, bildiyiniz kimi, Azərbaycan parlamentinin 100 illiyi münasibəti ilə sentyabrın 21-də Milli Məclisin təntənəli iclası keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iclasda iştirak etmiş və geniş nitq söyləmişdir. Möhtərəm Prezidentimizin nitqində Azərbaycan dövlətinin və parlamentinin tarixi, ölkəmizin bugünkü inkişafı, dövlətimizin daxili və xarici siyasəti ilə bağlı çox dəyərli təhlillər aparılmışdır. Dövlət başçısı Milli Məclisin fəaliyyətinə yüksək qiymət vermişdir. Cənab Prezidentin söylədiyi bu fikir bizim üçün çox əhəmiyyətlidir: "Bu gün Azərbaycan uğurla inkişaf edir və mən bu inkişafda Azərbaycan parlamentinin rolunu xüsusilə qeyd etmək istəyirəm. Azərbaycan parlamenti həm Heydər Əliyevin dövründə, həm də bu gün öz fəaliyyəti ilə ölkəmizin müstəqilliyini möhkəmləndirir, inkişafını təmin edir, bu inkişafa öz töhfəsini verir.

... Bizim qanunvericilik bazamız ən yüksək meyarlara cavab verir. Biz bir çox beynəlxalq konvensiyalara qoşulmuşuq və azadlıqların təmin edilməsində, demokratik in-

kişafla bağlı siyasətimizin aparılmasında Azərbaycan parlamentinin çox böyük rolu vardır”.

Parlamentin fəaliyyətinə bu cür yüksək qiymət verdiyinə görə mən həm öz adımdan, həm də sizin adınızdan cənab Prezidentə öz dərin minnətdarlığımı bildirirəm! *(Alqışlar.)* Onu əmin etmək istəyirəm ki, həmişə olduğu kimi, bundan sonra da Milli Məclis Azərbaycan Respublikası Prezidentinin uzaqgörən siyasətini parlament səviyyəsində dəstəkləmək üçün əlindən gələn bütün tədbirləri görəcəkdir.

Hörmətli millət vəkilləri, bildiyiniz kimi, bizim təntənəli iclasda 44 ölkədən, 9 beynəlxalq təşkilatdan 300-ə yaxın nümayəndə iştirak etmişdir. Onların arasında 14 parlament sədri və 20 sədr müavini olmuşdur. Bundan başqa, Milli Məclisin iclasında ölkəmizdə akkreditə olunmuş səfirlər və nümayəndələr də iştirak edirdi. İclasda 39 nəfər təbrik nitqi ilə çıxış etmişdir.

Hesab edirəm ki, biz Azərbaycan parlamentinin yubileyinin yüksək səviyyədə qeyd edilməsinə nail olmuşuq. Bu münasibətlə sizin hər birinizi ürəkdən təbrik edirəm və hamınıza yüksək iştiraka görə öz dərin minnətdarlığımı bildirirəm! *(Alqışlar.)*

Hörmətli deputatlar, Milli Məclis 2018-ci ilin yaz və növbədənkənar sessiyalarını uğurla başa vurmuşdur. Bu dövr ərzində Milli Məclisin 16 iclası keçirilmiş, 261 qanun və qərar qəbul edilmişdir.

Milli Məclisin beynəlxalq əlaqələri də inkişaf etmişdir. Parlamentin yaz, növbədənkənar sessiyalarında və sonrakı dövrdə millət vəkillərimiz 38 ölkəyə 90-dan çox səfər həyata keçirmişlər. 57 xarici dövlətin 100-ə qədər nümayəndə heyəti Milli Məclisdə olmuşdur. Milli Məclisin xətti ilə Bakıda 5 beynəlxalq təşkilatın iclasları keçirilmişdir.

Hörmətli deputatlar, bu gün biz artıq Milli Məclisin yeni sessiyasına başlayırıq. Payız sessiyasının qanunvericilik işləri planı hazırlanmış və sizə paylanmışdır. Bu sessiyada bir çox zəruri aktların qəbul olunması nəzərdə tutulur. Xüsusən biz Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında qanun layihəsini və büdcə zərfinə daxil olan digər sənədləri müzakirə edib qəbul edəcəyik. Mən əminəm ki, Milli Məclisin payız sessiyası yüksək səviyyədə keçəcəkdir. Sizə bir daha uğurlar arzulayıram.

İndi əgər icazə versəniz, iclasımıza başlaya bilərik. Xahiş edirəm, qeydiyyatdan keçək.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 12.06 dəq.) |
| İştirak edir | 106 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, iclasımıza başlaya bilərik.

Gündəlik sizə paylanıb. Xahiş edirəm, gündəliyə münasibət bildirək.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik təsdiq edildi. Müzakirələrə ehtiyac yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hesab edirəm, iş planı müzakirə olunanda...

Gündəliyin birinci məsələsi. “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa dəyişikliklər edilməsi barədə qanun layihəsi. Birinci səsvermədir. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, cənab Sədr. Hörmətli millət vəkilləri, bilirsiniz ki, “Əmək pensiyaları haqqında” Qanun qüvvədədir. Məhz buna görə “İnsan hüquqları üzrə müvəkkil (ombudsman) haqqında” Qanunda da müvəkkilin, sabiq müvəkkilin, onun ailə üzvlərinin pensiya təminatının “Əmək pensiyaları haqqında” Qanuna uyğun olaraq həyata keçirilməsinə dair maddə yeni redaksiyada verildi. Səs verdik, qəbul olundu. Konstitusiya Qanunu olduğuna görə indi təkrar səsvermədir. Millət vəkillərindən diqqətli olmağı xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Siyavuş Novruzov.

**S.Novruzov.** Təşəkkür edirəm. Hörmətli Sədr, mən üzr istəyirəm, çünki məsələ ilə bağlı deyil, gündəlikdə də yarımsaatlıq o müddət olmadığına görə bir neçə fikri mən səsləndirmək istəyirəm. Çünki hesab edirəm, bunu demək ədalətli olardı. Siz parlamentin 100 illiyi ilə əlaqədar çıxış etdiniz, qeyd etdiniz. Burada cənab Prezident parlamentin fəaliyyətinə yüksək qiymət verdi. Parlamentin işinin həyata keçirilməsində, qanunvericilik baxımından, beynəlxalq aləmdə parlamentin apardığı işlərdə, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında parlament rəhbərliyinin xüsusi rolu var. Mən hesab edirəm ki, Təşkilat Komitəsinin fəaliyyəti 1 günə başa gələn məsələ deyildi. Uzun müddət Sizin rəhbərliyiniz altında bu iş hazırlanırdı, işlənilirdi.

Doğrudan da, 44 ölkədən, 9 beynəlxalq təşkilatdan nümayəndələrin gəlməsi çox böyük hadisə idi. Burada söhbət təkcə onların iştirakından getmir. O sədrlərin hər birinin qəbul olunması, onlara Azərbaycan həqiqətlərinin çatdırılması, Prezidentimizin rəhbərliyi altında Azərbaycanda gedən inkişaf, Azərbaycanda olan ictimai-siyasi sabitlik, iqtisadi inkişafın bilavasitə qeyd olunması və qısa müddət ərzində bu nümayəndə heyətlərinin hər biri ilə görüşlərin keçirilməsi və onların lazımi məlumatla təmin olunması, Azərbaycan haqqında real həqiqətləri birbaşa Sizin dilinizdən, Sizin müavinlərin dilindən, komitə sədrlərinin, dostluq qruplarının rəhbərlərinin dilindən eşitmələri, görmələri, şahid olmaları çox mühüm hadisədir. Hesab edirəm ki, bu illərə bərabər olan bir işin, zəhmətin nəticəsidir. Həmçinin bir çoxlarının Azərbaycan televiziyasında çıxış edib Azərbaycanda gördüklərini birbaşa Azərbaycan ictimaiyyəti, dünya ictimaiyyəti ilə bölüşmələri, parlamentin iş şəraitinə verdikləri qiymət, doğrudan da, təqdirəlayiqdir.

Mən də bütün həmkarlarımız adından, deputatlarımız adından, başda cənab Prezident olmaqla, – təbii ki, Siz təşəkkür bildirdiniz, – Sizə, parlament rəhbərliyinə, parlamentin aparatına, orada çalışan əməkdaşların hər birinə – yenə deyirəm, başda Siz olmaqla, – öz minnətdarlığımızı bildiririk ki, parlamenti bu cür layiqli şəkildə təmsil, təqdim edirsiniz. Azərbaycan parlamenti hansı tədbirə ev sahibliyi etmək istəyirsə, dərhal beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul olunur ki, bu tədbir Azərbaycanda keçirilsin. Çünki parlamentin təşkilatçılığı artıq onlar tərəfindən qəbul olunur. Bir daha bütün deputatlarımızın adından Sizə təşəkkürümüzü bildiririk! *(Alqışlar.)*

**Sədrlik edən.** Çox sağ olun. Mən çıxışımda dedim, hər bir millət vəkili bu tədbirlərdə çox yüksək səviyyədə iştirak etdi. Bütün  tapşırıqların yerinə yetirilməsində, gələn qonaqların hamısı ilə görüşlərdə, mən dedim, yüksək səviyyədə iştirak etdiniz. Bir daha hamınız çox sağ  olun ki, elə bir tədbiri keçirə bildik.

İndi xahiş edirəm, Konstitusiya Qanunudur, ikinci səsvermədə qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin ikinci məsələsi. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa dəyişikliklər edilməsi barədə. Birinci oxunuş. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Bildiyiniz kimi, biz 2017-ci ilin dekabrında “Normativ hüquqi aktlar haqqında” Qanunun bir sıra maddələrinə, o cümlədən 29-cu, 70-ci, 83-cü maddələrinə çox əhəmiyyətli dəyişikliklər etdik. Yeri gəlmişkən, deyə bilərəm ki, həm də 70-ci maddədə qanunların 3 oxunuşu ilə bağlı vacib bir məsələ oldu və istisna nəzərdə tutduq. Eyni zamanda, cənab Prezident tərəfindən indi 19-cu maddəyə, normativ hüquqi aktın adı ilə bağlı maddəyə bir əlavə təklif

olunur. Onun mahiyyəti nədir? Məlumdur ki, normativ hüquqi aktlara dəyişiklik edildikdə, yaxud bunlar ləğv edildikdə normativ hüquqi aktın adı göstərilməlidir. Amma təklif olunur ki, ad və ya rəqəm dəyişiklikləri ilə əlaqədar bu baş verirsə, bir istisna olsun. Hesab edirəm ki, tamamilə düzgün olaraq layihə təqdim olunur. Çünki normativ hüquqi aktların hazırlanması, vaxt itkisinə yol verilməməsi, çeviklik, səmərəlilik baxımından bu çox vacibdir. Əgər məsələ ad və rəqəm dəyişikliyi ilə bağlıdırsa, bu istisna oluna bilər.

Bir daha vurğulamaq istəyirəm ki, belə istisna prinsipcə var. Misal üçün, 3 oxunuşla bağlı olan digər maddələrdə, 70-ci maddədə biz istisnaları artıq nəzərdə tutmuşuq. Bu ancaq işin çevikliyinə xidmət edir. Ona görə millət vəkillərindən bu Konstitusiya Qanununa səs verməyi xahiş edirəm. Bu, birinci oxunuşdur. 3 oxunuşdan sonra onun da həmin prosedurla qəbulu nəzərdə tutulacaq. Amma hələlik birinci oxunuşdur.

**Sədrlik edən.** Çox sağ olun. Əgər başqa fikir yoxdursa, birinci oxunuşda Konstitusiya Qanununa münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 3-cü məsələsi. Azərbaycan Respublikası Milli Məclisinin 2018-ci il payız sessiyasının qanunvericilik işləri planı haqqında. Qanunvericilik işləri planı sizə

paylanıb və kiminsə əlavəsi, sözü varsa, buyursun. Fazil Mustafa.

**F.Mustafa.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Bu gün, həqiqətən də, sessiyamızın qarşısında çoxlu məsələlər durur. Bu payız sessiyasında da bir sıra məsələlərin həlli zəruridir. Mən hesab edirəm ki, burada bizə təqdim olunan layihədə ən vacib qanunlardan biri Kinematoqrafiya haqqında qanun layihəsidir. Bir dəfə də Milli Məclisdə mən məsələ qaldırmışdım. Biz Azərbaycan kinosunun inkişafı istiqamətində ciddi addımlar atmalıyıq. Bu gün biz regionda kino istehsalı sahəsində ən geridə qalmış ölkə vəziyyətindəyik. Gürcüstan və Ermənistandan geridə qalmışıq. Maddi imkanlarımız, maliyyə imkanlarımız onlardan geniş, amma dünya bazarına kino istehsalı ilə bağlı yeni bir şeylər, fərqli, orijinal bir şeylər təqdim edə bilmirik. Ona görə də bu imkanlar genişləndirilməlidir.

Bu, böyük bir biznes, gəlir sahəsidir. Bu sahədə çalışan insanların da istər əmək haqları, istər yaşam şərtləri o qədər arzu olunan səviyyədə deyil. Bu gün kinostudiyanın vəziyyətinə baxsanız, hər giriş qapısında bir restoran var, hər giriş qapısı kafe, çayxanaya çevrilibdir. Nəhəng sənaye istehsalı mərkəzi olaraq nəzərdə tutulan kinostudiyadan görüntü olaraq da bir əsər-əlamət qalmayıb. Bu baxımdan da, mən hesab edirəm ki, bu qanunda kino sənayesinin inkişafı istiqamətində çox ciddi müddəalar nəzərdə tutulmalı və qəbul olunmalıdır.

Oqtay müəllim, burada nəzərdə tutulan Ümumi təhsil haqqında qanun layihəsi mənim üçün anlaşılmaz oldu. Biz axı “Təhsil haqqında” Qanun qəbul etmişik. Yəni adlandırmaq məsələsi. Bəlkə başqa nə isə nəzərdə tutulub? Konkret təhsil haqqında qanun olmur, yəni bizim qəbul

etdiyimiz təhsil qanunu ümumi təhsil qanunudur. Bu baxımdan da, layihəni təqdim edən hörmətli İsa müəllim yəqin ki, bunun bir az açılışını verə bilər.

Bir də mən çox istərdim ki, – Milli Məclisdə də bu məsələni dəfələrlə qaldırmışıq, – məmurların hüquqlarının müdafiəsi haqqında qanun qəbul olunsun. Baxın, Azərbaycanda tez-tez müəyyən vəzifələrdə rotasiya qaydasında dəyişikliklər olur, nazirliklərə yeni şəxslər təyin olunur. Ölkə Prezidenti tərəfindən də xüsusilə son vaxtlar gənc kadrların vəzifələrə təyin edilməsi də müsbət bir ənənədir. Amma bunları, əsasən, mətbuatdan, bir də həmin nazirliklərin mətbuat xidmətindən verilən məlumatlardan öyrənirik. Bu gün 5 nəfər işdən çıxarıldı, sabah 10 nəfər çıxarılacaq. Yerinə yeni filan kadrlar gətirildi.

Biz xeyli müraciətlər alırıq ki, məmurları, ümumiyyətlə, onların fəaliyyətini qoruyacaq heç bir mexanizm yoxdur. Açığını deyək, məmurların böyük əksəriyyəti qanunla işləməyə maraqlı, dürüst insanlardır. Amma yeni gələn qurum rəhbəri, nazir, ya kimsə, çox vaxt öz qaydaları ilə işləməyi tələb edir. Məmur da işdə qalmaq üçün məcburdur ki, deyilən qaydalara uyğun fəaliyyət göstərsin. Sonra orada bir dəyişiklik olanda gəlib birinci günahkar olaraq həmin məmuru tapırlar. Bu, bütün sahələrə aiddir. Ona görə biz bir yol tapmalıyıq ki, 10 ilə, 15 ilə yetişmiş, savadlı, hazırlıqlı məmurun belə sıradan çıxarılmasına imkan verməyək. Ya məsələn, ölkə Prezidenti təyin edəndə bəlkə qurum rəhbərləri qarşısında bir vəzifə qoysun ki, 6 ay heç kimə toxunmayın. Heç olmasa, sahəni öyrənin, baxın, görün burada bəlkə elə mütəxəssislər var ki, bunlara dəymək olmaz. Bu baxımdan, mən hesab edirəm ki, məmurun qorunması mexanizmini tapmaq vacibdir. Müvafiq komitələrin bu istiqamətdə çalışması yaxşı olardı.

Bir də mən çox istərdim ki, olimpiya hərəkatı ilə bağlı bir məsələyə toxunam. Bu yaxınlarda bildiyiniz kimi, ölkə Prezidentinin də böyük dəstəyi ilə Azərbaycanda xüsusi olimpiadanın 50 illiyi keçirildi. Yüksək səviyyəli bir tədbir oldu. Xüsusi olimpiada təşkilatında vitse-prezident kimi çalışdığıma görə, qeyd etmək istəyirəm ki, bu, əlillərin, zehni əlil vətəndaşlarımızın idman hərəkatı kimi tanınır. Təsəvvür edin ki, bu uşaqlar...

Ölkənin mədəni siması çox da bina ilə, deyək ki, yolla başqa nə iləsə ölçülmür. Ölkənin mədəni siması əsas onunla ölçülür ki, bu ölkədə əlilə münasibət necədir, əlillə davranış necədir? Deyək ki, fiziki qabiliyyəti məhdud olan insana münasibət necədir? Əcnəbilərin böyük əksəriyyəti yaxınlaşıb heyranlıq ifadə edirdilər ki, Azərbaycanı biz belə təsəvvür eləmirdik. Bu ölkədə əlillərlə bağlı belə işlər görülür. Onlara müxtəlif paltarlar geydirərək gözəl rəqs ifa etdirirlər. Bu işlərdə, reabilitasiya mərkəzlərinin açılmasında Birinci vitse-prezidentimiz Mehriban xanımın böyük rolu var və bu istiqamətə çox diqqət ayrılır. Mən gənclər və idman naziri Azad Rəhimova minnətdarlığımı bildirmək istəyirəm. O, tədbirdə axıra qədər iştirak etməklə göstərdi ki, dövlətin əlilə münasibəti necə olmalıdır. Amma bu, kifayət deyil. Bu sahəyə daha böyük diqqət ayrılmalıdır ki, regionlarda olan əlil uşaqları idman hərəkatına qoşa bilək. Onların valideynləri də çox vaxt maraqlı olmurlar. Regionlarda bunu inkişaf etdirsək, hesab edirəm ki, bu insanları sosiallaşma baxımından cəmiyyətə daha çox inteqrasiya eləyə bilərik.

Hər kəsin ya ailəsində, ya yaxın qohumları içərisində belə insanlar var. Bu sıxıntını çölə çıxartmırlar. Amma cəmiyyətdə bu insanların yükünü azaltmaq üçün dövlət tərəfindən atılan hər bir addım, doğrudan da, faydalı

addımdır, xeyirli bir işdir. Bu baxımdan da, mən istərdim ki, müvafiq komitə tərəfindən olimpiada hərəkatının inkişafı istiqamətində yeni müddəaların qanunvericilikdə əks olunması da nəzərdə tutulsun ki, o insanlara biz yardım göstərə bilək. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, hörmətli millət vəkilləri. Bugünkü iclasımızın gündəliyində 62 qanun layihəsi var. Etiraz eləmirsinizsə, iş planıdır, 5 dəqiqəyə keçək. Etiraz yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Zahid Oruc.

**Z.Oruc**. Təşəkkür edirəm. Hörmətli Sədr, hörmətli həmkarlar, payız sessiyasının işə başlaması münasibəti ilə mən hamınızı təbrik edirəm. Cənab Sədr, Sizin sözlərinizə hər birimiz qoşuluruq ki, 2018-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin 100 illiyi ilə bağlı keçirilən silsilə tədbirlərin hər biri Azərbaycan dövləti adına qürurverici tədbirlərdir. Bu, Cümhuriyyət dövlətini quran kişilərə ehtiramdır, dövlətimiz, tarix arasında, müxtəlif ideologiyalar arasında yaxşı varislik ənənələrini qoruyub saxlamaqdır. Bunların mənim aləmimdə zirvəsi 28 may günü keçirilən tədbir və 15 sentyabrda Azadlıq meydanında keçirilən hərbi paraddır. Sonuncu yüksək səviyyəli tədbir parlamentin 100 iliyi ilə bağlı idi. Bunlar, eyni zamanda, Azərbaycanı beynəlxalq məkanda yaxşı təqdim eləmək vasitələridir.

Qanunvericilik təkliflərinə gəldikdə, cənab Sədr, bu gün müasir dünyada informasiya vasitələri, bildiyiniz kimi, müxtəlif ölkələrin əlində silaha çevrilib. Bu, göz görəsi, tankdan, topdan, qırıcı raketlərdən daha böyük fəsadlar doğurur. XXI əsrin silahı bizin anlamımızda atom silahı deyil, mənə görə, informasiyadır. İndi tarixdə daha

çox Gebbelsin adı faşist dövründə təbliğat, təşviqatın qorxunc siması kimi qalıb. Amma müasir dövrdə Gebbels özü birdən dirilib gəlsəydi, görərdi ki, informasiyanı necə faşist silahına çevirirlər. Biz görməkdəyik ki, Qərbin müxtəlif mərkəzlərində Azərbaycan dövlətinə qarşı bu siyasəti həyata keçirənlər var. İnformasiya vasitələri sırasında televiziya, radio öz yerini sosial mediaya verib, YouTube kanalına verib. Hər gün YouTube kanalını izləyənlərin sayı milyardı keçir. Bu, özlüyündə o deməkdir ki, dövlət ənənəvi modellərlə öz mənafelərini qoruyub saxlaya bilmir. XXI əsrin dövləti tamam ayrı mexanizmlər üzərində öz mənafelərini qorumalıdır. Ona görə hesab edirəm ki, təklif olaraq Azərbaycan dövlətinin bütün strukturları, hökumət strukturları sosial mediada məcburi öz hesablarını, akauntlarını yaratmalı, YouTube kanalı üzərindən öz təbliğatlarını qurmalıdırlar. Bu çox önəmli bir məsələdir. Mənə elə gəlir ki, bir neçə ildən sonra bu iş əksər qurumlarda gedəcək. Əgər İran dövlətinin Ali Dini Şurasının rəhbərinin Facebook, Twitter üzərindən hesabları varsa, demək, mənim qaldırdığım məsələ çox önəmlidir.

O biri tərəfdən, biz qanunvericiliyimizdə terrorla bağlı məsələyə baxmalıyıq. Əgər bu gün Avropanın hansısa bir ocağında əyləşib Azərbaycan əleyhinə YouTube-dan zəhər axıdan adamlar varsa, onların fəaliyyəti terror əməli kimi tövsif edilməlidir. Gerçəkdən də, belədir və biz təkcə Suriyada əlinə silah götürüb döyüşən adamı vətəndaşlıqdan məhrum eləmək və onlara sərt sanksiyalar tətbiq eləməklə işimizi bitmiş saymamalıyıq. O cümlədən, mən Avropa məkanında “Euronews” Azərbaycan versiyasının yaradılmasını və ya “Russia Today” modelində bir televiziya kanalının da olmasını istəyirəm.

Mən, eyni zamanda, Azərbaycanın hər bir parlament üzvünü, bütün hökumət strukturlarını, məmurları ən azı öz sahələri üzrə dövlətin əleyhinə yönələn kampaniyalara cavab verməyə çağırıram. Dövlət başçısına qarşı olan hücumlar dövlətə qarşı olan hücumdur, Azərbaycanın milli maraqları əleyhinə hücumdur. Bu ötən əsrin əvvəllərindən müəyyənləşmiş bir siyasətdir.

Vaxt çox qısadır, cənab Sədr. Mənim ikinci toxunmaq istədiyim məsələ uzun müddət Azərbaycana qarşı dediyim təbliğatı, kampaniyanı aparanlardan biri Fəxrəddin Abbaszadə adlı bir şəxslə bağlıdır. Çox təqdirəlayiq haldır ki, o, Rusiyada həbs olundu, haqqında informasiya vasitələrində məlumat getdi. Hüquq mühafizə orqanları bu yöndə işlər aparır. Prokurorluğun bununla bağlı müəyyən bir açıqlama verməsi yaxşı olardı.

Bu gün parlamentimiz Rusiya qanunvericilik orqanı ilə ən yaxşı münasibətlərdədir. Sizin tapşırıqlarınızla son günlər aparılan görüşləri də bura əlavə etmək istəyirəm. Yəni həmin şəxslərin cəzalandırılıb ölkəyə gətirilməsi həm Rusiya–Azərbaycan münasibətləri üçün çox önəmli olar, həm də o yöndə bu gün dediyimiz cəzasızlıq mühitindən istifadə edib fəaliyyət göstərənlərə qarşı bir addım olar.

Sonda toxunmaq istədiyim məsələ. Konstitusiya Məhkəməsi kreditlərlə bağlı məsələyə növbəti dəfə baxdı. Bunun üzərində durmaq istəmirəm. Amma Nazirlər Kabineti sonradan bununla bağlı məsələyə bir qədər aydınlıq gətirmək istədi. Amma görünür ki, kredit müqavilələrinin modelini, nümunəsini parlament təsdiq eləməlidir. Ondan sonra bunun ətrafında...

**Sədrlik edən.** Çox sağ ol. Nazirlər Kabineti məşğuldur, hər şeyi parlament eləməli deyil axı. Nazirlər Kabineti

onun üzərində işləyir. Vahid Əhmədov.

**V.Əhmədov**. Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, mən də payız sessiyasının başlanması ilə əlaqədar millət vəkillərini təbrik edir, işlərində uğurlar arzu edirəm! Gündəliklə əlaqədar iki məsələyə toxunmaq istəyirəm. Birincisi, 2016-cı ildə "Əmanətlərin tam sığortalanması haqqında" Qanun qəbul etmişdik. Həmin qanunun müddəti üç ildir, 2019-cu ilin mart ayında qüvvədən düşmüş hesab ediləcək. Bu qanunun qəbul edilməsində əsas məqsəd o vaxt bank sisteminin müəyyən qədər sağlamlaşdırılması, insanların bank sisteminə olan imanını artırmaqdan ibarət idi. Amma  çox təəssüflər olsun ki, keçən müddət ərzində müəyyən işlər görülsə də, hazırda bank sistemində vəziyyət o qədər də ürəkaçan deyil.

Ona görə mən təklif edərdim ki, həmin qanun, yəni "Əmanətlərin tam sığortalanması haqqında" Qanunun qüvvəsi yenə müəyyən müddətə qədər uzadılsın. Cənab Prezidentdən xahiş edirəm ki, bu məsələyə baxsın, yoxsa bank sistemində ağır olan vəziyyət daha da ağırlaşa bilər. Çünki bu gün 8,4 milyard manata yaxın əmanət varsa, onun 40 faizi 3 il müddətinə qoyulub. Yəni insanlar bank sistemindən əmanətlərini çəkə bilərlər və bank sistemində kapitallaşma ilə əlaqədar ciddi problem yaranar.

İkinci bir məsələ. Biz tətildə olan vaxt Konstitusiya Məhkəməsi xarici valyuta ilə olan kreditlərlə əlaqədar çox ciddi bir qərar qəbul edib. Bu qərarın qəbul edilməsi, hesab edirəm ki, əhali və bank sisteminin özü üçün çox ağır nəticələrə gətirib çıxaracaq. Bu vaxta qədər insanlar bizə, biz isə banklara müəyyən müraciətlər edirdik, Maliyyə Bazarlarına Nəzarət Palatasına müraciət edirdik. Müəyyən əlaqələr yaradırdıq, insanlara bəzi güzəştlərə gedirdilər. Amma hazırda bu qərarın qəbul edilməsi fakti-

ki olaraq həmin güzəştlərin qarşısını alır. Onsuz da insanların xarici valyuta ilə olan bank kreditlərini ödəmək imkanları yoxdur. Ona görə də mən belə hesab edirəm ki, bu məsələ bank sistemində çox ciddi problemlər yarada bilər. Yenə də cənab Prezidentdən xahiş edirəm, ümumiyyətlə, xarici valyuta ilə olan kreditlərlə əlaqədar məsələyə aydınlıq gətirilsin və Azərbaycan hökuməti bu məsələ ilə əlaqədar müəyyən qərarlar qəbul etsin. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Fərəc Quliyev.

**F.Quliyev**. Təşəkkür edirəm, cənab Sədr. Hörmətli Sədr, hörmətli həmkarlar! Mən payız dönəmində işləyəcəyimiz məsələlərə baxdım, təbii ki, çox zəngin bir gündəlik, çox ciddi məsələlər var. Amma hesab edirəm ki, bizim hamımızın, bütün hakimiyyət orqanlarının da, siyasi təşkilatların da, vətəndaşların da ən çox düşündüyü məsələ təbii ki, Dağlıq Qarabağ və işğal olunmuş ərazilərimizin məsələsidir. Son zamanlar düşmən dövlətdə baş verən hadisələr, çağırışlar, Rusiya–Ermənistan tandeminin bəzi prioritetləri onu göstərir ki, biz bəzi məsələlərə yenidən baxmalıyıq. Hesab edirəm ki, kimsə Paşinyanın guya ki, təsadüfən iş başına gəlməsini qəbul edirsə, bu sadəlövhlük olardı. Təbii ki, bu, Rusiyanın razılığı ilə olubdur. Son zamanlar Avropaya elədiyi bəzi çağırışlar da razılaşdırılmış məsələlərdir. Ən azından iki amil var ki, bu, bizim üçün əhəmiyyətlidir. Birinci onunla bağlıdır ki, Rusiya istəyir ki, Ermənistanı guya Avropaya meyilli kimi göstərsin. Beləliklə, həm Azərbaycanı Qərbdən qırsın, həm də öz orbitində saxlayıb müəyyən məsələləri diktə edə bilsin.

İkinci məsələ isə Qərb dövlətlərinin, xüsusən vasitəçi dövlətlərin Rusiyanın Qarabağ siyasətinə mane olmasını neytrallaşdırmaq və müəyyən dəstək almaqdır. Buna da ilk addımlarda nisbətən nail olublar. Son zamanlar Dağlıq

Qarabağdakı separatçı rejimlə Fransanın bir şəhərinin müqavilə imzalamasını, orada danışıq aparmasını xüsusi qeyd etmək istəyirəm. Vasitəçi bir dövlət tərəfindən belə bir addım atılması blefə uymanın bir təzahürü kimi qiymətləndirilə bilər. Dağlıq Qarabağda aparılan siyasətə kölgə salmadan öz təklifimi vermək istəyirəm ki, məncə, yeni siyasi, diplomatik, hərbi yol təklif olunmalıdır. Bununla bağlı Azərbaycanın suverenliyinin təmin olunması üzrə dövlət siyasətinin xüsusiyyətləri haqqında qanun qəbul olunmalıdır. Bunu reinteqrasiya haqqında qanun da adlandırmaq mümkündür. Bu qanun layihəsində vətəndaşlığa yanaşma məsələsinə də baxılmalıdır. Sonradan Dağlıq Qarabağ və onun ətrafındakı işğal olunmuş ərazilərə köçürülmüş əhalinin məsələsi də xüsusi qeyd olunmalıdır ki, müharibənin faciəvi nəticələr doğuracağı halda həmin itkilər yerli dinc sakinlərin itkisi kimi qəbul olunmasın, çünki onlar qanunsuz miqrantdırlar və ərazilərimizə işğalçı tərəfindən köçürülüblər.

İkinci məsələ. 2016-cı ilin aprel savaşından sonra cənab Prezidentə və bizlərə olan minlərlə müraciətdən görünürdü ki, Dağlıq Qarabağdan və işğal olmuş digər ərazilərdən qovulmuş əhali ərazilərin işğaldan azad olunmasında fəal şəkildə iştirak etmək istəyir. Biz partizan hərəkatının qanuni olmasını nəzərə alaraq, onun mexanizminin həyata keçməsi və əhalinin fəal iştirakının hüquqi əsaslarının hazırlanması üçün də addımlar ata bilərik. Həmin hüquqi sənədlə gələcəkdə xüsusi hərbi əməliyyatların formatlarının dəyişdirilməsi üçün addımlarımıza hüquqi zəmin yaratmış olarıq. Mən bir daha qeyd edirəm ki, aparılmış siyasətə kölgə salmadan və əgər məsələlər dinc yolla həll olunacaqsa, bunu da alqışlayaraq və bizim indiyə qədər apardığımız hərbi və sair siyasəti də, heç bir şeyə nail

olunmayacağı təqdirdə və ermənilərin dalbadal pozulmuş səylərini də nəzərə alaraq, bu addımları atmağımızı vacib sayıram. Çünki nəinki indiyə qədər bəzi tribunalardan, eləcə də BMT tribunasından Dağlıq Qarabağ ətrafındakı rayonların da işğaldan azad olunmayacağının bəyan edilməsi, xarici işlər nazirləri səviyyəsində danışıqlarda ermənilərin at oynatması, Azərbaycan ərazilərində keçirdikləri qanunsuz uçuşlar və müxtəlif çağırışlar onu göstərir ki, biz də ən sərt yollara tam hazır olduğumuzu göstərməliyik.

Bu məsələdə Milli Məclis də Prezidentə ciddi dəstək verməlidir. Hər kim danışırsa, yalnız Ali Baş Komandanın əmri olandan sonra filan şeyi edəcəyik deməklə kifayətlənməli deyil. Ciddi şəkildə bütün beynəlxalq ictimaiyyətə göstərməliyik ki, bizim artıq çox sərt addım atmağımız əhalini tam şəkildə toplamaq, əraziləri işğaldan qurtarmağa fəal hazırlamaq üçün qanun layihələrimiz hazırdır. Bir daha qeyd etmək istəyirəm, aparılan işlərə kölgə salmadan bu qanun layihəsinin də payız sessiyasında qəbul olunmasını təklif edirəm.

İkinci təklifim isə yenə Dağlıq Qarabağla bağlıdır. Mən həmişə bu məsələni təklif eləmişəm. Bir daha təklif edirəm ki, əgər lüzum varsa, siz də uyğun bilirsinizsə, bir müzakirə aparıb Milli Məclisdə Qarabağ komitəsinin təsis olunmasına baxmağımız lazımdır. Bir daha bildirim ki, mümkün olarsa, bu məsələləri ciddi müzakirə eləmək üçün Dağlıq Qarabağa aid bir iclasın keçirilməsini də xahiş edirəm və deputat həmkarlarımdan da dəstək istəyirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Azay Quliyev.

**A.Quliyev**. Təşəkkür edirəm. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, hörmətli mətbuat nümayəndələri! Məndən əvvəl çıxış edən hörmətli həmkarlarıma qoşu-

laraq, Milli Məclisin üzvlərini, əməkdaşlarını həm 100 il-lik yubiley münasibəti ilə, həm də yeni sessiyanın, payız sessiyasının başlanması münasibəti ilə ürəkdən təbrik edirəm və hər birinizə uğurlar diləyirəm.

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Bu gün müzakirəmizə təqdim olunan qanunvericilik işləri planı, həqiqətən, bir çox mühüm və önəmli layihələri əhatə edir. Bu barədə biz müzakirələr zamanı fikirlərimizi bildi-rəcəyik. Ancaq bununla yanaşı, mənə verilən fürsətdən istifadə edərək bir neçə təklifi də səsləndirmək istəyirəm. Ümid edirəm ki, bu təkliflər də bizim işlər planına daxil edilə bilər.

Birinci təklif Sosial sifariş haqqında qanun layihəsidir. Bilirsiniz ki, Azərbaycan neçə illərdir ki, sosial dövlət siyasətini uğurla həyata keçirir. Bununla bağlı bizim Kons-titusiyada da dəyişikliklər eləmişik və cənab Prezidentin həyata keçirdiyi işlər, icra olunan layihələr bir amala xid-mət edir – Azərbaycan vətəndaşına, Azərbaycan vətəndaşı-nın sosial rifahının yaxşılaşdırılmasına. Belə bir halda bu gün çox böyük ehtiyac var ki, Azərbaycan dövlətinin so-sial siyasətinin həyata keçirilməsində vətəndaş institutları sosial sifariş formasında yaxından iştirak etsinlər. Belə bir layihə hazırlanıb, bir çox ekspertlərlə müzakirə olunub və Milli Məclisin Aparatına təqdim olunubdur. Biz bununla bağlı Milli Məclisin müvafiq şöbəsi ilə də müzakirələr aparmışıq. Əgər cənab Sədr, etiraz etməsəniz, biz bunun ilkin olaraq ictimai müzakirələrini keçirər, sonra isə Milli Məclisin növbəti işlər planına daxil edərdik.

İkinci məsələ. Hesab edirəm ki, bu da çox önəmlidir. Söhbət peşə birlikləri haqqında qanun layihəsindən gedir. Bu gün, bilirsiniz ki, Azərbaycanda həm sahibkarlığın inki-şafı ilə bağlı, həm də ayrı-ayrı sahələrdə həyata keçirilən

layihələrin daha uğurla yerinə yetirilməsi üçün müxtəlif peşə sahələrinə ehtiyac yaranır və bu peşə sahələrində fəaliyyət göstərən insanların hüquq və mənafelərinin qorunması ilə bağlı onların bir araya gəlməsi zərurəti yaranır. Beləliklə, qanunvericiliyə həm peşə birliklərinin statusu, həm də yaranması haqqında yeni bir müddəanın gətirilməsi bu gün, hesab edirəm, zəruri məqamlardan biridir. Eyni zamanda, peşə birlikləri qeyd etdim ki, faktiki fəaliyyət göstərsə də, bu fəaliyyətin konkret çərçivəsi, dairəsi müəyyənləşməyib. Bəli, ola bilsin, bəzi ekspertlər qeyd edə bilər ki, Azərbaycanda qeyri hökumət təşkilatları haqqında qanun var, bu qanun hansısa formada peşə birliklərinin fəaliyyətini tənzimləyə bilər. Amma bu kifayət deyil. Bilirsiniz ki, QHT-lər haqqında qanun konkret çərçivə sənədidir və peşə birlikləri haqqında qanunun qəbulu, hesab edirəm ki, bu sahədə vətəndaşlarımızın hüquqlarını daha mükəmməl qoruya bilər. Bu baxımdan, əgər etiraz etmirsinizsə, bu barədə də Milli Məclisin Aparatına əlavə təkliflər verə bilərik. Mən bir daha qeyd etmək istəyirəm ki, bir neçə il bundan öncə hər iki qanun layihəsi tərəfimizdən hazırlanmış və Milli Məclisin Aparatına təqdim olunmuşdur.

Hörmətli cənab Sədr, mən bilirəm, bu il payız sessiyasının gündəliyi kifayət qədər zəngindir, amma buna baxmayaraq, həm vətəndaş cəmiyyəti institutlarının rəy və təkliflərini nəzərə alaraq, həm də bu gün qeyd etdiyim iki istiqamətdə yaranmış münasibətlərin hüquqi baxımdan tənzimlənməsinə daha çox ehtiyac olduğunu qeyd edərək, bu təklifləri səsləndirirəm. Ümid edirəm ki, təkliflərə diqqətlə yanaşacaqsınız. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Əli Məsimli.

**Ə.Məsimli**. Çox sağ olun, cənab Sədr. Hörmətli Sədr,

hörmətli millət vəkilləri, media mənsubları! Mən də payız sessiyasının başlanması münasibəti ilə Milli Məclisin Sədrini, rəhbərliyini, deputat həmkarlarımı, Milli Məclisin Aparatını təbrik edir, işlərində uğurlar arzulayıram.

2018-ci ilin payız sessiyasının qanunvericilik işlər planına, hesab edirəm ki, çox vacib qanunvericilik sənədləri salınıb və onların qəbul edilməsi aidiyyatı istiqamətlərdə qanunvericilik sahəsində kifayət qədər irəliyə doğru addım olacaq. Bir də təşəkkür etmək istəyirəm ki, təkcə qanunların deyil, qanunlara dəyişikliklərin də 3 oxunuşdan keçirilməsi, çiy formada əlavə və dəyişikliklərin keçməsinin qarşısını almağın ən gözəl mexanizmi olacaq. Bu nöqteyi-nəzərdən, xüsusən bank sistemi ilə bağlı, maliyyə sistemi ilə bağlı indiki dövrdə daha cilalanmış əlavə və dəyişikliklərin edilməsini vacib hesab edirik. Bu baxımdan, hesab edirəm ki, 3 oxunuşda əlavə və dəyişikliklərin qəbul edilməsi Milli Məclisin aidiyyatı komitələri ilə bankların, maliyyə qurumlarının əlaqələrini xeyli dərəcədə yaxınlaşdıracaq.

Eyni zamanda, keçən ay Konstitusiya Məhkəməsinin kreditlərlə bağlı qəbul etdiyi qərarı mən təkcə əhaliyə yox, həm də banklara böyük bir zərbə hesab edirəm, ona görə ki, həmin qərardan sonra bankların düşdüyü vəziyyətdən çıxması daha da çətinləşəcək. Ona görə ki, kredit alanların bir hissəsinin, həqiqətən də, həmin kreditləri qaytarmaq üçün maliyyə vəsaiti yoxdur. Ona görə də hesab edirəm ki, həm qanunvericilik sənədlərində bir sıra dəyişikliklərin edilməsi, həm də əlavə qanunların qəbul edilməsi çox vacibdir. Bu baxımdan, deputat həmkarım Zahid müəllim qeyd elədi, "Əmanətlərin tam sığortalanması haqqında" Qanunun müddətinin uzadılması ilə yanaşı, kredit risklərinin sığortalanması barədə də qanunun qəbul edilməsini

çox vacib hesab edirəm. Belə bir qanunun qəbul edilməsi indi xarici valyutada olan kreditlərlə bağlı banklarla vətəndaşlar arasında yaranmış gərgin vəziyyəti xeyli dərəcədə yumşaltmış olar. Eyni zamanda, həm də insanların bir hissəsinin kreditləri qaytarmaq imkanı yoxdursa, bütün dünyada qəbul olunmuş prinsiplər üzrə hərəkət edib müflisləşmə haqqında əlavə bir qanunun qəbul edilməsi, yaxud da müflisləşmə haqqında olan mövcud qanuna fiziki şəxslərin də müflisləşməsi barəsində bir neçə maddənin salınması ilə bu məsələni də xeyli dərəcədə həll etmək olar. Hesab edirəm ki, bu istiqamətdə atılan addımlar çox vacibdir.

Keçən sessiyalarda olduğu kimi, bu sessiyada da təhsillə bağlı bir qanun layihəsi gündəliyə, plana salınıb. "Ümumi təhsil haqqında" qanun layihəsi. Mən bunu alqışlayıram. Hesab edirəm ki, indiki dövrdə əgər bizdə orta maaş təqribən 550 manatın altındadırsa, büdcə təşkilatlarında çalışanların xeyli hissəsinin, müəllimlərin, həkimlərin, elm, mədəniyyət, incəsənət işçilərinin isə maaşları 250–300 manatdırsa, təhsil haqlarının 4000–4500 manata gəlib çatması başa düşülən deyil. Bu, hər il minlərlə gəncin təhsildən ayrılmasına gətirib çıxarır. Ona görə ki, onlar həmin təhsil haqlarını ödəyə bilmirlər. Ona görə hesab edirəm ki, təhsil kreditləri haqqında qanunun da qəbul edilməsini sürətləndirmək lazımdır. Hazır qanun var, aidiyyatı komitə həmin qanunu götürüb istifadə edə bilər. Başqa yol isə zamanı uzatmaq demək olacaq.

"Hesablama Palatası haqqında" Qanunun qəbul edilməsi irəliyə doğru mühüm addımdır. Orada Hesablama Palatasının hüquqları artdı və "Hesablama Palatası haqqında" Qanunun qəbul edilməsi Dövlət maliyyə nəzarəti haqqında da qanunun qəbul edilməsini çox vacib edir.

Çünki bu qanun qəbul edilən kimi o istiqamətdə bir neçə yeni qanun da qəbul ediləcək. Bu da dövlət vəsaitindən öz təyinatına görə istifadə edilməsinin və dövlət vəsaitinin bir sıra hallarda nəzarətsiz surətdə dağıdılmasının qarşısının alınmasının hüquqi bazasını yaradacaq. Diqqətinizə görə təşəkkür edirəm. Bir daha hamıya uğurlar arzulayıram.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov.

**S.Novruzov.** Təşəkkür edirəm, hörmətli Sədr. Mən də təqdim olunan plana səs verəcəyəm. Hesab edirəm ki, burada müəyyən məsələlər nəzərdə tutulubdur və bizim əlavə və təkliflərimiz də bunu daha da zənginləşdirəcəkdir.

Dövr, zaman dəyişdikcə, iqtisadiyyat inkişaf etdikcə, ayrı-ayrı əlaqələrin, münasibətlərin yaranması ilə qanunların da dəyişməsində fəallıq artır və görürsən ki, dünən qəbul olunmuş qanun artıq bu gün köhnə bir qanuna çevrilir və yenisi qəbul olunur. Odur ki, mütəmadi olaraq bu qanunların təkmilləşdirilməsi və yenilərinin qəbul edilməsi labüddür. Bu baxımdan, parlamentin payız sessiyasında çoxsaylı belə qanunların olması məqsədəyğundur. Elə götürək bizi əhatə edən dövlətlərdən. Misal üçün, iki dövlətdə, üç dövlətdə dövlət quruluşunun dəyişməsini götürək. Ermənistanın, Gürcüstanın prezidentli respublikadan parlamentli respublikaya çevrilməsi, yaxud Türkiyənin parlamentli respublikadan prezidentli respublikaya çevrilməsi. Yəni baş verən hər bir hadisə, bizdən asılı olan, olmayan hadisələr beynəlxalq müqavilələrdə, beynəlxalq əlaqələrdə dəyişikliklərə yeni bir yol açır və biz də bu dəyişiklikləri edirik.

Burada, mən Azərbaycanda növbəti ildə bələdiyyə seçkilərinin keçirilməsinə xüsusi toxunmaq istəyirəm. Bələdiyyə seçkiləri ilə əlaqədar Azərbaycanda kifayət qədər qanunlar var. Lakin mən hesab edirəm ki, bunların

təkmilləşməsinə böyük ehtiyac var. Bələdiyyələrin fəaliyyəti, səlahiyyəti ilə bağlı deyil, onların üzvlərinin sayı və seçki baxımından prosedur qaydasının təkmilləşdirilməsinə ehtiyac var. Mən hesab edirəm ki, bu say həddindən artıq çoxdur və dünya praktikasına da baxsaq, istər prezidentli respublikalarda, istərsə də parlamentli respublikalarda bu qədər sayda bələdiyyə üzvünün təmsilçiliyi yoxdur. Bizdə elə rayon var ki, təxminən 500-ə yaxın bələdiyyə üzvü var. Oradakı kəndlərdə, rayon mərkəzində və digər yerlərdə 10 nəfər, 15 nəfər, 50 ailə yaşayan ən kiçik kəndlərdə 3–5 nəfər bələdiyyə üzvü seçilirlər. Belə hallar var. Orada bir nəfər seçilməlidir ki, fəaliyyəti tənzimləsin, yaxud bu işləri aparsın.

Digər tərəfdən, elə yerlər var ki, bələdiyyə üzvlərinin sayı 19 nəfərə çatır, 17 nəfərə çatır, 15 nəfərə çatır. Bir dairədən, görürsən ki, 1 millət vəkili seçilir, yaxud bir rayon ərazisindən uzağı iki millət vəkili seçilir. Ancaq bir rayondan, görürsən ki, 200-dən artıq bələdiyyə üzvü seçilir, 300-ə yaxın bələdiyyə üzvü seçilir. Mən hesab edirəm ki, biz bunu təkmilləşdirməliyik. Bu, onların fəaliyyətinə də xeyli kömək göstərmiş olar. Eləcə də, bələdiyyə sədrlərinin də seçkili olması icra hakimiyyəti ilə bələdiyyə arasında münasibətlərin tənzimlənməsinə xeyli dərəcədə köməklik edəcək.

Başqa bir məsələ. Ümumiyyətlə, mən hesab edirəm ki, milli adətlərlə bağlı da biz qanunlarımızı təkmilləşdirməliyik. İstər yas mərasimləri, istərsə də toy mərasimləri ilə bağlı. Təbii ki, bu, milli adət-ənənədir, normadır. Bu, xalq tərəfindən tənzimlənir. Amma bununla yanaşı, artıq zamanı çatıb ki, bu şeylərin hər biri qanun ilə tənzimlənsin. Qanunla tənzimlənməsə, hər hansı bir tövsiyə ilə, hər hansı bir verilişlə, hər hansı bir ictimai tənbeh ilə

bunun tənzimlənməsi mümkün deyil. Biz dəfələrlə bu məsələləri qaldırmışıq. İstər dəfn adətləri ilə bağlı olsun, istərsə də xeyir mərasimləri ilə əlaqədar millət vəkilləri də çıxış edib, ziyalılar da çıxış edib. Lakin bunun bir nəticəsi olmayıbdır. Çünki oradan vəsait qazanan insanlar bunun qarşısını almaqdan ötrü müxtəlif bəhanələr gətirirlər və nəticə etibarı ilə bu proses pozulur. O baxımdan da, mən hesab edirəm ki, bununla bağlı konkret olaraq qanun qəbul olunmalıdır.

Biz dini ekstremizmə qarşı və digər məsələlərlə bağlı qanun qəbul etdik, nəticəsini gördünüz ki, tam normaya, sistemə düşdü, bu məsələlər öz həllini tapdı. Hesab edirəm ki, bu sahədə də bir qanuna ehtiyac var. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev.** Çox sağ olun, cənab Sədr. Həm Sizi, həm bütün deputat həmkarlarımı yeni payız sessiyasının başlanması münasibəti ilə təbrik edirəm və çıxışıma Siyavuş Novruzovun təklifini dəstəkləməklə başlayıram. Mən də hesab edirəm ki, doğrudan da, bu sahədə nizam-intizam yaratmaq lazımdır. Ona görə ki, restoranlar toy şənlikləri ilə bağlı sifariş qəbul edəndə müştəriyə yalnız müəyyən menyular təklif edirlər ki, bunun da qiyməti ya əlli, ya yetmiş, ya yüz manatdır. Artıq yemək seçimini müştəri özü edə bilməz. Yəni bu da ölkənin qanunvericilik fəlsəfəsinə zidd olan bir məsələdir. Məncə, bunu tənzimləməyə çox ciddi ehtiyac var.

Oqtay müəllim, mənim gündəmə gətirmək istədiyim ikinci bir məsələ, – mən əvvəllər də bu məsələni qaldırmışam, – bizim işğal olunmuş ərazilərin hüquqi statusu ilə bağlı məsələdir. Bununla əlaqədar biz, nəhayət ki, qanun qəbul etməliyik. Eyni problemləri yaşayan digər postsovet respublikalarında bu qanunlar qəbul olunub. Biz görürük

ki, işğal olunmuş ərazilərimizdə bizim təbii sərvətləri talan edən, istismar edən şirkətlərin sayı günbəgün artır. İşğal altındakı yaşayış məntəqələrimizdə ermənilər, erməni diasporu məktəblər tikir, yollar çəkir, həmin əraziləri məskunlaşdırırlar. Yəni oradakı o rejimin hüququ statusu ilə bağlı biz müvafiq qanun qəbul etməliyik və bundan sonra həmin şirkətlər barəsində müvafiq qanunvericiliyə uyğun tədbirlər görülməlidir.

Hamımız bilirik ki, torpaqlarımızın işğal altında qalmasının səbəbkarı bizim düşmən elan etdiyimiz Ermənistan deyil, Ermənistan olsa idi, biz bununla çoxdan bacarardıq. İndi bəzən Qarabağ məsələsindən siyasi məqsədlər üçün istifadə etmək istəyən insanlar zaman-zaman, belə deyək, bu məsələ ilə manipulyasiya etmək istəyirlər ki, niyə biz Ermənistanın öhdəsindən gələ bilmirik. Amma söhbət ondan gedir ki, axı bu işğalın arxasında Rusiya dayanıb və mən hər zaman söyləmişəm ki, Rusiya ilə danışıqlar aparılmalıdır. İnsanlarda xüsusi olaraq əlavə əsəb gərginliyi yaratmaq əvəzinə biz də, həmin adamlar da onu düşünməliyik ki, biz nə qədər hərbi potensialımızı artırsaq da, əgər Rusiya Ermənistana dəstək verəcəksə, o torpaqları hərb yolu ilə azad etmək imkanlarımız ciddi şübhə altında olacaq. Ola bilər ki, hələ bizim yeni ərazilərimiz də həmin bu cütlük tərəfindən işğal olunsun. Ona görə də daha təmkinli siyasət yürütmək lazımdır.

Mən o fikirdəyəm ki parlamentdə də müzakirələr aparılmalıdır, Dağlıq Qarabağ məsələsi ilə bağlı müvafiq komitə yaradılmalıdır. Hökumət Rusiya ilə aparılan danışıqlar barədə parlamentə də məlumat verməlidir.

Mənim burada söyləməli olduğum ikinci məsələ Ümumi təhsil haqqında qanun layihəsi barədədir. Bu yaxınlarda bizim hörmətli təhsil naziri Azərbaycanda rus dilinin

öyrənilməsi ilə bağlı xüsusi əmr imzaladı. Azərbaycanda kifayət qədər rus dilli məktəblər var və Rusiyada 2 milyon azərbaycanlı yaşayır. Azərbaycanın kənd təsərrüfatı məhsulları, əsasən, Rusiyaya ixrac olunur. Yəni Rusiya bizim böyük qonşumuzdur və bu dilin öyrənilməsinin mən qətiyyən əleyhinə deyiləm. Əslində, hesab edirəm ki, nə qədər çox adam rus dilində danışa bilsə, bu, bir o qədər faydalıdır. Mən vaxtı ilə sovet ordusunda qulluq edəndə görürdüm ki, ermənilərlə gürcülərin əksəriyyəti rus dilində danışır. Amma azərbaycanlılardan yalnız Bakı şəhərindən olanlar, onların da hamısı deyil, Gəncə və Sumqayıtdan müəyyən sayda insanlar rus dilində danışa bilirdilər. Ermənilərlə gürcülərin isə əksəriyyəti bilirdi.

Hazırda biz görürük ki, Azərbaycanda elm adamlarının çoxu beynəlxalq dil olan ingilis dilini bilmir. Hətta diplomatlarımızın bir hissəsi bilmir. İqtidarlı, müxalifətli siyasətçilərin çoxu ingilis dilində akademik səviyyədə danışa bilmir. Amma ermənilərlə gürcülər, hesab edirik ki, bu dili daha yaxşı mənimsəyirlər. Mən hesab edirəm ki, Azərbaycanda beynəlxalq dil olan ingilis dilinin mənimsənilməsi ilə bağlı xüsusi dövlət proqramı qəbul edilməli və təhsil nazirinin növbəti əmri bu barədə olmalıdır.

Bizim ingilis dilinə çox böyük ehtiyacımız var. Yenə deyirəm, sovet dövründə rus dilini öyrənməli idik. Onda yaxşı öyrənmədik. Allah rəhmət etsin, mərhum Prezident Heydər Əliyev hakimiyyətə gələndən sonra yaxşı ki, azərbaycanlıları göndərirdi Rusiyanın universitetlərinə ki, rus dilini mənimsəsinlər. O vaxtlar dünya elminə çıxış rus dili üzərindən idi, dünya ədəbiyyatına çıxış bu dil üzərindən idi. Amma hazırda ingilis dilinə ehtiyac var və bu dilin öyrənilməsi ilə bağlı vəziyyət çox acınacaqlıdır. Ona görə də xahiş edirəm...

**Sədrlik edən.** Çox sağ olun. İngilis dili dedin, yadıma düşdü. Bir neçə il qabaq mən təşəbbüs göstərdim, pulsuz ingilis dili kursları yaratdıq ki, bizim millət vəkillərindən kim istəyirsə, o kurslara getsinlər. Çox təəssüf olsun ki, o kurslarda cəmi 3–4 nəfər qaldı. Sonra pulsuz kurslar da qaldı kənarda, deputatlarımız o dili öyrənməyə də başlamadılar. Yəni belə məsələlər də var. Gövhər Baxşəliyeva.

**G.Baxşəliyeva.** Hörmətli Oqtay müəllim, mən də istərdim bütün həmkarlarımı payız sessiyasının başlanğıcı ilə təbrik edəm və öz fikirlərimi bildirəm. Oqtay müəllim, o yubiley tədbirləri çərçivəsində Sizin zəhmətiniz, deputatların zəhməti barədə burada daha öncə fikirlər səsləndi. Mən o fikirlərə qoşularaq, istərdim, Milli Məclis Aparatı işçilərinin, şöbələrin əməkdaşlarının, xüsusilə Beynəlxalq şöbənin əməkdaşlarının zəhmətini də vurğulayam. Onlar, həqiqətən də, çox gərgin rejimdə çalışdılar və bu işlərin uğurlu alınmasında onların da böyük zəhməti oldu.

Daha sonra, burada vurğulandı, mən qonaqların heyranlığını qeyd etmək istərdim. Ümumiyyətlə, Azərbaycana gələn bütün qonaqlar böyük heyranlıqla buradan ayrılırlar və onlar yenidən bura qayıtmaq istəyirlər. Mən işlədiyim nümayəndə heyəti də dəfələrlə xahiş etdilər ki, yenidən onlar Azərbaycana dəvət olunsunlar.

Qanunvericilik işləri planı kifayət qədər zəngindir. Burada qəbul edilməsi zəruri olan kifayət qədər aktual qanun layihəsi əksini tapıbdır. Mən bir məsələ haqqında danışmaq istərdim. Oqtay müəllim, bizim ailədaxili zorakılıq haqqında qanunvericiliyimizdə də bu məsələlər kifayət qədər öz əksini tapıb. Beynəlxalq konvensiyalara qoşulmuşuq. Amma mən düşünürəm ki, ailədaxili zorakılıq halları artır. Xüsusən qadınlara qarşı zorakılıq halları artır. Ailə dağılır, keçmiş ər gedir həyat yoldaşını

öldürür. Yəni bu halları biz mütəmadi olaraq izləyirik, görürük. Mən düşünürəm ki, bu istiqamətdə qanunvericiliyimiz bir qədər də sərtləşdirilməlidir ki, biz belə halların mümkün qədər qarşısını alaq.

Daha sonra, burada Kinematoqrafiya haqqında qanun layihəsinin hazırlanması barədə məsələ var. Mən düşünürəm ki, bu çox vacib qanun layihəsidir və bu sahədə çox işlər görülməlidir. Belə ki, bilirsiniz, uzun müddət, 70 il ərzində Azərbaycan tarix elmi sovet, kommunist ideologiyası çərçivəsində inkişaf edirdi. İndi müstəqil bir ölkəyik və görürük ki, tariximiz o kitablarda öz əksini tam tapmayıbdır. Tariximizdə bir çox səhifələr var ki, bizim milli maraqlara xidmət edir və biz öz tariximizə yenidən baxmalıyıq.

Bilirsiniz, son illər Prezident Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin rəhbərliyi ilə, onun geniş ön sözü ilə Azərbaycan tarixşünaslığına dair çox önəmli əsərlər işıq üzü görübdür. Məsələn, Şah İsmayıl Xətai haqqında, Nadir şah haqqında. Daha sonra, Azərbaycan–İran diplomatik münasibətləri haqqında və sair.

Mən deyərdim ki, bu əsərlər bizim tarixşünaslıq elmimizdə inqilabi bir dəyişiklik edibdir. Mən düşünürəm ki, bizim gənclərimiz Şah İsmayılın doğru-dürüst obrazını görməli və qavramalıdırlar. Bu gün Şah İsmayılın obrazı istər İran tarixşünaslığında, istərsə də dost-qardaş Türkiyə tarixşünaslığında təhrif olunur, bizim mövqeyi əks etdirmir. Amma o əsərlərdə, Ramiz müəllimin ortaya qoyduğu əsərlərdə orta əsrlərə aid mənbələrə əsaslanaraq Azərbaycan xalqına xidmət etmiş həmin böyük sərkərdələrimizin portretləri yaradılıbdır, Azərbaycan tarixinin çox önəmli səhifələri işıqlandırılıbdır. Düşünürəm ki, yeni filmlər çəkilməlidir. Necə ki, bu gün gənc nəslin ha-

fizəsində Babək obrazı çəkilən həmin filmə uyğun təsbit olunubsa, eləcə də biz Şah İsmayıl haqqında...

**Sədrlik edən.** Çox sağ olun. Qənirə Paşayeva buyursun.

**Q.Paşayeva.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Mən də sizi payız sessiyasının başlanması münasibəti ilə təbrik edirəm və uğurlu bir sessiya diləyirəm. Eyni zamanda, cənab Prezidentimizin rəhbərliyi altında Cümhuriyyətimizin 100-cü ildönümü münasibəti ilə tədbirlərin yüksək səviyyədə keçirilməsi və yenə də cənab Prezidentimizin və cənab Sədr, Sizin rəhbərliyiniz altında parlamentimizin 100 illik tədbirlərinin yüksək səviyyədə keçirilməsi münasibəti ilə mən də təbriklərə qoşuluram, təşəkkürlərə qoşuluram. Özəlliklə xarici qonaqların bu tədbirləri nə qədər yüksək səviyyədə qiymətləndirməsi, təbii ki, ölkəmizə olan münasibətdir. Ona görə əməyi keçən hər kəsə təşəkkür etməyi özümüzə bir borc bilirik.

Payız sessiyasının gündəlik işlər planı həddindən artıq önəmli qanun layihələri ilə zəngindir. Təbii ki, biz onları dəstəkləyirik və müzakirələrdə də fəal iştirak edəcəyik. Sadəcə, bəzi məsələlərin də müzakirəyə çıxarılması istiqamətində fikirlərimizi bölüşmək istəyirik. Bunlardan birincisi ondan ibarətdir ki, ölkəmizdə təhsil haqları artırıldı. Dövlət universitetlərində də təhsil haqları artırıldı. Özəlliklə mənim kimi kənd rayonlarını təmsil edən millət vəkilləri yaxşı bilir, bu, kəndlərimizdən ali məktəblərə daxil olan ailələrin övladları üçün, bu ailələr üçün problemləri də xeyli artırdı. Çünki özəlliklə I kursa daxil olan tələbələrdən illik təhsil haqqını elə ilin başlanğıcında, yəni təhsil ilinin başlanğıcında ödəməyi istədilər. Onlara heç olmasa, kursun sonuna qədər də möhlət verilmir. Çox təəssüf ki, insanların təhsil haqlarının

ödəmələrində çətinlik yaranır ki, bu da gələcəkdə kəndlərimizdən, rayonlarımızdan ali məktəblərə üz tutanlara öz təsirini göstərə bilər. Nəzərə alaq ki, bəzi universitetlərimizin yataqxanaları da yoxdur. Həmin ailələr uşaqlarını oxutmaq üçün kirayə ev tutmalıdırlar. Ona görə bu, xüsusi problemlər yaradır. Ona görə mən təhsil kreditləri ilə bağlı məsələləri qaldıraraq istərdim ki, biz qanun layihəsi şəkilində təhsil kreditlərini də müzakirəyə çıxaraq. Çünki bütün dünyada qəbul olunub ki, təhsil kreditlərinin ali təhsilin inkişafında, onun daha geniş əhali kütləsini əhatə etməsində xüsusi rolu var. Bizim insanlarımız və gənclərimiz üçün, kəndlərdə, kənd rayonlarında yaşayan kasıb ailələrin övladları üçün də bu həddindən artıq vacibdir. Ona görə bu məsələnin gündəliyə salınmasını xahiş edərdik. Bu, təhsilin inkişafına da öz təsirini göstərərdi.

İkinci bir məsələ. Biz yay ərzində kəndlərdə, bölgələrimizdə seçki dairəmizin insanları ilə görüşürdük. Ailələr müraciət edirdi. Bu gün bir göstərici var. Dünyada da bu göstərici artır və Azərbaycanda da açıq söyləyək, bu artır. Sonsuzluq artır. Yəni sonsuz ailələrin sayı artır. Bu da boşanmalara da öz təsirini göstərir. Yəni ailə faciələrinin sayını da artırır. Ona görə də Reproduktiv sağlamlıq haqqında qanunun qəbul olunmasına ehtiyac var. O qanun layihəsindən ziddiyyətli məqamlar çıxarıldı. Artıq demək olar ki, layihədə ziddiyyət doğuran məsələlər də yoxdur. Bu layihə hazırdır. Reproduktiv sağlamlıq ana sağlamlığıdır, qadın sağlamlığıdır. Ana sağlamlığı isə sağlam nəsil deməkdir. Ona görə, özəlliklə süni mayalanma ilə bağlı ailələrin tibbi dəstək alması istiqamətində, onlara dövlət dəstəyi verilməsi o layihədə öz əksini tapırdı. Bunu çox gözləyən ailələr var. Nəzərə alsaq ki, tibbi sığorta da

hələ geniş tətbiq olunmayıb, bunun nə qədər vacib olduğu görünür. Ona görə reproduktiv sağlamlıq haqqında qanunun müzakirəyə çıxarılmasını təklif edərdik ki, bu məsələ də gündəliyə daxil edilsin.

Digər məsələ. Bizim illər öncə qəbul etdiyimiz orqan transplantasiyası, orqan köçürülməsi ilə bağlı qanun layihəsinin bir sıra maddələri çalışmırdı. Bu da ölkədə transplantasiyanın inkişafına öz mənfi təsirini göstərirdi. Səhiyyə komitəsində bununla bağlı işçi qrupu da yaradıldı, mütəxəssislərin iştirakı ilə müzakirələr də gedirdi. Demək olar ki, bu da hazırdır. Əgər müzakirəyə çıxarılsa, transplantasiya, orqan köçürülməsi haqqında qanun layihəsindəki boşluqları aradan götürəcək məsələlərdir. Bu, həm bu sahənin inkişafına, həm də yüzlərlə deyil, minlərlə xəstənin, minlərlə insanın həyatına da öz təsirini göstərərdi. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Əflatun Amaşov.

**Ə.Amaşov.** Hörmətli cənab Sədr, hörmətli deputatlar, əziz media nümayəndələri! Mən də payız sessiyasının başlanması münasibəti ilə hamınızı təbrik edirəm. İşlər planı kifayət qədər zəngindir. Düşünürəm ki, burada hər məsələ olduqca önəmlidir. Mən də bir neçə məsələ ilə bağlı çıxış etmək istəyirəm.

2016-cı ildən ölkəyə gətirilən hazır çap məhsulları və qəzet kağızı ilə əlaqədar əlavə dəyər vergisi tətbiq edilir. Bu zaman Nazirlər Kabinetinin 2015-ci ildə ləğv olunmuş 11 saylı qərarına istinad olunur. Məsələ burasındadır ki, vaxtı ilə həmin qərara əsasən ölkəyə gətirilən qəzet və jurnallar, həm də qəzet kağızı ƏDV-dən azad idi. Halbuki əvvəldən məsələnin qərara salınması düzgün deyildi. Çünki Vergi Məcəlləsinin 164.1 və 164.1.7-ci maddələrində idxal olunan KİV məhsullarının ƏDV-dən azad olun-

duğu vurğulanırdı. Elə ziddiyyət də buradadır. Nə üçün Vergi Məcəlləsi ola-ola Nazirlər Kabinetinin ləğv edilmiş qərarına əsasən ƏDV tətbiq olunur. Yaxşı olardı ki, qanunvericilik planında bu məsələyə necəsə diqqət yetirək. İstərdim ki, bizim qəbul etdiyimiz qanunları heç bir icra strukturu özünün mənafeyinə uyğun yozub ondan istifadə etməsin.

İkinci məsələ onlayn media ilə bağlıdır. İnternetin cəmiyyətə təsiri kifayət qədər önəmlidir, genişdir. Hörmətli Zahid müəllim də bayaq bu barədə öz fikirlərini bildirdi. Qanunvericiliyimiz də buna adekvat olaraq inkişaf edir, ayrı-ayrı qanunlara dəyişiklik nəticəsində internet üzərindən yayımın məsuliyyəti məsələsinə diqqət yetirilir. Faydalı dəyişikliklərdən biri kimi mən "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Telekommunikasiya haqqında" qanunları vurğulamaq istərdim. Ancaq hesab edirəm ki, internet medianın funksiya və vəzifələri ayrıca qanunda əksini tapsa, daha faydalı olardı. "Televiziya və radio yayımı haqqında" Qanun varsa, kabel şəbəkəsi haqqında qanun qəbul etməyi düşünürüksə, demək internet media fəaliyyətinin də hüquqi əsaslarını bir qanunda birləşdirmək zəruridir. Bu imkan verəcək ki, həm bu sahədə boşluqlar aradan qalxsın, həm də biz internet medianın da dövlət yardımından bəhrələnməsinə nail olaq. Məncə, bu, günümüz üçün çox vacibdir.

Qeyd etmək istədiyim növbəti məsələ informasiya təhlükəsizliyi ilə bağlıdır. Əlbəttə, müəyyən dövlət sənədlərində bu məsələyə diqqət yetirilib. Azərbaycanda Milli Təhlükəsizlik Konsepsiyası və "Milli təhlükəsizlik haqqında" Qanun var. Lakin bu sənədlərdə informasiya təhlükəsizliyi məsələsinə ümumi yanaşılır. Halbuki informa-

siya təhlükəsizliyinin təminatındakı metodlar fərqlidir. Düşünürəm ki, günümüzün reallığını nəzərə alaraq, mövcud istiqamətdə daha fundamental yanaşma vacib hesab olunsun. Bunun üçün informasiya təhlükəsizliyi ilə bağlı ayrıca konsepsiyanın, yaxud da qanunun qəbuluna ehtiyac var. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Rafael Hüseynov.

**R.Hüseynov.** Təşəkkür edirəm. Hörmətli Məclis, söz yox ki, arxada qalan günlərin ən əlamətdar hadisəsi Milli Məclisimizin, Azərbaycan parlamentinin 100 yaşını təntənə ilə bayram etməsi oldu. Bu, Azərbaycana, dövlətimizə və millətimizə şərəf gətirən son dərəcə şanlı bir tarixdir. Amma 2018-ci il hələ bitməyib, davam edir. Demək, istiqlalımızın 100 yaşına biz qarşıdakı günlərin hər birində də töhfələrmizi verməyə səy göstərməliyik. Güman edirəm ki, payız sessiyasının gündəliyinə daxil edilmiş məsələlər elə bu baxımdan bizim müstəqilliyimizin, istiqlalımızın və konkret olaraq Azərbaycan Məclis-i-Məbusanının, parlamentinin yaranmasına töhfələrimiz sırasından qavranıla bilər.

Mən təşəkkür edirəm ki, payız sessiyasının gündəliyində Azərbaycan mədəniyyəti və onun inkişafı ilə əlaqədar bir sıra mühüm qanun layihələri nəzərdə tutulub. Mədəniyyət Azərbaycan üçün yalnız mənəviyyat məsələsi deyil, mənəviyyat məsələlərindən daha geniş bir sahəni əhatə edir. Mədəniyyət bizim üçün bu gün dünyada özünü təsdiqimizin, özünü ifadəmizin vacib vasitələrindən biridir. Ona görə həm də siyasət deməkdir.

Payız sessiyasının gündəliyində yer alan mədəniyyətlə bağlı qanun layihələrindən birincisi Kinematoqrafiya haqqında layihədir. Bu, son dərəcə əhəmiyyətlidir. Dünya kinosunun bu il 123 yaşı tamam olur. Amma Azərbaycan

kinosunun yuvarlaq ildönümüdür – 120 yaşıdır. 1895-ci ildə dünya kinosu yaranıb. Artıq 1898-ci ildə Azərbaycanın öz kinosu var idi. Dünyanın irəli getmiş bir çox dövlətlərinin bu gün bu qədər dərinə gedən, keçmişə gedən kinematoqrafiya tarixi yoxdur. Biz bununla fəxr etməliyik. Ona görə də biz Azərbaycan kinosunun çox güclü inkişafına təkan verə biləcək mükəmməl bir qanun layihəsi hazırlamışıq. Mən inanıram və ümid edirəm ki, müvafiq qurumlar kinematoqrafiyamızın inkişafı üçün bu qanun layihəsində nəzərdə tutulmuş bir sıra güzəşt və imtiyazların reallaşmasına köməyini əsirgəməyəcəklər. Çünki bu güzəşt və imtiyazlar, əslində, Azərbaycan Respublikasında bir sıra başqa sahələrdə artıq tətbiq edilməkdədir. Zənn edirəm ki, onlar kinematoqrafiya sahəsində də tətbiq edilərsə, kinomuzun inkişafında tamamilə yeni bir üfüqün açılmasına, yeni bir mərhələnin başlanmasına təkan verəcəkdir. Bu qanun layihəsində nəzərdə tutulan müddəaların hamısı, əslində, Müstəqil Dövlətlər Birliyinə daxil olan, kino sahəsində irəli getmiş bir sıra ölkələrin qüvvədə olan qanunlarında var və dünya kinosu üzrə qanunvericilik praktikasından alınmışdır. Ona görə də güman edirəm ki, müvafiq qurumlar bir daha bu məsələyə baxacaq və kinematoqrafiya qanununun məhz bizim təqdim etdiyimiz səviyyədə güzəşt və imtiyazlarla birlikdə qəbul olunmasına köməyini əsirgəməyəcəklər.

Bu payız sessiyasının gündəliyində bizim muğam sənətinin qorunması və inkişafı haqqında hazırladığımız kifayət qədər əhatəli bir qanun var. Düşünürəm ki, dövlətimizin, ölkə prezidentinin, ölkənin Birinci vitse-prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanımın bu sahəyə ayrıca diqqəti konkret olaraq bizim qanunvericilik bazasında da əksini tapmalı, gələcəkdə muğam

sənətinin qorunması və inkişafı üçün daha ciddi təməllərin sabitləşməsinə imkan yaratmalıdır. Bu qanun layihəsində bütün aspektlər nəzərə alınıb. Amma bizim digər vacib sahəmiz aşıq sənəti haqqında qanundur ki, onun da üzərində işləyirik. Güman edirəm ki, növbəti sessiyalarda o da gündəliyimizdə yer alacaqdır.

Yazılı abidələr haqqında qanun son dərəcə mühümdür. Bu həm bizim əlyazma irsimizi, həm səs irsimizi, həm də təsvir irsimizi, daş üzərində yazıları nəzərdə tutur. Elə bu kontekstdə mən dünya boyu səpələnmiş əlyazmalarımıza toxunmaq istəyirəm. Böyük klassiklərimizin o əlyazmalarını toplamaq, nəşr etmək, xalqa çatdırmaq vacib bir vəzifədir. Məsələn, ayrı-ayrı klassiklərimizi biz bütövlüklə tanımaq, xalqa qaytarmaq üçün əlyazma irsini mükəmməl öyrənməliyik. Bu günlərdə Bakıda böyük bir bayram keçirilirdi. Nəsimi, şer, incəsənət, mənəviyyat bayramı. Heydər Əliyev Fondunun, Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə keçirilən bu bayram, düşünürəm ki, Nəsiminin Azərbaycana daha bir qayıdışı deməkdir. Ötən il Avropa Şurasının Parlament Assambleyası çərçivəsində biz Nəsiminin Suriyada təhlükə altında olan məzarı ilə bağlı da məsələ qaldırmışdıq. Amma bu gün Heydər Əliyev Fondunun keçirdiyi bu tədbirdə Leyla xanım Əliyevanın, Heydər Əliyev Fondunun birinci vitse-prezidentinin xüsusi fəallığını qeyd etməliyəm. Tədbir böyük bir ədəbiyyat, mənəviyyat, mədəniyyət bayramına çevrildi. Amma mən inanıram ki, Nəsiminin bir qayıdışı olan, bayramı olan bu festivalın ardınca çox yaxın günlərdə Azərbaycan insanı Nəsiminin Azərbaycana daha möhtəşəm qayıdışlarının şahidi olacaqdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Araz Əlizadə.

**A.Əlizadə.** Sağ olun. Hamınızı yeni payız sessiyasının

başlanması münasibəti ilə təbrik edirəm. Bu günlərdə biz Azərbaycanda parlamentarizmin 100 illiyini təntənə ilə qeyd etdik və hamıya göstərdik ki, 100 il bundan qabaq qoyulmuş parlament ənənələri Azərbaycanda davam edir. 100 il bundan qabaq da Azərbaycan mənfur Ermənistanın təcavüzünə məruz qalmışdı. Azərbaycanın ordusu yox idi, pulu yox idi, lakin qeyrəti vardı və bütün yollardan istifadə edirdilər ki, Azərbaycanı erməni faşistlərindən qorusunlar. Düzdür, deyə bilərlər ki, o zaman "faşist" kəlməsi yox idi, hələ Mussolini ortaya çıxmamışdı. Lakin mahiyyətcə bu faşizmdir. İndi də bizim torpaqlarımız erməni işğalı altındadır. Qərbdə bir çox fondlar, siyasi təşkilatlar qeyri-hökumət təşkilatları vasitəsi ilə pul ayırırlar, Azərbaycanda insanlarda xof yaratsınlar ki, əgər Azərbaycan müharibəyə başlasa, bizi Gürcüstandan pis bir vəziyyət gözləyir. Bu məsələ ilə mənə də müraciət edib sərt cavab almışdılar. Lakin görünür, bəzilərinə yol tapa biliblər. Prezident seçkilərində mənim həmkarım Qüdrət Həsənquliyev Rusiyaya baza verməyi, onlarla razılaşmağı və bu yolla Qarabağı azad etməyi təklif edirdi. Mən düşünürdüm ki, bu seçki kampaniyası vaxtıdır. İndi bu gün onun çıxışına qulaq asanda mən başa düşdüm ki, bu insanın prinsipial mövqeyidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev daim deyir ki, bizim müzəffər ordumuz var. Lazım gəlsə, biz bu ordunun köməyi ilə müharibə yolu ilə torpaqlarımızı azad edə bilərik. BMT-nin Nizamnaməsi də bizə bu hüququ verir. Lakin biz eşidirik ki, nə qədər güclü ordu yaratsaq da, əgər hərbi əməliyyatlara başlasaq, bizim ayrı rayonlarımız da gedə bilər. Mənim başım çıxmır, Azərbaycan xalqına, Azərbaycan ordusuna, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Baş Komandanına bu

qədər inamsızlıq haradan gəlir? Niyə gəlir? Paşinyan çıxış edib deyir ki, azərbaycanlılar torpaqlarını dilənirlər. Bizim Milli Məclisin deputatları da deyir ki, gəlin müharibə etməyək, başlayaq Rusiyaya yalvarmağa. Azərbaycan heç kəsə yalvarmayacaq. Azərbaycan lazım olan vaxt müharibə yolu ilə torpaqları qaytaracaq. Bizi Rusiya ilə qorxudurlar. Heç kim buna qarışa bilməz, çünki Rusiyanın Ermənistanla müqaviləsi var, əgər Ermənistana qarşı təcavüz olarsa, işə düşə bilər. Lakin biz erməni torpaqlarına, hərçənd ki, onlar da bizim torpaqlardır, təcavüz etmirik. Biz öz torpaqlarımızı azad edirik. Bu zaman beynəlxalq hüquq da, mənəvi hüquq da, güc də bizim tərəfimizdədir.

Xahiş edirəm, cənab spiker, imkan verməyin ki, bizim parlamentdə insanlarda ruh düşkünlüyü yaradan çıxışlar olsun və onları da xalq eşitsin. Bəsdir, bizim qeyri-hökumət təşkilatlarımız bununla məşğul olurlar, bir o qalıb ki, siyasətçilərimiz də bununla məşğul olsunlar. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Parlamentdə heç kim heç vaxt ruh düşkünlüyünü qəbul etməyib. Bəzi çıxışlar olur ki, harasa bizi yönəldə bilərlər, Azərbaycanı harasa çəkə bilərlər. Mən təkrarlamaq istəmirəm. Siz bilirsiniz ki, Azərbaycan, onun Prezidenti müstəqil siyasət aparır. Bu siyasətə görə də öz planlarını qurub və onu heç bir orbitə çəkə bilməzlər. Onun öz siyasəti var, Azərbaycan öz siyasətini aparacaq. Bu söhbətləri xırdalamaq istəmirəm. Hamınız gedən işləri görürsünüz. Ona görə də xahiş edirəm, belə məsələləri qabartmayaq. Mən bəzi məsələlərlə razıyam, amma belə qabartmaq deyil, işləmək lazımdır. Aytən Mustafazadə.

**A.Mustafazadə.** Təşəkkür edirəm, Oqtay müəllim. Birincisi, bu cavabınıza görə Sizə təşəkkür edirəm. Mən də

Sizi dəstəkləyirəm. Cənab Prezident düşünülmüş siyasəti-ni, Azərbaycanın müstəqil siyasətini aparır. Onun üçün də bizə bata bilmirlər.

Parlamentimizin 100 illiyi və payız sessiyasının baş-lanması münasibəti ilə hamını təbrik edirəm. 2–3 məsə-ləyə xırda qeydlər etmək istəyirəm. Birincisi, qeyd etmək istəyirəm ki, Azərbaycanda  təəssüflər olsun ki, belə bir problem yaranmaqdadır. Bununla biz üzləşəndə artıq postfaktum buna reaksiya verməmək üçün bu gündən fikirləşməliyik. Beynəlxalq təşkilatların bəzi rəylərinə görə, 20–30-cu il üçün Azərbaycanda demoqrafik prob-lemlər ola bilər və Azərbaycan bu problemlə üzləşə bilər. Mən başa düşürəm, bu, nə üçün ola bilər. Ona görə ki, bizdə belə bir böyük problem var. Bu problem dəfələrlə həm İnsan hüquqları komitəsində, həm Ailə, qadın və uşaq məsələləri komitəsində və Milli Məclisdə qaldırılıb. Bu, selektiv abortlarla bağlıdır. Təəssüflər olsun ki, bununla bağlı biz qanunvericiliyimizdə hansısa addımlar atmalıyıq. Bununla bağlı həm hüquqi addımlar atmalıyıq, həm də maarifləndirmək işi görməliyik və sair.

Sonra, ailənin böyüməsinin stimullaşdırılması ilə bağlı. Azərbaycanın inkişafını nəzərə alaraq, Azərbaycanın büdcəsinə daxil olan pulları nəzərə alaraq, biz artıq bu so-sial məsələləri həll etməyə qadirik. Məsələn, pensiyaya çıxanda da çoxuşaqlı analara hansısa güzəştlərin göstərilməsi və sair. Belə ki, Rusiyada səslənən təkliflərə mənə elə gəlir ki, bizdə də baxıla bilər. Azərbaycanda ailələrin böyüməsi, uşaq doğumunun stimullaşdırılması üçün bu çox böyük rol oynaya bilər.

İkinci məsələ. QMO ilə bağlı. Vaxtı ilə, 5–6 il bundan qabaq, hamımızın yadındadır, mən dəfələrlə qaldırmışdım və sonra cənab Prezident tərəfindən, dövlət başçısı

tərəfindən bu məsələ dəstəkləndi, çox qanunlara dəyişikliklər qəbul olundu. İndi şükürlər olsun ki, bizdə Qida Təhlükəsizliyi Agentliyi də yaradılıb. Ancaq biz nə isə bu sahədə işlərimizi dayandırdıq. Mən təklif edərdim ki, bu istiqamətdə işlərimizi davam etdirək. Ayrı-ayrı qanunlara dəyişiklikləri qəbul etməyi davam etdirək. Həm Gömrük Məcəlləsinə, həm də başqa qanunvericiliyə, qida təhlükəsizliyinə öz töhfəmizi verməyi davam etdirək.

Üçüncü məsələ. Rafael müəllim indi çıxış etdi. Öz çıxışında kino ilə bağlı, kinonun inkişafı ilə bağlı sözlər dedi. Mən istəyirdim o qanun layihəsi müzakirə olunanda çıxış edim. Ancaq indi bu sözü demək istəyirəm. Qabaq dövlət sifarişi ilə çəkilən filmlər var idi. Nə üçün bizdə indi bu ənənə yox olub?

Dövlət sifarişi ilə tarixi filmlər çəkilməlidir. Dövlət sifarişi ilə aprel hadisələri ilə bağlı bizim qəhrəmanlarımız haqqında filmlər çəkilməlidir. Bizim Xalq Cümhuriyyətinin parlamenti haqqında, o tariximiz haqqında dövlət sifarişi ilə film çəkilməli idi. Çünki bu, kommersiya filmləri deyil. Bu, bizim sabahkı nəsillərimiz üçün qoyacağımız bir irsdir. Dövlət sifarişi ilə çəkilən filmlər həm kinomuzun inkişafına, həm də bizim gələcək nəsillərimizə də bu yaddaşı saxlamağa xidmət edər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hikmət Məmmədov.

**H.Məmmədov.** Hörmətli Sədr, hörmətli millət vəkilləri! Mən də hamınızı Azərbaycan Parlamentinin 100 illiyi münasibəti ilə təbrik edirəm. Doğrudan da, 100 illik tariximiz ilə bağlı keçirilən tədbirlərin özü artıq tarixi hadisəyə və tarixə çevrildi. Mən konkret olaraq bir neçə məsələ ətrafında danışmaq istəyirəm. Bunlardan biri hər kəsə bəllidir ki, Azərbaycanda son dövrlərdə autizm xəstəliyi artmağa başlayıbdır. Çox yayğındır və onun müali-

cəsi uzun müddət və eyni zamanda, çoxlu xərc tələb edir. Ona görə mən düşünürəm ki, bu xəstəliyin daşıyıcılarının müalicəsi ilə bağlı xüsusi bir qanun qəbul olunsun və bu bir şəkildə dövlət büdcəsi vasitəsi ilə kompensasiya olunsun. Ümumiyyətlə, bu xəstəliyin yaranma səbəbləri ilə bağlı xüsusi tədqiqatlar aparılsın, qarşısının alınması ilə bağlı tədbirlər görülsün ki, bu xəstəlik yayılmasın. Çünki genfonumuza çox ciddi zərbə vurur.

İkinci məsələ əhalinin artımı ilə bağlıdır. Mən düşünürəm ki, – burada artıq Aytən xanım məndən öncə qeyd etdi, – gələcəkdə Azərbaycanda demoqrafik problem gözlənilir, proqnozlaşdırılır. Çünki əhalinin artımı yavaş-yavaş azalır və belə getsə, gələcəkdə bu, Azərbaycan üçün ciddi problemə çevriləcəkdir. Ona görə əhali artımının təşviq olunması ilə bağlı biz bəri başdan qanunlar qəbul etməliyik və çoxsaylı ailələrə xüsusi güzəştlər tanınmalıdır ki, əhali artımı eyni templə davam etsin. Bir qədər əvvəl olduğu kimi.

Başqa bir məsələ informasiya təhlükəsizliyi məsələsidir. Bununla bağlı, doğrudan da, xeyli qanunlarımız var. Ancaq mən düşünürəm ki, hazırkı mərhələdə Azərbaycanın informasiya təhlükəsizliyini təhdid edən əsas mənbələrdən biri sosial şəbəkələrdir. Ona görə də sosial şəbəkə iştirakçılarının fəaliyyətinin qanunla tənzimlənməsi də, düşünürəm ki, lazım olardı.

Kinematoqrafiya ilə bağlı burada qeyd olundu. Doğrudan da, milli seriallarımız çəkilir, kinolar çəkilir. Ancaq hazırda Azərbaycanda kinonun keyfiyyəti, məzmunu, aktuallığı və milli maraqlar baxımından dəyərləndirilməsi ilə bağlı məsələlərin həlli bir qədər mürəkkəbdir. Ona görə də mən düşünürəm ki, bəlkə filmlərin çəkilişi ilə bağlı xüsusi şuralar yaradılsın. O şuralar əvvəlcədən filmin ssenarisini

qiymətləndirsinlər. O məzmun, milli maraqlarımız etibarı ilə nə dərəcədə dəyərlidir, Azərbaycan cəmiyyətinin sosial problemlərini nə dərəcədə özündə əks etdirir, yaxud milli, mənəvi dəyərlərimizə, milli adət-ənənələrimizin təbliğinə nə dərəcədə xidmət edir? Əgər bunların heç biri yoxdursa, onda, sadəcə, gündəlik problemləri əks elətdirməyən belə səviyyədə filmlərin çəkilməsinə sərmayə qoymağa da ehtiyac yoxdur.

Ayrı bir məsələ tarixi abidələrin qorunması ilə bağlıdır. Builki qanunvericilikdə biz bunlarla bağlı yenə qanunlar qəbul edəcəyik. Tarixi abidələrin qorunması, öyrənilməsi vacibdir. Amma bir o qədər də vacib olan onun necə təqdim olunmasıdır. Azərbaycana çoxsaylı turistlər gəlir, Azərbaycan inkişaf edir, turizm ölkəsinə çevrilir. Amma biz tarixi abidələrimizi onlara dolğun və dəqiq təqdim edə bilmirik. Sadəcə, üzərinə statistik məlumatlar yazırıq. Filan abidə filanıncı ildə tikildi. Bunu kim tikdi, nə üçün tikdi? Xüsusən Azərbaycanda xristianlıq dövrü tariximizlə bağlı abidələrin tədqiq olunması və onlarla bağlı məlumatlarda gerçək həqiqətin əks olunması lazımdır ki, heç kəs bizim əcdadımızın bu mirasına sahib çıxmasın.

Başqa bir məsələ. Burada dil ilə bağlı danışıldı. Əlbəttə ki, çox dil bilmək yaxşıdır. Kim hansı dili öyrənmək istəyir, qoy öyrənsin. Amma mən ümummilli liderimiz, ulu öndərimiz Heydər Əliyevin bir fikrini xatırlatmaq istəyirəm. O deyirdi ki, Azərbaycan dilini bilmədən azərbaycanlı olmaq mümkün deyil.

Dil öyrənək, amma ilk növbədə milli təfəkkür sahibi olaq. Görək bu öyrəndiyimiz dildə o dilin auditoriyasına nə ilə müraciət edəcəyik. O intellektual baxış bizdə varmı? Çox gözəl, dil bilirik, amma Azərbaycan tarixini, Azərbaycan həqiqətlərini, Azərbaycan problemlərini o dildə, o

dilin daşıyıcılarına çatdıra bilirikmi? Mən düşünürəm ki, dil də öyrənək, amma burada yenə də milli təfəkkür üzərində öyrənilən dil olsun ki, bu da bizim ümumi maraqlarımıza xidmət etmiş olsun. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Düz saat yarımdır ki, iş planını müzakirə edirik. Mən təkrarlamaq istəmirəm, sizin dediyiniz təkliflərin hamısını özümdə də qeyd etdim, ancaq iş planı elə bir məsələdir ki, yeni qanun layihəsi ortaya çıxarmaq, bunun üzərində işləmək lazımdır. Azay müəllim dedi ki, qanun layihələri işləyib veriblər. Tapşıracağıq, baxılsın. Komitələrdə baxılsın, Milli Məclisin şöbələrində baxılsın. Amma ümumi söz ilə deyiləndə qanun layihəsi hazırlanmır. Xahiş edirəm, kimin təklifləri varsa, verdiyi o təklif ətrafında komitə ilə, Milli Məclis ilə özləri də işləsinlər.

Hesab edirəm ki, bəzi suallar qalxdı, gündəlikdə olan məsələlərdir. İsa müəllim də o məsələyə cavab verəcək – məsələ qaldırmışdılar. Əgər başqa təklif yoxdursa, xahiş edirəm, iş planına aid məsələni səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 13.28 dəq.) |
|---|---:|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 4–11-ci məsələlər beynəlxalq sazişlərdir, beynəlxalq məsələlərdir. Xahiş edirəm, bir az diqqətli olaq ki, 62 sualdan cəmi 3 sualı biz müzakirə etmişik.

Gündəliyin 4-cü məsələsi “Azərbaycan Respublikası Hökuməti, Gürcüstan Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında” Anlaşma Memorandumunun təsdiq edilməsi barədədir. Buyursun Ziyafət müəllim.

**Z.Əsgərov,** *Milli Məclis Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli deputat həmkarlar! Müzakirənizə təqdim olunan sənəd, memorandum 3 dövlət arasında bağlanmışdır. Əlbəttə, bizim Türkiyə ilə bu qəbildən olan çoxlu sazişlərimiz – dövlətlərarası müqavilələr, hökumətlərarası müqavilələr və digər sənədlər var, amma Gürcüstanın da bu üçlüyə daxil olması olduqca vacib bir amildir və hesab edirəm ki, hər üç dövlətin milli maraqlarına, dövlət mənafeyinə uyğundur.

Bizə təqdim olunmuş Memorandumun əsas məqsədi, əsas qayəsi, fəlsəfəsi ondan ibarətdir ki, hər üç dövlət öz aralarında əməkdaşlığı genişləndirmək məqsədi ilə, eyni zamanda, dostluq və mehriban qonşuluq münasibətlərinə arxalanaraq, bir-birinin ərazi bütövlüyünə, sərhəd toxunulmazlığına, suverenliyinə hörmət edərək bu qərara gəlirlər ki, belə bir Memorandumu imzalasınlar. Memorandumda bu əməkdaşlığın prinsipləri, istiqamətləri, konkret hallar göstərilibdir. Təhsil sahəsində, hərbi-texniki sahədə, mədəniyyət, iqtisadiyyat sahələrində, hətta bu kimi məsələlər öz əksini tapıb. Hesab edirəm ki, bu Memorandum bizim dövlət üçün olduqca vacib bir sənəddir və mən sizi bu Memoranduma dəstək verməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qüdrət müəllim, Memorandum ətrafında danışmaq istəyirsiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev.** Təşəkkürlər, Oqtay müəllim. Doğrudan da, mən bu Memorandumla tanış oldum, bunu alqışlayıram, dəstəkləyirəm. Biz zaman-zaman söyləmişik ki, Türkiyə ilə, xüsusən müdafiə sahəsində əməkdaşlıq genişləndirilməlidir. Sentyabrın 15-də, bilirsiniz ki, Bakının işğaldan azad olunması ilə bağlı möhtəşəm bir parad keçirildi. Bu rusiyayönümlü siyasətçiləri xeyli qıcıqlandırmışdı, o cümlədən, əminəm ki, Araz Əlizadəni. Mənim çıxışımda Araz Əlizadəni qıcıqlandıran məsələ, Oqtay müəllim, o məsələ deyil ki, biz Rusiya–Ermənistan ittifaqına qalıb gələ bilmərik. Qıcıqlandıran odur ki, mən söylədim, bu münaqişənin arxasında Rusiya dayanır. Onun Mütəllibovla əlaqəsi, 90-cı illərdə parlamentdəki çıxışı, Mütəllibovun Moskvada sığınacaq tapması – bunların hamısını biz bilirik. İndi Araz Əlizadə bu cür çıxışlarla keçmişini unutdura bilməz. Azərbaycanda biz hamımız onun kimliyini bilirik. O, hara bağlıdır, hansı qüvvələrə bağlıdır. Buna görə mən bu əməkdaşlıq sazişini çox yüksək qiymətləndirirəm və hesab edirəm ki, Türkiyə ilə hərbi əməkdaşlıq daha da genişləndirilməlidir və buna da səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Çalışaq ki, bir az bir-birimizə dözümlü olaq. Sözümüz varsa, ümumi danışmayaq. Mən heç kimin xətrinə dəymək istəmirəm. Bir balaca dözümlü olaq bir-birimizə. Xahiş edirəm, məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.33 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

5-ci məsələ. "Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında sərhəd nümayəndələrinin/sərhəd komissarlarının fəaliyyəti haqqında" Sazişin təsdiq edilməsi barədə. Buyursun Ziyafət müəllim.

**Z.Əsgərov.** Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli həmkarlar! Bu sənəd də olduqca vacib bir sənəddir. Nəzərə alaq ki, uzun illərdir ki, Gürcüstanla Azərbaycan arasında sərhədlərin delimitasiyası və demarkasiyası prosesi gedir. Bu proses, demək olar ki, başa çatmaq üzrədir. Ona görə də bu baxımdan, sərhəd komissarlarının müəyyən olunması və bu sərhədə nəzarət funksiyalarının həyata keçirilməsi, bu sahədə əməkdaşlıq edilməsi olduqca vacib məsələdir. Gürcüstan bizə qonşu dövlətdir, dost və mehriban bir dövlətdir. Hesab edirəm ki, Gürcüstanla bu məsələlərin hüquqi müstəvidə həll olunması olduqca vacibdir. Ona görə də mən sizi bu sənədin də qəbul olunmasına səs verməyə dəvət edirəm. Sağ olun.

**Sədrlik edən.** Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 6-cı məsələ "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Mədəniyyət Mərkəzlərinin təsis olunması, iş mexanizmi və fəaliyyətləri haqqında" Sazişin təsdiq edilməsidir. Buyursun Rafael Hüseynov.

**R.Hüseynov,** *Milli Məclisin Mədəniyyət komitəsinin sədri.*

Hörmətli millət vəkilləri, cənab Prezidentin imzası ilə daxil olan qanun layihəsi "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Mədəniyyət Mərkəzlərinin təsis olunması, iş mexanizmi və fəaliyyətləri haqqında" Sazişin təsdiq edilməsini nəzərdə tutur. Bu Saziş 2018-ci il aprelin 25-də Ankara şəhərində Azərbaycan və Türkiyə Hökumətləri arasında xarici işlər nazirləri tərəfindən imzalanmışdır.

Azərbaycan və Türkiyə bir-biri ilə sadəcə dost və qardaş olan ölkələr deyil, Azərbaycan və Türkiyə siam əkizləridir. Onlar canla, qanla bir-birinə bağlıdırlar və bütün isqtiqamətlərdə ikitərəfli əlaqələrimiz, keçmişlərdə də çox fəal şəkildə inkişaf edib. Bu gün də var və gələcəkdə də təbii ki, irəliləyəcəkdir. Mədəniyyətlər sahəsindəki əlaqəmiz isə bu əlaqələr çərçivəsində ən üst qatda dayanır. Bu Saziş Türkiyədə, Türkiyənin paytaxtı Ankara şəhərindəki Azərbaycan Səfirliyinin nəzdində Azərbaycan Mədəniyyət Mərkəzinin və Bakıda Türkiyə Səfirliyinin nəzdində Yunus Əmrə Türk Mədəniyyəti Mərkəzinin yaradılmasını nəzərdə tutur və gələcəkdə bu Saziş çərçivəsində həmin mərkəzlər ayrı-ayrı bölgələrdə, rayonlarda da öz şöbələrini yarada bilər, demək, mədəniyyətlərarası əlaqəni daha geniş çərçivədə inkişaf etdirə

bilərlər. Bu, son dərəcə əhəmiyyətli, vacib və gələcəyi olan bir sazişdir və millət vəkillərini həmin Sazişə, qanun layihəsinə səs verməyə dəvət edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Fazil Mustafa.

**F.Mustafa.** Təşəkkür edirəm, Oqtay müəllim. Mən də bu layihəyə, təbii ki, səs verəcəyəm. Amma istəyirəm, bir neçə məsələyə aydınlıq gətirək. Burada mədəniyyət mərkəzlərindən söhbət gedir. Türkiyə ilə Azərbaycan arasında hər hansı bir şəkildə belə qurumların yaradılması müsbət bir haldır və ölkə prezidentinin bu ideyasını, bu iradəsini də müsbət qarşılayırıq. Amma söhbət nədən gedir? Biz Türkiyə ilə bunu təşkilatlanmış formada, bir qurum formasında yaradarkən bir şeyi, özümüzün bu mədəniyyətin inkişafına mane olan addımlar atdığımızı da unutmamalıyıq. Birinci, onları təmizləməliyik, sonra belə bir mərkəzlər yaradılmalıdır.

Məsələn, ümumiyyətlə, Azərbaycanda türk dilinə əcnəbi dil statusunun aid edilməsinin yanlış olduğunu qəbul etməliyik. Türk filmlərinin tərcüməsi məsələsinin qoyulmasını yanlış hesab etməliyik. Eyni zamanda, Türkiyədə də Azərbaycan dilində olan hər hansı bir kitabın satışının, yaxud da hər hansı bir filmin nümayiş etdirilməsinin öz dilimizdə, heç bir tərcüməyə məruz qalmadan həyata keçirilməsini təmin etməliyik. Əslində, mədəniyyətin paylaşımı bu deməkdir. Amma biz burada mədəniyyəti məhdudlaşdırmışıq, türk dilini rus, ingilis, başqa dillər ilə eyni statusda qəbul etməyə başlamışıq və bizim bu səhvimiz, mən hesab edirəm, səhvdir. Türkiyə tərəfindən də eyni şeyi, bu səhvin davamını görürük. Biz birinci bunu qaldırsaq, elə mərkəzə ehtiyac qalmaz, bunu həll edərik.

Digər tərəfdən, burada, 2-ci maddədə verilən mərkəzin yaradılması məsələsinə gəlincə, Türkiyə tərəfindən bu

mərkəz Türkiyə Səfirliyinin nəzarəti altında Yunis Əmrə vakfı tərəfindən yaradılır. Azərbaycan tərəfindən isə Azərbaycan Səfirliyinin nəzdində bir qurum kimi yaradılır. Sonra da biz bu qeyri-kommersiya qurumuna öz xərclərini ödəmək üçün kommersiya hüququ veririk. Kitab satışından, reklam və başqa məsələlərdən gəlir əldə etsin. Demək, Azərbaycan Səfirliyində, rəsmi, diplomatik bir qurumumuzda fəaliyyət göstərən mədəniyyət mərkəzi həm də müəyyən satış layihələrini həyata keçirə bilər. Bizdə müxtəlif fondlar var, Nizami Fondu var, Hüseyn Cavid Fondu və sair. Lap yenisini yaradaq. Bu Mədəniyyət Mərkəzini o fondlar vasitəsilə idarə edək. Bunu səfirliyin içərisinə niyə daxil edirik? Bu, sabah, bilirsiniz nəyə oxşayacaq? Səfirliyin əməkdaşlarının, deyək ki, evdar yaxınları iş ilə təmin olunacaqlar. Vəssalam. Bu, mədəniyyətin inkişafı olmayacaq ki...

Bura peşəkar adamların təyin olunması lazımdır. O baxımdan da, bunu Səfirliyin nəzdində yaratmaq, məncə, yanlışdır. Səfirliyin nəzarəti altında Türkiyə tərəfi bunu doğru edibdir. Çünki burada müəyyən ideoloji, siyasi məsələlər ola bilər ki, ən azı səfirliyin məlumatı olmalıdır, nəzarət etməlidir, baxmalıdır. Amma səfirliyin nəzdində bir qurum kimi bunun nəzərdə tutulması, mən hesab edirəm ki, bir qədər müəmmalı bir durum yaradır. O baxımdan da, gələcəkdə əgər bu məsələyə yenidən baxılarsa, bunun üzərində düşünmək yaxşı olardı. Nizami Fondu var, yaxud başqa bir fond adı ilə bunu yaratmağımız daha yaxşı olar. Amma belə bir qurumu tabeliyə vermək, məncə, doğru deyil. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov.

**S.Novruzov**. Təşəkkür edirəm. Hörmətli Sədr, mən də bu məsələlərlə tamamilə razıyam. Bunları Rafael müəllim

qeyd elədi, Fazil Mustafanın da fikirlərinin bir hissəsinə öz həmrəyliyimi bildirirəm. Hesab edirəm ki, biz Azərbaycan dilini qorumaqla yanaşı, – Azərbaycan dili dövlət dilidir və qanunla qorunur, müdafiə olunur, Azərbaycan dili bütün dillərdən qorunmalıdır, aydın məsələdir, – amma bir məsələ var ki, türk dili ilə Azərbaycan dili arasında o qədər də ciddi fərq yoxdur. Türkiyə–Azərbaycan münasibətləri elə yüksələn xətlə gedir ki, bu prosesdən istifadə edib bizim münasibətlərə hər hansı xələl gətirmək istəyən düşmən qüvvələr də ortaya çıxır. O baxımdan, türk filmlərinin nümayişi zamanı ekranda Azərbaycanca titrlərinin verilməsi daha uyğun olar, nəinki çox bayağı şəkildə, bayağı tərcüməni təqdim etmək. Fikir qalır qıraqda, tamamilə başqa şey deyirlər. Bunlar, mən hesab edirəm ki, düzgün olmayan məsələlərdir. Türk dilinə bunu tətbiq etmək olmaz.

İkinci bir məsələ. Bəzən mən anketləri oxuyuram, millət vəkillərinin də anketlərində, yaxud parlamentin buraxdığı kitabda yazılır hansı xarici dili bilirsən, cavab verir, – türk dilini. Türk dilini bilməyən var ki? Türk dili bizimki ilə eyni dildir də. Türk dili nə vaxtdan xarici dil oldu ki? Başa düşürəm, dövləti mənada, qanuni mənada bu aydındır, amma mənəvi mənada aydın deyil axı. Bu tamam başqa bir şeydir, bu tamam başqa mənəvi dəyərdir.

Türkiyə Respublikasının Prezidenti Ərdoğan gəldi Azərbaycanda paradda çıxış elədi, onun sözlərini başa düşməyən oldu? On dəfə hamımız qalxdıq, əl çaldıq, alqışladıq. Həm verdiyi dəstəyə görə, həm çıxışına görə, həm Azərbaycan şairlərindən söylədiyi şeirlərə görə. Eləcə də bizim parlamentin 100 illiyində çox ölkənin parlament sədrləri iştirak edirdi. Amma Binəli Yıldırım bir köynək irəli idi. Burada çıxış eləyəndə nə qədər səmimi

ürəkdən sevinirdi. Düzdür, hamı sevinirdi, amma o, daha ürəkdən sevinirdi. Ona görə kiçik məsələlərlə böyük qlobal məsələləri hesab edirəm, biz seçməliyik. Bu gün bizim dünyada aparıcı dayaqlarımızdan ən böyüklərindən biri Türkiyədir. Ona görə Türkiyəyə yanaşma tərzi digərlərindən fərqli olmalıdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ ol, Siyavuş müəllim. Onsuz da o fərqlidir, ancaq yaranan mərkəzlər bu məsələlərin aradan qalxması üçün gələcək üçün nəzərdə tutulan məsələlərdir. Burada nə var ki? Mədəni mərkəzlər yaratsınlar, işləsinlər, yavaş-yavaş bu problemlər hamısı aradan çıxar. Rafael Hüseynov bu barədə çıxış etmək istəyir? Söz verilir. Xahiş edirəm, bir az tez.

**R.Hüseynov**. Təşəkkür edirəm. Əvvəlcə onu deyim ki, ayrı-ayrı fondların, mərkəzlərin, mədəniyyət qurumlarının yaradılması, iki ölkə arasında bu sahədə əlaqələrin inkişafı üçün meydan genişdir. Yaranıblar, əvvəl də var idi, yenə var, təbii ki, gələcəkdə də olacaq. Amma düşünürəm ki, səfirliklər nəzdində mədəniyyət mərkəzlərinin yaradılması çox zəruridir və bunun mənası var. Məsələ ondadır ki, mədəniyyətlərarası əlaqələrin dövlət səviyyəsində, dövlət tərəfindən səmtləndirilməsi əlaqələndirmə işlərinin aparılmasını nəzərdə tutur. Onsuz da, digər fondlar da faktiki olaraq fəaliyyətdədirlər. Bu, digər fondların, özəl fondların, özəl qurumların fəaliyyətini heç bir şəkildə məhdudlaşdırmır, əksinə, mədəniyyət sahəsində dövlətlərarası əlaqələri tənzimləmək xəttini götürür.

Qaldı ki, Türkiyə ilə Azərbaycan arasında tərcümə, dil məsələsi bu bütün dünya kontekstində unikal bir haldır. Azərbaycanla Türkiyə istər mənəviyyat, istər mədəniyyət, istərsə də dil baxımından son dərəcə yaxındır, az qala eynidirlər. Vaxtı ilə, hələ XX əsrin əvvəllərində Mirzə

Ələkbər Sabir yazırdı ki, – o vaxt Azərbaycan dilinə türkcə deyirdilər, Türkiyə türkcəsinə o vaxt osmanlıca deyirdilər, – qəzetlərdən, jurnallardan birində oxuyur ki, bir şair osmanlıcadan türkcəyə, yəni Azərbaycan türkcəsinə tərcümə edib, çevirib, uyğunlaşdırıb, altında da yazıb tərcümə edəni filankəs. Sabir məəttəl qalırdı ki, osmanlıcadan Azərbaycan dilinə, Azərbaycan türkcəsinə tərcümə olmaz ki. Ona görə yazırdı ki: "Mümkün iki dil bir-birinə tərcümə etmək, osmanlıcadan tərcümə türkə nə deməkdir?"

Yəni bu məsələ lap köhnədən tarixdə var, ona görə düşünürəm ki, bu qanuna, bu sazişə aidiyyatı olmasa da, zənnimcə, bizim efir siyasətində də, mətbuat siyasətində də bu dillərin bu qədər yaxınlığı məsələsi gələcəkdə nəzərə alınmalıdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.46 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 7-ci məsələsi. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında şəxsi heyətin mübadiləsinə dair" Protokolun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə. Buyursun Ziyafət Əsgərov.

**Z.Əsgərov**. Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli deputat həmkarlarım, bizim müzakirəmizə təqdim olunmuş bu protokol da, əslində, bundan əvvəl müzakirə etdiyimiz Memorandumun, demək olar ki, tərkib hissəsi, yaxud davamıdır. Söhbət Türkiyə ilə Azərbaycan arasında bağlanmış protokoldan gedir. Burada əsas məsələ şəxsi heyətin təhsilinin, onların əməkdaşlıq məsələlərinin, digər məsələlərinin həllinə yönəlmişdir. Hesab edirəm ki, bu da çox maraqlı protokoldur, yəni hər iki dövlətin mənafeyinə cavab verən protokoldur və sizdən bu protokolun təsdiq edilməsinə səs verməyinizi xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.48 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 8-ci məsələ. "Futbol oyunları və digər idman tədbirləri zamanı təhlükəsizlik, mühafizə və xidmət məsələlərinə vahid yanaşma haqqında Avropa Şurası Konvensiyası"nın təsdiq edilməsi barədə. Buyursun Ülvi Quliyev.

**Ü.Quliyev,** *Milli Məclisin Gənclər və idman komitəsinin sədri.*

Təşəkkür edirəm. Cənab Sədr, hörmətli millət vəkilləri, müzakirənizə təqdim olunan "Futbol oyunları və digər idman tədbirləri zamanı təhlükəsizlik, mühafizə və xidmət

məsələlərinə vahid yanaşma haqqında Avropa Şurası Konvensiyası” komitəmizdə müzakirə olunmuşdur və komitə üzvləri konvensiyanı müsbət dəyərləndirmişlər. Bu konvensiyanın mahiyyəti adından bəllidir. Bu konvensiyanın məqsədi futbol oyunları və digər idman tədbirləri zamanı təhlükəsiz, etibarlı, əyləncəli, qonaqpərvər bir mühitin yaradılmasından ibarətdir. Biz bu konvensiyaya xüsusi bir bəyanatla qoşulmağı nəzərdə tutmuşuq. Bu da ondan ibarətdir ki, bu konvensiyadan irəli gələn müddəaların həyata keçirilməsi zamanı bizim işğal olunmuş ərazilərlə bağlı, həmin ərazilər işğaldan azad olunanadək və işğalın nəticələri tam aradan qaldırılanadək təminat vermək iqtidarında olmamağımızı xüsusi qeyd edirik.

Düşünürəm ki, Azərbaycan idman ölkəsidir və son vaxtlar Azərbaycanda kifayət qədər futbol oyunları, idman tədbirləri keçirilir, ona görə də bu çox vacib sənəddir. Ona görə də bu konvensiyanı təsdiq etmək, düşünürəm ki, bizim üçün çox vacibdir və deputat həmkarlarımdan dəstək verməyi xahiş edirəm. Diqqətinizə görə minnətdaram.

## *Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini **Ziyafət Əsgərov** sədrlik edir*

**Sədrlik edən.** Sağ olun. Çıxış eləmək istəyən varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.50 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

İslam Əməkdaşlığı Təşkilatının Əmək Mərkəzinin Nizamnaməsinin təsdiq edilməsi haqqında qanun layihəsi. Hadi müəllim, buyurun.

**H.Rəcəbli,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Hörmətli Ziyafət müəllim, hörmətli deputat həmkarlarım, möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının imzası ilə bizə İslam Əməkdaşlığı Təşkilatının Əmək Mərkəzinin Nizamnaməsi daxil olub. Mən onu qeyd etmək istəyirəm ki, bu sənəd olduqca əhəmiyyətli bir sənəddir. Bir neçə məqamla diqqətinizi bu sənədin vacibliyinə çəkmək istəyirəm. Birincisi, bu mərkəz Beynəlxalq Əmək Təşkilatının müvafiq konvensiyasına uyğun olaraq fəaliyyət göstərəcək. Mərkəzin məqsəd və vəzifələrinin bir neçəsini sizin diqqətinizə çəkmək istəyirəm.

Maddə 4-ün 2.8-ci bəndində belə yazılıb: “həssas qruplara və əməkçi miqrantlara münasibətdə davamlı müdafiə sisteminin yaradılmasının və inkişaf etdirilməsinin təşviq edilməsi”. 3.4-cü bənddə yazılır: “üzv dövlətlərdə əmək, məşğulluq və sosial müdafiə sistemlərinin inkişafı və təkmilləşdirilməsi üçün tədqiqat, araşdırma, monitorinq və qiymətləndirmələrin həyata keçirilməsi”. 3.9-da özəl sektorun bu məsələdə iştirakının vacibliyi göstərilir. 3.12-ci bənddə bilavasitə məşğulluğun aztəminatlı ailələr üçün vacibliyinin təmin olunması qeyd edilib.

Bildiyiniz kimi, bizdə, Azərbaycanda da özünüməşğulluq deyilən, İlham Əliyev cənablarının brendi sayılan yeni bir sistem qurulub. Bu da ki, əlbəttə, geniş inkişaf eləyə bilər.

Mənim üçün çox vacib və düşünürəm ki, sizi də düşündürən məqam nədən ibarətdir? Üzv dövlətlər üçün əmək, məşğulluq, əmək miqrasiyası və sosial müdafiə üzrə ölkə və regional hesabatların  və müdafiə standartlarının hazırlanması. Biz bəzən “əmək miqrasiyası” məsələsini “miqrasiya” ilə qarışdırırıq. Burada bu məsələyə xüsusi diqqət yetirilir ki, əmək miqrasiyası əlaqələndirilməlidir. Digər maddələr var ki, bu da mərkəzin nə qədər önəmli olduğunu bir daha sübut edir. Düşünürəm ki, bu sənəd Azərbaycanda məşğulluğun təmin olunmasında, əmək  miqrasiyasının təşkil olunmasında çox böyük fayda verəcəkdir. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Təklif var, qanun layihəsi səsə qoyulsun. Buyurun, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.53 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Miqrasiya Orqanlarının Rəhbərləri Şurasının yaradılması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsidir. Əli müəllim, buyurun.

**Ə.Hüseynli**. Çox sağ olun, hörmətli Ziyafət müəllim. Belə bir şuranın, yəni "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Miqrasiya Orqanları Rəhbərləri Şurasının yaradılması haqqında" Sazişə qoşulmaq çox əhəmiyyətlidir. Ölkəmiz bu təşkilat çərçivəsində əməkdaşlıq edir. Bizim on minlərlə soydaşımız, MDB-yə üzv olan digər ölkələrdə yaşayır və belə bir əməkdaşlıq faydalıdır. Amma eyni zamanda, qeyd etmək istəyirəm ki, bu sazişə qoşularkən Azərbaycan xüsusi rəydə qalır. Bu çox əhəmiyyətli bir məsələdir. Baxmayaraq ki, biz bir sıra beynəlxalq təşkilatlarla, o cümlədən Müstəqil Dövlətlər Birliyində əməkdaşlıq edirik, bu gün də bir neçə dəfə vurğulandı ki, Azərbaycan müstəqil siyasət həyata keçirir və ilk növbədə dövlət maraqları və milli maraqlar qorunmalıdır. Bu baxımdan, xüsusi rəy də əhəmiyyət kəsb edir. Çünki həmin əsasnamənin 2-ci maddəsində Şuranın əsas funksiyaları sırasında milli qanunvericiliyin harmonizasiyası üzrə vahid yanaşmaların işlənib hazırlanması, bir sıra məsələlərdə fəaliyyətin koordinasiyası kimi müddəalar nəzərdə tutulur. Məhz buna görə də cənab Prezident tərəfindən imzalanmış xüsusi rəy təklif olunub.

Milli qanunvericiliyin harmonizasiyası, miqrasiya siyasətinin koordinasiyasına, beynəlxalq hüquq subyektlərinə dair müddəalar, həmçinin Şura haqqında əsasnamənin 2.2-ci bəndinin birinci və beşinci abzasları istisna olmaqla.

Hesab edirəm ki, bunlar çox vacib məsələlərdir, bu istisnalar tam yerindədir. Bu sıra məsələlərdə biz daha müstəqil fəaliyyət göstəririk. Belə bir xüsusi rəyin olması ilə yanaşı, Sazişə, əlbəttə ki, səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Tahir Kərimli.

**T.Kərimli**. Təşəkkür edirəm. Hörmətli sədrlik eləyən, hörmətli deputatlar! Əli müəllimin dediyi səbəblərə görə mən də səs verəcəyəm. Əsaslandırılmışdır. Mən diqqəti məsələnin başqa tərəfinə yönəltmək istəyirəm. Bu da ondan ibarətdir ki, bu Sazişə 11 il öncə qol çəkilib və yəqin ki, əsaslı səbəblər var, nə üçün bu müddətdən sonra olub. Amma hər bir halda, yaxşı olar ki, izah edilsin, – deputatlarımızın çoxu yəqin bilmir ki, əvvəllər niyə qol çəkilməyib, niyə saxlanılıb, – hansı səbəb ortaya çıxıb ki, indi buna biz gedirik, bunu təsdiq edirik. Orada bir sıra dövlətlər var, əvvəldən qoşulmamışdı, inanmıram ki, indi qoşulsun – Gürcüstan, Ukrayna və digərləri. Bu məsələlərə istəyirəm diqqəti cəlb eləyəm ki, bundan sonra müvafiq idarələr – Miqrasiya Xidməti, Xarici İşlər Nazirliyi bu kimi məsələlərə diqqət eləsələr, daha yaxşıdır.

Vaxt almamaq üçün bayaq çıxış etmədim, dedim ki, Türkiyə, Gürcüstanla olan sazişə toxunaq. Keçən dəfə də demişdim. Göstərilir ki, orada ABŞ dolları ilə haqq-hesab çəkilir və sair. Biz də bilirik ki, Türkiyə ilə bizim aramızda qarşılıqlı milli valyutanın ödənişləri haqqında danışıqlar gedir. Mənə elə gəlir ki, sazişdə konkret qoymaq lazım deyil ki, hansı valyuta ilə keçirilir və sair. Eyni zamanda, o, bir şeyi də ortaya çıxardı. Bilirik ki, istər

Gürcüstan, istərsə də Türkiyə tərəfindən başqa orqanlar – qərargah, yaxud Daxili İşlər Nazirliyi, amma bizdə Müdafiə Sənaye Nazirliyi iştirak edir. Bu da onu göstərir ki, bizdə bəlkə onların birləşdirilməsi haqqında söhbətlər getsə, daha yaxşı ola bilər.

Bir xırda detal da ondan ibarətdir ki, biz öhdəlik götürürük ki, NATO standartlarına uyğun qurulur. Mən bilmirəm ki, tamamilə NATO standartlarına uyğun qurulmağı öhdəyə götürmək nə mənadadır? Bizim NATO standartından kənar hərbi qüvvələrin, mexanizmlərin qurulması halları mövcuddurmu? Yəni bir sıra bu kimi məsələlər var. Mən istərdim ki, biz deputatlar səs verdiyimiz məsələlərin mahiyyətini daha yaxşı bilək. Təşəkkür edirəm.

**Sədrlik edən.** Tahir müəllim, mən Sizə bir şey deyim. Mən, açığı, təəccübləndim. Bayaq səs verdiyiniz memorandum, sazişlər ki vardı, Türkiyə–Gürcüstan–Azərbaycan arasında, Türkiyə–Azərbaycan arasında, gərək çıxış eləyib orada fikirlərinizi deyərdiniz. İkinci tərəfdən, bizə təqdim olunan sənədlərin mahiyyəti hamısı burada yazılıb, göstərilib. Hamısı bizə təqdim olunan sazişlərin, memorandumun mətnində var. Sadəcə, onu oxumaq yetər, vəssalam. Buyurun, xahiş edirəm, münasibət bildirək qanun layihəsinə.

| **Səsvermənin nəticələri** | (saat 13.59 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

"Azərbaycan Respublikası ilə Əlcəzair Xalq Demokratik Respublikası arasında ekstradisiya haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi. Əli müəllim, buyurun.

**Ə.Hüseynli**. Çox sağ olun, hörmətli Ziyafət müəllim. Hörmətli həmkarlar, bilirsiniz ki, Azərbaycan bir çox ölkələrlə ekstradisiya haqqında sazişlər ratifikasiya edib. Deyə bilərəm ki, bu saziş də həm Eksrtradisiya haqqında qanuna, həm də bu sahədə indiyə qədər imzalanmış, ratifikasiya olunmuş digər sazişlərə uyğundur. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Təklif var, səsə qoyulsun. Etiraz yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.00 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi. Saat 4-ə qədər fasilə.

## *(FASİLƏDƏN SONRA)*

**Sədrlik edən.** Xahiş edirəm, yerlərinizi tutun. Gündəliyin növbəti məsələsi. "Azərbaycanın Milli Qəhrəmanın xüsusi fərqlənmə nişanının təsis edilməsi haqqında" Azər-

baycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli Ziyafət müəllim. Hörmətli həmkarlar, bu dəyişiklik texniki xarakter daşıyır, ona görə də bir oxunuşda qəbul ediləcək. Məsələ bundadır ki, Qızıl Ulduz Medalının təsvirində mövcud variantda medalın seriya və nömrəsi medalın yuxarı şüasının küncündə qeyd olunmuşdu. Təbii, təcrübə bundan ibarətdir ki, medalın seriya və nömrəsi medalın arxa tərəfində olmalıdır. Məhz buna görə də düzəliş belədir, arxa tərəfin aşağı hissəsində medalın seriyası və nömrəsi həkk olunmuşdur. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Buyurun, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.05 dəq.) |
|---|---|
| Lehinə | 82 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

“Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə  qanun layihəsi. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri! Ziyafət müəllim,  bir məktubda, eyni zamanda, İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə

əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında qanun layihəsi də daxil olub. Hər iki qanunda Əmək Məcəlləsinin tətbiqi ilə əlaqədar olaraq texniki xarakterli dəyişikliklər edilir, "tədqiq" sözünün yerində "araşdırma" yazılır, bir də "araşdıran" ifadəsi işlədilir. Millət vəkillərindən hər iki qanuna səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Buyurun, xahiş edirəm, "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 16.06 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsinə münasibət bildirin, xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 16.07 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ. Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında qanun layihəsi. Buyurun, Ziyad müəllim.

**Z.Səmədzadə.** Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri, Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1062-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 15 may tarixli Sərəncamının 1.1-ci bəndinin icra edilməsi məqsədi ilə hazırlanmışdır. Təklif edilir ki, Vergi Məcəlləsinin 93.3.9 maddəsində "tikintisi başa çatmamış obyekt üzərində hüquq satıldıqda əlavə olaraq torpaq sahəsinin ayrılması barədə qərarın və tikintiyə razılıq verilməsi haqqında sənədin sürəti" əvəzinə "tikintisi başa çatmamış obyekt üzərində hüquq satıldıqda əlavə olaraq torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənədin və tikintiyə icazənin sürətləri" sözləri yazılsın. Millət vəkillərindən uyğunlaşdırma olduğu üçün səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Çıxış etmək istəyən varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.09 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti 3 məsələ cənab Prezidentin bir məktubu ilə daxil olub. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə.** Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri, adları çəkilən hər 3 qanunda "müvafiq icra hakimiyyəti orqanı" sözlərinin "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan" sözləri ilə əvəz edilməsi təklif olunur. Ona görə də millət vəkillərindən bu düzəlişə də səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Sağ olun. Növbəti 2 məsələ. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi barədə qanun layihəsi, "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi. Hər üçündə eyni dəyişikliklərdir, Ziyad müəllim?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Aydındır. Əli müəllim, əlavəniz varmı? Yoxdur. Buyurun, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklərə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 16.10 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |

Nəticə: Qəbul edildi

Qəbul edildi, sağ olun.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında qanun layihəsinə münasibət bildirək, xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 16.11 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

Qəbul edildi, sağ olun.

"Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsinə münasibət bildirin, xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 16.12 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |

Nəticə: Qəbul edildi

Qəbul edildi, sağ olun. Amma xahiş edirəm, səsvermə-

də diqqətli olun. Zalda 100-ə qədər adam var, amma səsvermədə 84 nəfər iştirak edir. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə.** Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri, Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi "Təhsil haqqında" və "Elm haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğunlaşdırma məqsədi ilə hazırlanmışdır. Bilirsiniz ki, əvvəllər biz "aspirant" sözlərini işlədirdik, indi isə eyni "doktorantlar" və "magistrlər" sözləri ilə əvəz edirik. Millət vəkillərindən bu qanun layihəsinə də səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm, Ziyafət müəllim. Burada, əlbəttə, bu texniki dəyişiklikdir. Amma Vergilər Məcəlləsinə dəyişiklik də nəzərdə tutulub. Bu da onunla bağlıdır ki, istehsalatdan oxumağa göndərilən şəxslər üçün ödənilən təhsil haqqından vergilər tutulmasın. Bu, çox mütərəqqi, müsbət bir dəyişiklikdir. Mən iki dəfə bu məsələ haqqında danışmaq istəmirəm. Hər ikisi təhsillə bağlı olduğu üçün söyləyirəm.

Düşünürəm, biz burada qeyd etməliyik ki, ümumiyyətlə, əgər iş adamları, sahibkarlar hər hansı bir tələbənin təhsil haqqını, ya magistrin təhsil haqqını, ya da doktorantın təhsil haqqını ödəyirsə, həmin məbləğ, ümumiyyətlə, vergidən azad olunmalıdır. Söhbət bundan getməməlidir ki, yalnız indiki halda. Edilən dəyişikliklərdə nəzərdə tutulur ki, istehsalatdan kim isə bir işçisini hansısa universitetdə təhsil almağa göndərəndə onun təhsil haqqı vergidən azad olunur. Amma mən onu nəzərdə tuturam ki, biz

qanunvericilikdə müvafiq dəyişiklik edək, respublikada xeyriyyəçilik fəaliyyətini gücləndirək.

Yeri gəlmişkən, mən mətbuatda oxudum ki, Azərbaycan əhalisi xeyriyyəçilik fəaliyyətinə görə heç də ön sıralarda gedən millət deyil. Ola bilsin ki, bu informasiya yalnış ola bilər, sorğunun nəticələri düzgün olmaya bilər. Ona görə ki, biz müsəlman ölkəsiyik, müsəlmanlar da adətən etdiyini, dinimizdə də yazılıb ki, gərək çox söyləməsinlər. Ola bilsin ki, bununla bağlıdır. Amma ümumiyyətlə, hesab edirəm ki, bizim sahibkarlar təhsil alanlara, aztəminatlı ailələrə, onların övladlarına kömək etməlidir. Dövlət də bunu stimullaşdırsa, onları ödədiyi təhsil haqqına görə vergi məbləğindən azad etsə, düşünürəm ki, bu iş ölkədə elmin, təhsilin inkişafına öz töhfəsini vermiş olar. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Başqa çıxış etmək istəyən varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Onda xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.15 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ. İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında qanun layihəsi. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun. Ziyafət müəllim, dəyişiklik mahiyyətcə texniki xarakterlidir. Belə ki, İnzibati Xətalar Məcəlləsinin 253-1-ci maddəsi "Yaşıllıqların mühafizəsi haqqında" Qanuna uyğunlaşdırılır və həmin maddədən "kadastr" sözü çıxarılır. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Eldar müəllim, Siz də məruzə edin, zəhmət olmasa. 2 qanun layihəsi bir məktubla daxil olub. Sonra səsverməni apararıq. Yaşıllıqların mühafizəsi haqqında qanun layihəsi.

**E.İbrahimov,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli Ziyafət müəllim, hörmətli deputat həmkarlarım, "Yaşıllıqların mühafizəsi haqqında" Qanuna dəyişikliklər edilməsi barədə qanun layihəsində bu qanunun 11.0.2-ci maddəsindəki "və bələdiyyədən" sözlərinin "bələdiyyə mülkiyyətində olan torpaqlardakı yaşıllıqların uçotu və monitorinqi barədə isə bələdiyyədən" sözləri ilə əvəz edilməsi təklif olunur. Bu dəyişikliklə fiziki və hüquqi şəxslərin yaşıllıqların uçotu, kadastrı və monitorinqi barədə məlumatı müvafiq icra hakimiyyəti orqanından, bələdiyyə mülkiyyətində olan torpaqlardakı yaşıllıqların uçotu və monitorinqi barədə məlumatı isə bələdiyyədən almaq hüququ təklif olunur. Qanun layihəsi "Yaşıllıqların mühafizəsi haqqında" Qanunda dəyişikliklər edilməsi barədə ötən il oktyabrın 31-də qəbul edilmiş qanunun tətbiqi məqsədi ilə hazırlanmışdır. Həmkarlarımdan xahiş edirəm, səs verək. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Eldar müəllim. Elmira Axundova.

**E.Axundova.** Çox sağ olun. Mən də 20 və 21-ci məsələlərə dair bir söz demək istəyirəm. "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa

təklif olunan dəyişiklik uyğunlaşdırma xarakteri daşısa da, çox əhəmiyyətli və aktualdır. Xüsusilə də monitorinq məsələsi. Bilirsiniz ki, yaşıllıqların və meşələrin mühafizəsi sahəsində ölkəmizdə mütəmadi olaraq layihələr hazırlanır, ciddi işlər görülür. Meşə örtüyünün qorunması üçün ölkəmizdə meşələrin bərpa edilməsinə, artırılmasına dair milli proqram qəbul edilmişdir. Bu problemlə bağlı görülən digər mühüm tədbirlərdən biri də Prezident İlham Əliyevin 2010-cu ili ekologiya ili elan etməsi olmuşdur.

O vaxt, yadınızdadır, Bakı və ətraf ərazilərdə 3 milyon ağacın əkilməsi ekologiya ilində həyata keçirilən ən böyük layihələrdən biri idi. Bu ənənə hər il davam etdirilir. Hər il respublikamızda minlərlə ağac əkilir və böyük yaşıllıq zolaqları salınır. Bütün bu görülən işlərə baxmayaraq, biz hansısa yaşıllıqların məhv edilməsi və ağacların qanunsuz olaraq kəsilməsi, xüsusilə Bakıda bu cür faktlar barəsində demək olar, hər gün xəbərlər eşidirik. Düzdür, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və müvafiq orqanlar həmin faktlarla bağlı operativ olaraq hərəkətə keçir. Həmin şəxsləri cinayət məsuliyyətinə cəlb edirlər, cəzalandırırlar. Lakin bu çox vaxt gecikmiş addım olur. Çünki çoxillik ağaclar artıq məhv edilmiş olur.

Qanun layihəsindən görünür ki, ölkəmizdə yaşıllıqların uçotu və monitorinqi bu günə kimi çox zəif aparılır. Bu da profilaktik işin olmaması ucbatından belə fəsadlara gətirib çıxarırdı. Təklif olunan dəyişiklikdə isə bunu nəzərə alaraq, düzəliş edilməsini təklif edirlər. Ona görə mən 20-ci və 21-ci məsələlərə aid olan bu 2 dəyişikliyi yüksək qiymətləndirirəm.

Bir dəfə də irəli sürdüyüm təklifi yada salmaq istərdim. Bu da respublikada ekoloji polisin yaradılması məsələsidir. Həmin qurum ya Daxili İşlər Nazirliyinin, ya da

Ekologiya Nazirliyinin nəzdində fəaliyyət göstərə bilər. Əsas budur ki, bu qurum müntəzəm olaraq ekologiya və ətraf mühitin uçotunu və əsas da mühafizəsinin monitorinqini təşkil etsin. Yaşıllıqların məhv edilməsi, ətraf mühitin zibillənməsi və bu yöndə olan digər xoşagəlməz faktları vaxtında aşkar edib lazımi profilaktik və inzibati tədbirlər görəcəkdir. Lazımi nəzarət, xüsusi qurum olmasa, belə qanun dəyişiklikləri də kağızda qalacaqdır. Xahiş edirəm, nəzərə alasınız.

**Sədrlik edən.** Buyurun, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.20 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.21 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Mənzil Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli Ziyafət müəllim. Bu məsələlərin də mahiyyəti növbəti məsələlərlə oxşardır. Dəyişiklik "müvafiq icra hakimiyyəti orqanın müəyyən etdiyi orqan (qurum)" sözlərinin əlavə olması ilə bağlıdır. Məsələ burasındadır ki, cənab Prezidentin müvafiq fərmanı ilə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi əsasında hazırda publik hüquqi şəxs yaradılır. Məhz buna görə də qanunun bütün maddələrinə "müvafiq icra hakimiyyəti orqanın müəyyən etdiyi orqan (qurum)" sözləri əlavə olunur. Söhbət isə həmin adı çəkilən publik şəxsdən gedir. Düzəlişin mahiyyəti bundan ibarətdir.

**Sədrlik edən.** 4 məsələnin hamısında, Əli müəllim?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yaxşı, onda buyurun, xahiş edirəm, Mənzil Məcəlləsinə dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 16.23 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsi. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.23 dəq.) |
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Niyə səslərin sayı 90-dan yuxarı qalxmır? Zalda nə qədər adam var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** 102 nəfər. Xahiş etdik, səs verin də... Burada nə var ki? Bu da çətin bir iş deyil ki... "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə. Rafael müəllim, buyurun.

**R.Hüseynov.** İcazə versəydiniz, 24, 25, 26-cı məsələləri birləşdirərdik, çünki əvvəlki iki məsələ kimi bunlar da mahiyyət etibarı ilə eyni məsələlərdir. Məsələ ondadır ki, 2016-cı il noyabr ayının 24-ə qədər "İçərişəhər" Dövlət Tarixi-Memarlıq Qoruğunun statusu icra hakimiyyəti orqanı statusuna bərabər olub. Lakin həmin fərmandan sonra, təbii ki, bu status dəyişir və ona görə də bu üç qanunun üçündə də "müvafiq icra hakimiyyəti orqanı" ifadəsi "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan və ya (qurum)" sözləri ilə əvəzlənir. Ona görə də texniki səciyyə daşıyan bir dəyişiklikdir. Həmkarlarımı bu 3 qanun layihəsinə səs verməyə dəvət edirəm.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa.

**F.Mustafa.** Təşəkkür edirəm, Ziyafət müəllim. Təbii ki, texniki səciyyə daşıdığına görə burada ciddi mahiyyət

dəyişikliyi baş vermir. Amma mən bu problemlə bağlı fürsətdən istifadə edib bir məsələyə münasibət bildirmək istəyirəm. Tarixi abidələrlə, ümumiyyətlə, tarixi şəxsiyyətlərin ev muzeyləri, kitabxanaları ilə bağlı problemin üzərinə artıq ciddi şəkildə qayıtmağımızın vaxtıdır. Diqqət edirsinizsə, "Təzə Pir" məscidinin yanında böyük tarixi şəxsiyyətimiz, ziyalımız Mirzə Cəlil Məmmədquluzadənin ev-muzeyi var. Onlarca belə ev-muzeylər var və burada da söküntü işləri gedir. Sabah plana düşə bilər. Bu ev-muzeylərin böyük əksəriyyətinin ünvanı dəyişəcək, onlar parka və başqa yerlərə çevriləcəkdir. Olmazmı ki, büdcədən vəsait ayrılsın, ayrıca bir bina, xüsusi bina tikilsin. Azərbaycanın bütün tarixi şəxsiyyətlərinin ev muzeyləri iki–üç otaqda yerləşsin. Ədəbiyyat Muzeyində bəzi tanınmış yazarların müəyyən guşələri var, amma elə alimlərimiz, tanınmış şəxsiyyətlərimiz var ki, onların, məsələn, kitabxanaları qalır. Övladları bunu yaşada bilmirlər, yaxud da başqa ixtisas sahibi olurlar. O kitabxanaları dağıdırlar, dəyər-dəyməzinə satırlar və bu irs ortadan qalxır. Ona görə də dövlət əgər iki dənə böyük bina kompleksi yaratsa və bu bina komplekslərində həm bu muzeylər yerləşsə, həm də deyək ki, kitabxanalar adlar üzrə salınsa, bu çox faydalı olar.

Bir də Ziyafət müəllim, bir məsələyə diqqəti çəkmək istəyirəm. Şuşadan, işğal olunmuş başqa ərazilərdən böyük şəxsiyyətlərimizin büstləri, heykəlləri gətirildi. Bunları İncəsənət Muzeyinin həyətində qoyublar. Arxa tərəfdə olduğundan görünmürlər. Mən bir neçə dəfə ora böyük ürək ağrısı ilə baxmışam. Bakıda bu boyda böyük bulvar salınıb. Olmazmı ki, bulvarın bir guşəsində işğal faktını gələn insanlara göstərmək üçün "Sürgün olunmuş heykəllər", "İşğal olunmuş ərazilərdən qovulmuş heykəl-

lər” adında açıq bir muzey yaradaq. Bunlar da tarixi abidələrdir də. Mövzuya aid olduğuna görə deyirəm. Yəni bunları harada isə bir küncdə saxlayaq ki, nə vaxtsa qayıdacağıq, qaytaracağıq. Bu, doğru deyil. Eybi yox, nə vaxt o torpaqları işğaldan azad edərik, açıq bulvardan da, açıq muzeydən də götürüb qaytararıq. Amma bunu həm də bir təbliğat vasitəsinə çevirməyimiz lazımdır. Elə heykəllər var ki, güllə ilə deşik-deşik edilibdir. Erməni vəhşiliyini göstərmək baxımından hamının baş çəkdiyi, kütləvi şəkildə gəzişdiyi yerlərdə belə bir kompleksin yaradılması vacibdir. Çünki tarixi abidələr elədir ki, Bakıda quruculuq işləri gedir, istər-istəməz xeyli miras ortadan qalxır. Ola bilsin ki, müvafiq icra orqanı da, deyək ki, bu sahədə hər şeyi müəyyən nəzarət altında saxlamaq imkanına sahib olmayacaq. İctimaiyyətin bu məsələ ilə bağlı narahatlığını ortadan qaldıran addımlar atılmalıdır. Xüsusilə də bu kitabxanalar məsələsi.

Sizə bir söz deyim. Bax, bizim Sabunçu rayonu ərazisində də bəzən, görürsən, musiqi məktəbidir, başqa, təhsil ocağıdır, bu 70 ilin məktəbində, qəza vəziyyətində olan binada tədris keçirilir. Bina icra hakimiyyətinə aid deyil, Mədəniyyət Nazirliyinin balansındadır. Mədəniyyət Nazirliyinin də pulu, vəsaiti yoxdur. Təmir olunmağa da uyğun yerlər deyil.

Təsəvvür edin ki, ən böyük qəsəbələrdə bir normal musiqi məktəbi yoxdur. 4–5 musiqi məktəbi var, istənilən vaxt uça bilər. Bu baxımdan, yəni ölkənin mədəniyyətini qaldırmaq istəyiriksə, mütləq musiqi təhsilinə, kitabxana sisteminə fikir verməliyik. Kitabxanalar elə gündədir ki, – təmir olunan bir neçə kitabxananı istisna edirəm, – gedib baxsanız, o kitabların vəziyyətindən dəhşətə gələrsiniz. Nə qədər böyük irsdir, bunlar itib gedəcəkdir. O baxımdan da

mən muzeylərin yaradılmasının, tarixi şəxsiyyətlərin muzeylərinin hərəsinə iki otaq, üç otaq verilməklə yaradılmasının tərəfdarıyam.

Bir də təklif edirəm ki, böyük şəxsiyyətlərin kitabxanaları qorunsun. Məsələn, Azad Mirzəcanzadənin o boyda kitabxanası var idi, taleyi məlum deyil. Onlarca belə tanınmış akademiklərin, alimlərin kitabxanaları var. Ona görə tarixi abidələrdən söhbət gedəndə elə bunları da biz tarixi dəyərlər, sərvət kimi qiymətləndirib müəyyən addımlar atmağa borcluyuq. Sağ olun.

**Sədrlik edən.** Aqil Abbas.

**A.Abbas.** Təşəkkür edirəm, Ziyafət, müəllim. Madam ki, söhbət mədəniyyətdən düşüb, mən də bir məsələyə toxunmaq istəyirəm. Birincisi, Fazil müəllim dediyi o məsələni uzun müddətdir, mən qəzetdə yazıram. Təbii ki, son zamanlar qəzet oxumurlar. Yəni, doğrudan da, o heykəlləri gətirib heç kəsin görmədiyi keçmiş Bakı Partiya Komitəsinin həyətində muzey var, orada qoymaqla nə olur? Onu açıq yerlərə qoysunlar, camaat görsün. Bu özü də təbliğat məsələsidir.

Bayaq vergilər məsələsini dedilər. İndi deyim, nə fərqi var? Deyirlər kino çəkilmir. Əvvəla, dövlət kinoya pul buraxır. Möhtərəm Prezident dövlət sifarişi üçün pul ayırır. Amma maraqlı bir məsələ. Adətən görürük ki, kim isə nə isə qazanırsa, qazandığından vergi verir. Amma dövlət kinoya, tutalım 1 milyon 500 min manat pul ayırır. Pul hələ gəlib kinostudiyaya çatmamış onun 300 neçə minini Vergilər Nazirliyi əlavə dəyər vergisi kimi tutur. Pul qazanmışıq, sənə verək, başına dönum? Kino çəkilər, pul qazananda sənə də o pulu ödəyərlər. Birdən-birə, fikirləşin, 1 filmdən 300 min, 400 min tutularsa, o filmdən nə çıxacaq ortalığa? Bax, bu məsələ var, özü də ciddi

məsələdir. Film də çəkilir. Bayaq, deyəsən, Elmira xanım dedi. Aprel şəhidləri ilə bağlı dövlət sifarişi var. İnşallah çəkərlər. Yəni belə bir sifariş var artıq.

Bir də Ziyafət müəllim, Şuşa, Şuşa deyirik. Şuşanın iki məktəbini birləşdirdilər. Musiqi məktəbini və kollecini birləşdirdilər ki, daha lazım deyil, Şuşa onsuz da görək nə vaxt olacaq. Bu cəhənnəm, Şuşanın mədəniyyət şöbəsini ləğv edib, birləşdiriblər Sumqayıtın regional idarəsi ilə. 260 adam ixtisara düşüb. Olmayan Şuşanın, yəni o qaçqın camaatın 260 nəfəri ixtisara düşüb. Mədəniyyət sahəsində ixtisarlar çox gedir. Kəndlərdə kitabxanaları, filanları, hamısını ləğv ediblər. Daha kənddə kitab oxumaq lazım deyil, televizor bəsdi, seriallara baxacaqlar. Bax, bu problemi çatdırmaq istəyirdim. Niyə belə olsun?

Ziyafət müəllim, bir həftə bundan qabaq Xankəndi şəhərinin Stepanakert adlandırılmasının 95 illiyni qeyd etdilər. 1923-cü ildə Xankəndinin adını dəyişib qoyublar Stepanakert və bunu böyük təntənə ilə qeyd etdilər. Xaricdən də qonaqlar gəldi. Düzdür, onların adlarını bizim xarici işlər naziri qara siyahıya salacaq, sonra onlar bizə üzrxahlıq məktubu yazacaq, bizim xarici işlər nazirinin də ürəyi genişdir, əfv edəcəkdir onları ki, nə vaxt istəyirsiniz, gəlin. Bayram keçirtdilər, 95 illiyi qeyd etdilər.

Bu il Qarabağ xanlığının 270 illiyidir. 1748-ci ildə Qarabağ xanlığının əsası qoyulub. Pənah xan qoyub. 270 illiyidir, nə televiziyada danışan var, nə Tarix İnstitutunda konfrans keçirən var. Onlar Xankəndinin adının dəyişməsinin 95 yaşını qeyd edirlər, eşşək yürüşü də təşkil edirlər. Biz amma öz Qarabağımızın 270 illiyini yada salmırıq, elə bil ki, heç belə bir xanlıq olmayıb. Demirəm, xanlıqların yubileyini keçirək. Qarabağın üstündə dava gedir, ona görə deyirəm.

Rafael müəllim, bağışlayın məni, mövzudan kənara çıxdım. Ziyafət müəllim, Siz də məni bağışlayın. Yəni bu sözləri demək istəyirdim. Şuşanın mədəniyyət şöbəsini yox, elə Sumqayıtın mədəniyyət şöbəsini verərdilər də Şuşaya. Regionalı orada yaradaydılar, nə olardı? Ya o biriləri və məktəbləri birləşdirmək? Bu dəqiqə Bakıda 20 pedaqoji universitet var, hamısını gərək birləşdirələr? Amma Şuşanın iki texnikumunu o dəqiqə birləşdirdilər. Nə qədər adam ixtisara düşdü. Nə qədər də tələbə azaldı. Niyə? Şuşaya qiymət vermək əvəzinə... Təşəkkür edirəm, üzr istəyirəm.

**Sədrlik edən.** Rafael Hüseynov.

**R.Hüseynov.** Təşəkkür edirəm. Yəni peşəkar yanaşma, əslində, tələb edir ki, tutalım, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Mədəniyyət haqqında" qanunlarda bu texniki səciyyəli dəyişiklikdir, elə bununla bağlı danışaq, sözümüzü deyək və bununla da məsələ bitsin. Yəni peşəkar yanaşma bunu tələb edir. Amma o çıxış edənləri, söz söyləyənləri də mən, əlbəttə, anlayıram, ağrılar var, müəyyən problemlər var, istər-istəməz o danışdırır. Ona görə bu söylənilən məsələlərlə əlaqədar bir-iki məqama mən diqqət yönəltmək istəyirdim.

Fazil müəllim məsələ qaldırır ki, bu sökülən ev-muzeyləri ki var, ünvanlar itir, bunların, bu irsin taleyi necə olsun? Əlbəttə, Bakı yeniləşir, gözəlləşir. O yerdə ki hansı isə binaları xilas etmək mümkün deyil, onlar o gedişatda ömrünü başa vurur. Vaxtı ilə mədəniyyət naziri Əbülfəs Qarayevlə bizim ev-muzeyləri haqqında söhbətimiz olmuşdu. Bakıda çoxlu ev-muzeylər var. Onların hətta idarəçiliyində müəyyən problemlər ortaya çıxır. Onların hətta mərkəzləşməsi məsələsi qaldırılır. Bir müddət belə bir ideya var idi ki, onların böyük bir hissəsi Nizami

Muzeyinə verilsin. Amma Nizami Muzeyindən savayı orada bilavasitə musiqi ilə bağlı olan xadimlər var, elmin ayrı-ayrı sahələri ilə əlaqədar olan şəxsiyyətlər var, onların ev-muzeyləri var. Bəs bunların taleyi necə olsun? Düşünürəm ki, burada ayrıca bir bina tikməkdənsə, bunlara bir ayrıca yer ayırmaqdansa, sahələr üzrə artıq mövcud olan muzeylər arasında bunları səmtləndirmək lazımdır. Tutalım ki, musiqi ilə əlaqədar ayrı-ayrı xadimlərin vaxtı ilə yaşadıqları ünvanlar artıq ünvan olaraq ömrünü başa vurubsa, deyək ki, Mədəniyyət Nazirliyinin ayrıca Musiqi Mədəniyyəti Muzeyi var, o muzeydə yerləşə bilərlər. Necə ki, vaxtı ilə məsələn, Əhməd Bakıxanovun ev-muzeyi var idi, xalq çalğı alətləri muzeyi toplanmışdı orada. O muzey, bütövlükdə o bina sökülərkən, o küçə tamamilə silinərkən həmin o muzey də, o əşyalar da, bütünlüklə Musiqi Mədəniyyəti Muzeyinə təhvil verildi. O muzey bir az da zənginləşdi.

Yaxud ayrı-ayrı ədəbiyyat xadimləri ki var, onların bir çoxu Bakının indi o yuxarı məhəllə deyilən hissəsində yaşamışdılar. O binalar da, həqiqətən, ömrünü başa vurmuş, tarixini keçmiş binalar idi, köhnəlmiş, nimdaşlaşmış tikililər idi. Amma o şəxsiyyətlərin adları gərək yaşasın. O adlar o əşyalarla, tarix yadigarı olan o eksponatlarla birlikdə, tutalım, köçməlidir Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinə. Ya müəyyən hissəsi Tarix Muzeyinə, müəyyən hissəsi İstiqlal muzeyinə köçə bilər. Yəni həmin muzeylər bir az da peşəkarlaşar, bir az da daha zəngin olarlar.

Kitabxanalar məsələsinə gəlincə, bu da çox ağrılı bir məsələdir. Vaxtı ilə bizim Elmlər Akademiyasının rəhbərliyində çalışmış böyük alim Əlisöhbət Sumbatzadə var idi. İndi onun alimliyində, konsepsiyalarında, yanaşma-

larında biz nəyi isə qəbul edə bilərik, nəyi isə deyil, amma hər halda həmişə elmin ön cərgəsində olmuş bir insan idi və çox zəngin bir kitabxanası var idi. Bir nəfər mənə çox kədərli bir faktı söyləyirdi ki, o Səməd Vurğun küçəsinin Bakıxanov küçəsi ilə kəsişməsindəki o gözəl binada yaşayırdı, deyir onun vəfatından sonra o zəngin kitabxanası tökülmüşdü həyətə, atırdılar zibilliyə, kim isə nəyi isə götürürdü və böyük bir irs dağılıb gedirdi. Ona görə də düşünürəm ki, gələcəkdə də belə şeylər ola bilər. Bunun da həlli yolu var. Bizim iki əsas böyük elmi və mədəni irsi birləşdirən kitab mərkəzi var. Biri Mirzə Fətəli Axundzadənin adını daşıyan Milli kitabxanadır, digəri Milli Elmlər Akademiyasının son illərdə çox möhtəşəm şəkildə tikilmiş gözəl bir binası olan kitabxanadır. Hər cəhətdən, texniki cəhətdən təmin olunmuş gözəl bir binası var, ora verilə bilər.

Vaxtı ilə böyük alimlər, hətta məsələn, Yevgeni Eduardoviç Bertels – Sovet İttifaqının ən böyük şərqşünaslarındandır – vəfat edəndə çox zəngin kitabxanasını Rusiyanın hansı isə kitabxanasına deyil, məhz Azərbaycana vəsiyyət etmişdi. Bu gün Azərbaycan Milli Elmlər Akademiyasının kitabxanasında yerləşir və biz ondan istifadə edirik. Düşünürəm ki, ayrı-ayrı böyük alimlərin də kitabxanaları elə bu cür ya Mirzə Fətəli Axundzadə adına Milli kitabxanaya, ya da Milli Elmlər Akademiyasının kitabxanasına verilə bilər. Yəni təzə binalar tikmək, qurmaq çox vaxt apara bilər, çox vəsait tələb edə bilər və bunun öz problemləri var. Amma mövcud strukturlar var, bu görülən işlərlə, bu atılan addımlarla həmin strukturlar da bir az da zənginləşər, bir az da onun həm elmi, həm də mədəni dəyəri artar. Sizi "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", eləcə də "Mədəniyyət haqqında" qanunlardakı o texniki səciyyəli o dəyişikliklərə səs ver-

məyə dəvət edirəm.

**Sədrlik edən.** Aydın Mirzəzadə.

**A.Mirzəzadə.** Təşəkkür edirəm, Ziyafət müəllim. Bir qədər qısa olacağam. Deputat həmkarım Fazil Mustafa maraqlı bir məsləyə toxundu. Xüsusilə sökulən evlərdə görkəmli ziyalılarımızın mənəvi irsinin qorunması ilə bağlı. Mən məsələyə bir qədər başqa tərəfdən yanaşmaq istəyirəm. Məsələ burasındadır ki, bu gün ziyalılarımızın bir qisminin şəxsi kitabxanalarında çox zəngin, çeşidli kitablar var. Bunlar həm Azərbaycan tarixi ilə, həm də ümumdünya tarixi ilə bağlıdır və bu kitablar heç bir yerdə qeydiyyatda deyil. Mən təklif edərdim ki, ya Mədəniyyət Nazirliyinin, ya da Milli Kitabxananın tərkibində xüsusi bir şöbə olsun ki, bu kitablar qeydiyyata alınsın. Həm də könüllü surətdə. Heç kimi məcbur etmək olmaz ki, öz kitabını ya dövlətə ver, yaxud da qeydiyyata aldır. Mənə elə gəlir ki, ziyalılarımıza bir çağırış olmalıdır. Kimin şəxsi kitabxanasında, onun fikrincə, qiymətli kitablar var-sa, dövlətdə qeydiyyatdan keçirsin. Vaxtaşırı həmin kitabların sərgisini keçirmək də olar. Məsələn, mən bu yaxınlarda bir kitab əldə etdim – 1913-cü ildə Bakıda keçirilən siyahıyaalmanın nəticələri. Kitab 1916-cı ildə Bakıda çap olunub və giriş hissəsində Nəriman Nərimanovun, Hacı Zeynalabdin Tağıyevin, Məşədi Əzizbəyovun adları var. Orada maraqlı bir fakta rast gəldim ki, çox şeyi izah edir.

Həmin dövrdə, 1913-cü ildə Bakıda 280 min əhali yaşayıb. Ən böyük icmalar azərbaycanlı, rus və erməni icmaları olub və siyahıyaalma zamanı bunların, bu 3 icmanın hərəsində 70 min, 70 min, 70 min nəfər olub. Onlara sual verilibdir ki: “Siz Bakıda doğulubsunuz, yaxud gəlməsiniz?” Rus və erməni icmalarının təqribən 70–80

faizi bildirib ki, biz Bakıya gəlməyik. Bu siyahıyaalmanın rəsmi nəticəsidir. Azərbaycan icmasının isə 90 faizi, 70 minin 90 faizi bildirib ki, biz Bakıda doğulanıq. Yəni bunun özü, mənə elə gəlir ki, artıq bizim bir sıra bəd-xahların Azərbaycanla bağlı açdıqları mübahisələrə cavab vermiş olar. Yəni mənə elə gəlir ki, həvəskar kitabxanaçı-ların, evlərində qədim kitablar olan insanların kitablarının qeydiyyata alınması, təbliğ edilməsi sahəsində bir çox işlər görmək olar. Bu məsələnin Mədəniyyət Nazirliyi qarşısında qaldırılmasının tərəfdarıyam. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Əgər başqa çıxış etmək istəyən yoxdursa, xahiş edirəm, 24-cü məsələyə münasibət bil-dirək. "Tarix və mədəniyyət abidələrinin qorunması haq-qında" Azərbaycan Respublikasının Qanununda dəyişik-liklər edilməsi barədə. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.41 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihə-sinə, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.42 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, Rafael müəllim, Siz məlumat verdiniz, amma burada məzmun bir az başqadır, buyurun.

**R.Hüseynov.** Təşəkkür edirəm. Arxiv millətin yaddaşıdır və onun qorunması, gələcək nəsillərə çatdırılması çox vacibdir. Bizim "Milli arxiv fondu haqqında" Qanunun 5-ci maddəsi xüsusi arxivlər – dövlət təhlükəsizliyi, xarici kəşfiyyat, sərhəd xidməti, miqrasiya xidməti, penitensiar xidmət, xarici işlər, daxili işlər, fövqəladə hallar və müdafiə sahəsində fəaliyyət göstərən dövlət orqanlarının arxivləri haqqındadır. Mən o qəbil arxivlərdə çox işləmişəm. Məsələn, dövlət təhlükəsizliyi sahəsi ilə bağlı arxivlərdə mən yüzlərlə cinayət işinə baxmışam. Həqiqətən, bu arxivlər məxsusi olmalıdır. Məxsusi idarələrin nəzarətində olmalıdır. Çünki orada elə informasiyalar var ki, onların ictimailəşdirilməsi hələ zamana bağlı məsələdir. Ona görə də təbii olaraq "Milli arxiv fondu haqqında" Qanunun həmin 5-ci maddəsində bu orqanlara öz arxivlərinə nəzarət funksiyası verilir. Təəssüf ki, prokurorluq orqanlarının adları bu siyahıda yox idi. İndi həmin maddəyə prokurorluq orqanlarının adı əlavə olunur. Bu da "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun bir az da təkmilləşməsinə, daha mükəmməl olmasına imkan yaradacaqdır. Həmkarlarımı səs verməyə dəvət edirəm.

**Sədrlik edən.** Çingiz Qənizadə, buyurun.

**Ç.Qənizadə.** Çox sağ olun. Əslində, burada danışmalı elə bir şey yoxdur. Prokurorluq orqanlarının arxivinin də xüsusi hissəyə keçirilməsi məqsədəuyğundur. Çünki özündən əvvəlki digər qurumlara baxanda prokurorluğun arxiv materiallarında da kifayət qədər mühafizə olunmalı, qorunmalı müəyyən sirlər və dövlət sirləri var. Amma mən niyə çıxış etmək istədim? 2 cümlə ilə istəyirəm, vaxtınızı alam.

Bu gün Azərbaycan Respublikası prokurorluğunun yaranmasının 100 illiyidir. Bu möhtəşəm bayram hazırda prokurorluq orqanlarının əməkdaşları tərəfindən qeyd edilir. Mən icazə versəydiniz, hüquqşünas yoldaşlarım adından Azərbaycan Respublikası prokurorluğunun bütün kollektivini, bütün üzvlərini bu bayram münasibəti ilə təbrik edərdim. Onlara çətin və şərəfli işlərində yeni-yeni uğurlar arzulayardım. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Başqa çıxış etmək istəyən yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.45 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

“Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Hörmətli həmkarlar, bu qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır. Belə ki, biz 2018-ci il 1 may tarixli qanunda, həm də İnzibati Xətalar Məcəlləsində vəkilin fəaliyyəti sırasında məhkəmənin baxdığı inzibati xəta haqqında iş üzrə icraatda fiziki şəxsin şəxs qismində iştirakını nəzərdə tutmuşuq. Məhz buna görə də “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Qanuna da bu ifadə daxil edilməlidir. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Elşən Musayev.

**E.Musayev.** Təşəkkür edirəm, Ziyafət müəllim. Mən də bütün həmkarlarımı yeni sessiya münasibəti ilə təbrik edirəm və hər birinizə uğurlar diləyirəm. Əslində, mənim danışmaq fikrim yox idi, hörmətli Ziyafət müəllim. Sadəcə vəkil adını görüncə, vəkillik adını görüncə bir çox hüquqşünasların mənə müraciəti yadıma düşdü.

Burada, ümumiyyətlə, vəkillərlə bağlı, bilirsiniz ki, çox müzakirələr olub. Hər zaman o müzakirələrdə biz vəkilliyin səlahiyyətinin qaldırılmasına dəstək olmuşuq. Burada, hətta imtahan sualları ilə bağlı, xatırlayırsınızsa, bir polemika oldu. Bu məsələdə də hər iki tərəfdən baxanda hörmətli həmkarlarımı düz bilirdim. Amma çox uzun müddətdir, mənə vəkillik imtahanı verən insanlar,ələlxüsus da tələbə yoldaşlarım, – qeyd edim ki, həmin tələbə yoldaşlarım həm də Sizin tələbələrinizdir, hörmətli Ziyafət müəllim, – mənə müraciət edirlər ki, bizim hörmətli müəllimimizə, Azərbaycanın ən dəyərli hüquqşünaslarından biri olan Ziyafət müəllimə bir sual ünvanlayaq.

Sual bundan ibarətdir ki, vəkilliyə test imtahanı verən insanlar əgər həmin testdən keçə bilməyiblərsə, 1 il

müddətində yenidən imtahan verə bilməzlər. Bütün hüquqşünasların sualı bundan ibarətdir ki, qanun niyə belə bir məhdudiyyət qoyur? Bu embarqo nədən ibarətdir? İmtahan verə bilməyəcəyiksə, 3 dəfə də, 4 dəfə də verə bilmərik, növbətini gözləyərik. Yaxud da insan narahat halda ola bilər, xəstələnə bilər, xəstəsi ola bilər. 1 balı, 2 balı çatmadığına görə bu imtahandan kəsilə bilər. Yəni hər birinin fikri ondan ibarətdir ki, 1 il çox böyük bir müddətdir və hüquqşünasın 1 il oturub imtahan günü gözləməsi, əslində, düşünürlər ki, onlara qarşı böyük bir ədalətsizlikdir. Hər biri məndən xahiş etdi ki, bu sualı məhz Sizə ünvanlayım, hörmətli Ziyafət müəllim. Ziyafət müəllim bəlkə elə bir şərh verəcək, elə əsaslandıracaq ki, biz düşünəcəyik, əslində, hər şey doğrudur. Amma hər halda bugünkü vəziyyətdə onlar düşünürlər ki, onlara qarşı böyük bir ədalətsizlik var. Cavab veriləcəksə də, verilməyəcəksə də öncədən Sizə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Başqa çıxış etmək istəyən varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.49 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

“Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə. Arif müəllim, buyurun.

**A.Rəhimzadə,** *Milli Məclisin Regional məsələlər komitəsinin sədri.*

Çox sağ olun, Ziyafət müəllim. Növbəti iki-üç məsələ də eyni qanunla, daha doğrusu, eyni qanuna dəyişikliklə əlaqədardır. Ona görə etiraz etmirsinizsə, mən üçünü də deyim. Söhbət “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında”, “Bələdiyyələrin statusu haqqında” və “Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” Azərbaycan Respublikasının qanunlarından gedir.

Bu düzəlişin səbəbi odur ki, “Reklam haqqında” Qanuna 2017-ci ilin axırında bir düzəliş edildi. O düzəlişə görə reklam işinin professional səviyyədə aparılması məsələsi ortaya çıxmışdı. Cənab Prezidentin reklamla əlaqədar xüsusi fərmanı olubdur. Dövlət Reklam Agentliyi yaradılıbdır. Nazirlər Kabinetinin də xüsusi qərarı var. Hazırda bu sənədlərə görə reklamı ayrı-ayrı bələdiyyələr özləri deyil, bu agentlik vasitəsi ilə həyata keçirəcəklər. Bunlar xüsusi bir qurum, bir təşkilat yaradırlar və bu təşkilat reklamın aparılmasını təmin edəcəkdir. Bu iş yüksək professional səviyyədə olacaqdır. Eyni zamanda, bələdiyyənin, açığını deyək, elə bir imkanı da yoxdur ki, reklamla əlaqədar bu işi aparsın, ələlxüsus rayon yerlərində.

26.2.2-ci maddədə nəzərdə tutulur ki, reklam bələdiyyə mülkiyyətində olan daşınmaz əmlakda yerləşdiriləcəyi təqdirdə, həmin əmlakın istifadəsinə dair bələdiyyə ilə müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum arasında bağlanacaq müqavilədən irəli gələn məbləğ həmin quruma ödənməlidir. Bu düzəlişlər adını çəkdiyim 3 qanunda edilir. Eyni zamanda, “Bələdiyyələrin maliyyə-

sinin əsasları haqqında" Qanunda nəzərdə tutulur ki, bələdiyyələr əmlakın özəlləşdirilməsindən gəlir əldə edirlər. Burada nəzərdə tutulur ki, onun istifadəsindən də gəlir götürəcəklər. Yəni, reklamın özü elə istifadə deməkdir. Bu düzəlişlər bununla əlaqədardır. Xahiş edirəm, münasibətinizi bildirəsiniz. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Vahid Əhmədov.

**V.Əhmədov.** Çox sağ olun, Ziyafət müəllim. O məsələ bizim komitədə də müzakirə olunub və müəyyən mübahisə doğurub. "Reklam haqqında" Qanunu mən və mənim həmkarım Əli Məsimli hazırlamışıq, amma son vaxtlar bu qanuna o qədər düzəlişlər edilib ki, artıq bilmək olmur, bu, qanun formasında qalıb, ya yox? Bələdiyyələrdən, ümumiyyətlə, bələdiyyələrin statusundan danışanda ən çox mübahisə doğuran məsələlərdən biri bələdiyyələrin maliyyəsi olub. Maliyyə vəsaiti azdır, bələdiyyələr işləyə bilmirlər, maliyyə imkanları yoxdur və sair. Bu qanunda da biz götürüb bələdiyyələrdə olan reklamla əlaqədar yığımı veririk mərkəzi icra hakimiyyəti orqanına, yəni, cənab Prezidentin yaratdığı Azərbaycan Dövlət Reklam Agentliyinə. Bu nə qədər düzdür?

Mən başa düşürəm, iri şəhərlər var, Bakıdır, Sumqayıtdır, Gəncədir. Amma niyə bütün rayonlarda olan reklam pullarını bələdiyyələr, bələdiyyə nümayəndələri yığmasınlar? Özləri üçün, yəni, həmin rayonların məqsədləri üçün istifadə etməsinlər, amma mərkəzə versinlər? Sonra da mərkəzdən əlavə vəsait tələb edək ki, bələdiyyələrə əlavə vəsait verilsin. Ümumiyyətlə, biz onda buna səs verəndə dedik ki, bu məsələ araşdırılsın və bizə məlumat verilsin. Nəyə görə, səbəbi nədir? Yenə deyirəm, iri şəhərləri mən başa düşürəm. Amma xırda rayonlarda, ümumiyyətlə, kəndlərdə olan reklamla əlaqədar gəlirlər niyə mərkəzi

icra hakimiyyəti orqanına köçürülməlidir? Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qənirə Paşayeva.

**Q.Paşayeva.** Çox sağ olun, Ziyafət müəllim. Biz bu mövzunu çox hörmətli Arif müəllimlə də danışdıq. Təbii ki, bələdiyyələrin reklam gəlirlərini toplamalarında problemlər vardır. Yəni, peşəkar kadrların olmaması. Bu sahədə ciddi problemlər vardır. Bələdiyyələr bu vəsaiti lazımınca toplaya bilmirdi. Daha professional bir qurumun bu prosesi həyata keçirməsinin müsbət tərəflərini vurğulamıram. Ortada bir maraqlı məqam var. Bu sənəd müzakirə olunan zaman bu haqlar bələdiyyəyə ona görə verilmişdi ki, bələdiyyələrin büdcəsi formalaşsın. İndi biz bələdiyyələrin büdcələrini formalaşdıran bir mənbəni bələdiyyədən alırıq. Bunu bir icra qurumu toplayacaq. Bu icra qurumu topladığı vəsaitin neçə faizini bələdiyyələrə verəcək? Bu önəmlidir. Mən bir az öncə soruşdum, bu, çox az bir faizdir. Yəni cəmi 10 faizdir.

Reklamdan əldə olunacaq, yəni, icra qurumunun topladığı vəsaitin cəmi 10 faizi bələdiyyələrə veriləcəksə, özəlliklə kənd rayonlarında nəzərə alsaq ki, onsuz da bələdiyyələrin büdcə imkanları daha zəifdir, üzərindəki vəzifələr daha böyükdür, onda necə olacaq? Ona görə ən azı bu məsələyə müvafiq qurumlar baxa bilər ki, reklama görə toplanacaq vəsaitlərin, heç olmasa, yarısı o bələdiyyələrə ödənilsin ki, bələdiyyələr də o işi həyata keçirə bilsinlər. Onsuz da bələdiyyələrin vəzifələri çox, amma büdcə və maliyyə qaynaqları zəifdir. Yəni, ən azı müvafiq icra qurumu gələcəkdə bu məsələyə baxarsa, bu, müsbət bir addım olardı. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Arif müəllim, buyurun.

**A.Rəhimzadə.** Çox sağ olun, Ziyafət müəllim. Məsələ burasındadır ki, həqiqətən, bələdiyyələrin reklam

haqqında lazımi bilikləri də, təcrübələri də yoxdur. Bu işi indiyə qədər lazımi səviyyədə apara bilməyiblər. Hazırda onların reklamdan gəlirləri, demək olar ki, sıfır dərəcəsindədir. Nazirlər Kabinetinin qərarı var, bu qərarda bələdiyyələrə gələn payın miqdarı nəzərdə tutulubdur. Bu, işin başlanğıcıdır. İş başlasın, oradan gələn gəlir çox olsa, daha çox vəsait ayrıla bilər. Bu 10 faiz qanunla müəyyən olunmayıb, Nazirlər Kabinetinin qərarı ilədir. Bir balaca iş gedəndən sonra görsələr ki, həqiqətən, onların gəlirləri çoxdur, məsələ qaldırıb 10 faizi 20 faiz də etmək olar, bəlkə ondan çox da etmək olar. Hər halda bu başlanğıcdır. Hələ bilinmir, reklam təşkilatının xərci nə olacaqdır? O nə qədər özü qazanacaq, nə qədər ora verəcək və sairə. Odur ki, mənə elə gəlir, bu redaksiyada qəbul olunmalıdır, bir müddətdən sonra Nazirlər Kabineti vasitəsi ilə o məsələyə yenidən baxmaq olar. Demək istəyirəm, bu 10 faiz qanunvericilik norması deyil. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Əgər başqa çıxış etmək istəyən yoxdursa, "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.58 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 3 |
| Bitərəf | 2 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respub-

likasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.58 dəq.) |
|---|---|
| Lehinə | 80 |
| Əleyhinə | 3 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.59 dəq.) |
|---|---|
| Lehinə | 82 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Xahiş edirəm, qanun layihəsinə bir də səs verək.

| **Səsvermənin nəticələri** | (saat 17.00 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 3 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

“Azərbaycan Respublikasının “Diplomatik xidmətə verilən töhfəyə görə” medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş). Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, Ziyafət müəllim. Azərbaycan orden və medallarının sırasına çox əhəmiyyətli yeni bir medalın əlavə olunması təklif olunur – diplomatik xidmətə verilən töhfəyə görə. Təltif edilən şəxslərin siyahısına baxsaq, həm peşəkar diplomatları, həm də beynəlxalq əməkdaşlığa töhfə verən, Azərbaycanın beynəlxalq münasibətlərinə, xarici siyasətinin həyata keçirilməsinə, o cümlədən xaricdə yaşayan azərbaycanlılara dəstək verən insanları görərik. Yəni, bu medalla təltif olunacaq şəxslərin əhatə dairəsi çox genişdir. Bu təqdirəlayiq bir haldır. İkincisi, qeyd etmək istəyirəm, medalın təsviri də bizim indiyə qədər mövcud olan orden və medalların təsvirindəki milli atributlar nəzərə alınmaqla tərtib olunmuşdur. Hesab edirəm ki, müasir dövlətçiliyimizin 100 illik tarixi dövründə belə bir medalın təsis olunması təqdirəlayiq bir haldır. Millət vəkillərindən səs verməyi xahiş edirəm.

**Sədrlik edən.** Buyurun, xahiş edirəm, qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 17.02 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

“Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919–2019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş). Əli müəllim, buyurun.

**Ə.Hüseynli**. Çox sağ olun. Hörmətli həmkarlar, bilirsiniz ki, Xalq Cümhuriyyətinin 100 illiyinin qeyd olunması ilə bağlı bir qədər əvvəl bir sıra hüquq mühafizə orqanlarının, prokurorluğun, polis orqanlarının yubiley medallarını təsis etmişik. İndi cənab Prezident tərəfindən dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919–2019) yubiley medalının təsis edilməsi ilə bağlı layihə təqdim edilib. Çünki təhlükəsizlik orqanları məhz 1919-cu ildə yaradılmışdır. Hesab edirəm ki, bu 100 illik yubiley medalı ilə xüsusən son illər Azərbaycanın həm Dövlət Təhlükəsizliyi Xidmətinin, həm də xarici kəşfiyyat orqanlarının Azərbaycanın müstəqilliyinin, milli təhlükəsizliyinin qorunması, terrorizmə qarşı mübarizə, mütəşəkkil cinayətkarlığa qarşı mübarizə sahəsində həyata keçirdikləri çox uğurlu əməliyyatları da qeyd etmək olar. Bu yubiley medalları bir ənənə xarakteri daşıyır. Bu bizim milli dövlətçiliyimizlə bağlıdır. Amma bir daha vurğulamaq istəyirəm ki, son illər bizim bu sahədə fəaliyyət göstərən orqanlar ciddi nailiyyətlər əldə etmişlər. Bu da

bizi sevindirir. Bu yubiley medalı, eyni zamanda, özündə həm də dövlətçilik atributlarını ehtiva edir. Millət vəkillərindən səs verməyi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim. Aydın Mirzəzadə.

**A.Mirzəzadə**. Təşəkkür edirəm, Ziyafət müəllim. İlk növbədə hər iki təşkilatın işçilərini qarşıdan gələn yubileyləri münasibətilə təbrik edirəm. Hesab edirəm ki, bu təşkilatlar Azərbaycan dövlətçiliyinin qorunub saxlanılmasında çox böyük rol oynayırlar.

Texniki xarakterli bir təklifim var. Nəzərə alsaq ki, mən Təhlükəsizlik, müdafiə, korrupsiya ilə mübarizə komitəsini təmsil edirəm, pis olmazdı ki, bu medalın təsis edilməsi ilə bağlı məsələ, eyni zamanda, bizim komitənin də iclasında müzakirə ediləydi. Ümumiyyətlə, hesab edirəm ki, dövlət mükafatları təsis edilərkən hansı mükafat hansı sahəni əhatə edirsə, həmin sahə ilə məşğul olan müvafiq komitənin iclasında da bu dövlət mükafatlarının təsis edilməsi müzakirə edilsə, heç də pis olmazdı. Təşəkkür edirəm.

**Sədrlik edən.** Başqa çıxış eləmək istəyən yoxdur? Buyurun, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.05 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

“Elm haqqında” Azərbaycan Respublikasının Qanun-

unda dəyişiklik edilməsi barədə qanun layihəsi. İsa müəllim, buyurun.

**İ.Həbibbəyli,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri, mən "Elm haqqında" və "Təhsil haqqında" qanun layihələrinə edilən əlavələr və dəyişikliklər haqqında məlumat verməzdən əvvəl, Azərbaycan Respublikası Milli Məclisinin 2018-ci il payız sessiyasının qanunvericilik işləri planına daxil edilmiş Ümumi təhsil haqqında qanun layihəsinin adı barədə deputat həmkarlarımın qaldırdığı məsələyə aydınlıq gətirmək istəyirəm. Doğrudur, burada deyildiyi kimi, 2009-cu ildə qəbul olunmuş "Təhsil haqqında" Qanun ilə payız sessiyasında müzakirəyə çıxarılacaq Ümumi təhsil haqqında qanun layihəsinin adında oxşarlıq var idi, lakin heç bir halda bunlar sinonim deyildir. "Təhsil haqqında" Qanun çərçivə qanundur. "Təhsil haqqında" Qanunda təhsilin bütün pillələrinin ana xətləri, əsas müddəaları öz əksini tapmışdır. Məktəbəqədər təhsilin də, orta ümumtəhsil məktəbinin də, ali təhsilin də əsas müddəaları "Təhsil haqqında" Qanunda çərçivə qanunu səviyyəsində ümumiləşdirilmişdir. Ümumi təhsil haqqında qanun, bir qədər sadə dildə desək, orta təhsil haqqında qanun deməkdir. Mövcud elmi-pedaqoji ədəbiyyatda Ümumi təhsil haqqında qanun elmi-nəzəri şəkildə "ümumi təhsil haqqında" ifadələri ilə müəyyənləşir.

"Elm haqqında" Azərbaycan Respublikası Qanununda olan dəyişikliklə bağlı. Bildiyiniz kimi, ölkəmizin Prezidenti cənab İlham Əliyev İslam Əməkdaşlığı Təşkilatına üzv olan dövlətlərin vətəndaşlarının və Qoşulmama Hərəkatına üzv olan dövlətlərin vətəndaşlarının Azərbaycan Respublikasının ali təhsil müəssisələrində təhsil almaları

üçün qrantların verilməsi haqqında müvafiq sərəncamlar imzalamışdır. Həmin sərəncamların həyata keçirilməsi ilə əlaqədar olaraq, “Elm haqqında” Qanunun 39.2-ci maddəsinə və “Təhsil haqqında” Qanunun 22.12-ci maddəsinə, yəni əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında ali məktəblərdə, doktoranturada təhsil almasına dair müddəaların nəzərdə tutulduğu maddələrə “təhsil qrantları”nın əlavə olunması təklif olunur.

İndiyə qədər Azərbaycan Respublikasının ali məktəblərində yalnız ali məktəblər arasında bağlanmış ikitərəfli müqavilələr və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında doktorantura təhsili almaq mümkün idisə, həmin sərəncamlara uyğun olaraq, bu qanuna edilmiş dəyişiklik əsasında həm də İslam Əməkdaşlığı Təşkilatı ölkələrinin vətəndaşları, Qoşulmama Hərəkatına üzv olan ölkələrin vətəndaşları Azərbaycan Respublikasının qrantları ilə də doktoranturada təhsil ala biləcəklər. Bu tamamilə məqsədəuyğundur, ölkəmizin beynəlxalq imicini və ölkəmizdə təhsilin yüksək səviyyəsini nümayiş etdirir. Hesab edirəm ki, buna səs vermək məqsədəuyğun sayılmalıdır.

Bundan başqa, burada kiçik bir texniki redaktə də var. “Təhsil haqqında” Qanunun 7-ci maddəsində tədris dili ilə bağlı “Azərbaycan dili” ifadəsi istifadə olunur. Təklif olunur ki, bu, “tədris dili” sözü ilə əvəz olunsun. Çünki İslam Əməkdaşlığı Təşkilatına, Qoşulmama Hərəkatına üzv olan dövlətlərdən gəlib ölkəmizdə təhsil alanların hüquqları var ki, onlar əcnəbi dillərdə də ölkəmizin ali məktəblərində oxuya bilsinlər. Ona görə də burada “tədris dili” sözünün işlədilməsi həmin o imkanın reallaşmasına kömək edə bilər. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Qanun layihələrinin müzakirəsinə başlayırıq. Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev**. Təşəkkür edirəm, Ziyafət müəllim, hörmətli İsa müəllimə də ətraflı şərhinə görə öz təşəkkürümü bildirirəm. Hörmətli İsa müəllim də qeyd elədi ki, Azərbaycan Respublikasının Prezidenti müvafiq sərəncam imzalayıb. Bundan sonra Azərbaycan Respublikası qrantları hesabına əcnəbilər də Azərbaycanda təhsil ala biləcəklər. Mən çox istərdim ki, hörmətli İsa müəllim müvafiq icra hakimiyyəti orqanları ilə əlaqə saxlasın. Bu əcnəbi kateqoriyasına həm də xaricdə yaşayan azərbaycanlıların bir qismi daxildir, sözsüz ki, Cənubi Azərbaycanda, Dərbənddə, Gürcüstanda yaşayan azərbaycanlılardan söhbət gedir, o cümlədən Avropada və ya digər ölkələrdə. Bu baxımdan onlar üçün ayrıca kvota təyin olunmalıdır. Bu işə həm də bizim diaspora komitəsi cəlb olunmalıdır. Eləcə də Azərbaycanda Gənclər Fondu formalaşıb. Gənclər Fondu, Təhsil Nazirliyi və hesab edirəm ki, Milli Məclisin müvafiq komitəsi bu işdə yaxından iştirak etməlidir. Həmin kvota üzrə o ölkələrdən gələnlərə də yer ayrılmalıdır. Misal üçün, İraqda türkmənlər var, onlar Azərbaycan kökənlidirlər, onlar da azərbaycanlıdırlar. Bu yaxınlarda bir partiya sədri Azərbaycana səfər eləmişdi. Mənimlə də görüşdülər, danışdılar, xahiş edirdilər ki, bu məsələ mənim tərəfimdən Milli Məclisdə gündəmə gətirilsin ki, daha çox, heç olmasa, 100 nəfər İraq türkməninin hər il Azərbaycanda dövlət hesabına təhsilinə təminat verilsin.

Düşünürəm ki, biz bunları eləyə bilərik. Azərbaycan dövlətinin bu gün bu imkanları var. Bu həm ölkəmizin təbliği baxımından çox önəmlidir, həm də ki, onlar bizim öz soydaşlarımızdır. Hesab edirəm ki, bununla biz onların

gəlib Azərbaycanda təhsil almasına xüsusi töhfə vermiş olarıq. Bu da bizim dövlət siyasətimizin əsas istiqamətlərindən biridir. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Tahir Kərimli.

**T.Kərimli**. Təşəkkür edirəm. Eyni zamanda, İsa müəllimə təşəkkür edirəm və dəyişiklikləri dəstəkləyirəm. Ancaq bir məsələni nəzərinizə çatdırmaq istərdim. Bu təklifi eləməzdən əvvəl mən çoxsaylı valideynlərlə, uşaqlarla söhbət eləmişəm. Bu nədən ibarətdir? Mən hesab edirəm ki, sentyabrın 15-də dərslərin başlaması bizim istirahətimizi yaxşı təmin edir. Ancaq bunun əvəzində uşaqlarımız dərs ilinin sonunda, yayın qızmarında dərsə gedirlər. Yaxud, deyək ki, ümumiyyətlə, Azərbaycanın özündə ingilis-fransız dilli məktəblərdə dərslər sentyabrın 1-də başlayır. Rusiyada, digər dövlətlərdə sentyabrın 1-də başlayır. Sentyabrın 1-ni dəyişmək həm psixoloji cəhətdən, həm də, ümumiyyətlə, sanki dərs sistemini pozur. 15 gün gec başlaması təhsil sisteminə, hesab edirəm, ciddi mənfi təsir edir. Mənim xoşuma gələ bilər, həqiqətən, 15 gün, deyək ki, daha çox vaxt qazanırsan. Ancaq uşaqlarımız, gələcəyimiz, onların təhsilinin daha mükəmməl olması, daha yaxşı, sistemli təhsil almaları baxımından hesab edirəm ki, təhsilin sentyabrın 1-də başlamasına qayıtmaq daha yaxşı olardı.

İkinci məsələ ibtidai təhsil zamanı dərs yükünün azaldılması ilə bağlıdır. Hamınıza bəllidir. Yazıq uşaqlar özləri çantalarını daşıya bilmirlər. O qədər dərs vəsaitləri yükləyirlər ki, yanında ya sürücü olur, ya valideyn olur, kimsə onları məktəbə aparıb-gətirir. Bunları azaltmaq lazımdır.

Bugünkü təklifləri dəstəkləyirəm. Təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa.

**F.Mustafa**. Təşəkkür edirəm, Ziyafət müəllim, ümumiyyətlə, mən istəyirəm, bu məsələnin məntiqini anlayım. Bizdə 2010–2015-ci illərdə xaricdə təhsil alan tələbələrə dövlət dəstəyinin maliyyələşdirilməsi prinsipi tətbiq olundu və bu tələbələrin də sayı 3-4 mini keçmədi. Sonra bu proqram fəaliyyətini dayandırdı, sanki, bizdə xaricdə təhsillə bağlı bütün məsələlər həllini tapdı, artıq bu vəsait ödənilmədi. İndi də Azərbaycan Respublikasının qrantı hesabına əcnəbilərə imkan yaradırıq ki, gəlib bizdə doktorantura təhsili alsınlar. Təhsillə bağlı bütün bu imtiyazları biz ancaq azərbaycanlılara verməliyik, istər xaricdə yaşayan olsun, istər Gürcüstanda, istərsə də Avropada. Hansı ölkə ki bizim doktorantlara qrant verir, qarşılıqlı olaraq onları stimullaşdırmaq üçün bizim qrant verməyimiz daha məntiqəuyğundur. Amma biz yolu açırıq ki, gəlin bizdə oxuyun, mütəxəssis kimi yetişin. Bu, sovet dövrü deyil ki, Neft-Kimya İnstitutunda, başqa yerlərdə xarici ölkələrdən, Afrikadan, filandan gəlib oxuyurdular, dövlət pulunu ödəyirdi.

Bizim bu gün marağımız olmalıdır ki, azərbaycanlı uşaqların Avropada, Amerikada, başqa ölkələrdə təhsil alıb yetkin mütəxəssis kimi ölkəmizə dönməsini təmin eləyək. Biz öz övladlarımıza bunu təmin eləyə bilmirik, başqa sahələrə ayırdığımız vəsaitləri lazımsa kəsməliyik. Ümumiyyətlə, xaricdə təhsil alan insanlara bürokratik maneələri elə qurdular ki, tələbə sayı 5000 civarına çata bilmədi, 3500, 4000, 2700 oldu. Bunu da bəzi məmurlar qəsdən elədilər ki, bu proses irəli getməsin. Bu proqram dayandı. Bu proqramı davam etdirmək lazım idi. Bu təhsili ömür boyu davam etdirmək lazım idi. Çünki Avropa məkanında oxuyan hər bir azərbaycanlı bir vətən demək-

dir, hər bir azərbaycanlı bir gücdür, bir şəxsiyyətdir və onların hesabına biz Azərbaycanı harasa çəkib aparacağıq. Yoxsa, təhsilsiz minlərlə insan var ki, onlarla biz neyləyə bilərik?

Bu gün Azərbaycanda tələbələrin sayı 41 minə çatır. Mən statistik məlumata görə deyirəm. Böyük əksəriyyəti mənasız yerə təhsil alır. Azərbaycanda universitetlərin böyük əksəriyyəti birləşdirilməlidir. Biz artıq mənasız təhsilin məqsədəuyğunluğu üzərində düşünməliyik.

Təhsil, sadəcə, insanlara iş yeri kimi düşünülməməlidir, real nəticə verən konkret yerlər olmalıdır. Qoy 20 min tələbə olsun, 20 min savadlı, ağıllı tələbə yetişdirək, yoxsa başını qatan, baş girləyən, diplom üçün oxuyan 50 min, 60 min oxudu, nə olsun, ixtisassız işçidən nə fərqi olacaqdır? O baxımdan da bu cür qrantların burada qeyd olunan əcnəbilərə, vətəndaşlığı olmayan şəxslərə verilməsi açıq yazılmalıdır. Məsələn, Gürcüstandan olan soydaşlarımıza, ümumiyyətlə, Azərbaycan əsilli bütün vətəndaşlara, bəli, bu qrant ayrılsın. Xaricdən gətirək, oxusun, bununla gələcəkdə özümüzə faydası olan insan yetişdirəcəyik. Yoxsa başqası üçün bu vəsaiti sərf eləməyin mən, açığı, ciddi nəticəsi olacağını düşünmürəm. Bu məsələyə strateji məsələ, milli məsələ kimi baxılmalıdır ki, biz kimi yetişdirmək istəyirik. Nəticə nə olacaq, ortaya necə çıxacaqdır? Ona görə mən təhsil proqramının bərpa olunmasına çağırıram. Dövləti, hökuməti buna çağırıram ki, heç olmasa, o 5000-i təmin eləyək.

Bunun üzərində xüsusi nəzarət qoyulsun ki, o, elə-belə kiminsə qohumuna, tanışına getməsin. Hansı universitetdə faydalı təhsil ala bilən Azərbaycan uşağı varsa, ona ayrılsın. Humanitar fənni siyahıdan çıxarmışdılar. Azərbaycanda filosof qalıb, Azərbaycanda, deyək ki, güclü

filoloq qalıb, ya Azərbaycanda güclü tarixçi var? Əksinə, harada güclü, savadlı, sanballı uşaqlar varsa, vəsait onlara ayrılmalıdır. Bunu humanitar sahəyə də aid eləmək lazımdır. Təbii ki, kimya-biologiya, digər bütün sahələr də olsun, bunlar vacibdirlər. Amma digər sahələrdə də sanballı alimlərə ehtiyacımız var. Buranın universitetləri bunları yetişdirə bilmir də. Özümüzü niyə aldadaq?

Mən bəzən çıxış edəndə deyirəm ki, Azərbaycan universitetlərində bu yoxdur. Təhsil sahəsində islahat ancaq nədən başlanır? Təhsil haqqını qaldırmaqdan. Hamısı ildən-ilə təhsil haqqını qaldırır, təhsilin keyfiyyətini deyil. Azərbaycanda, deyək ki, tibb təhsili alan, Tibb Universitetində yetişən kimsə ali məktəbi qurtarandan sonra özü müstəqil həkim işləyə bilər? Gedib mütləq Türkiyədə rezidentura keçir, gəlir. Yetişdirmir də. Özümüzü niyə aldadırıq? O baxımdan mən hesab edirəm ki, burada imtiyaz ancaq azərbaycanlılara verilməlidir və onların gələcəyini təmin eləmək üçün addımlar atmalıyıq.

**Sədrlik edən.** Sağ olun. Fazil müəllim, mən bir məsələni deyim. Burada aydınlıq olsun deyə fikrimi bildirmək istəyirəm. Başqa dövlətlərin qrantları ilə də bu dövlətlərdə oxuyan Azərbaycan uşaqları, vətəndaşları var. İstəyirəm bunu da biləsiniz. Bu elə belə deyil ki, biz getdik, hansısa müsəlman ölkəsindən, Qoşulmama Hərəkatının üzvü olan ölkədən tələbələri götürdük. Elə deyil, bunun əvəzi ödənilir. Bu məsələnin bir tərəfi. Mən bu işlə maraqlanmışam, ona görə deyirəm.

İkincisi də, adətən, bura dəvət olunan vətəndaşlar, abituriyentlər, tələbələr Azərbaycanın coğrafiyası, dili və tarixi ixtisasları üzrə oxumağa gəlirlər. Mən, əslində, bunu alqışlayıram. Qoy Azərbaycan dilini, tarixini öyrənsinlər və öz ölkələrində təbliğ eləsinlər. Bunun nəyi pisdir ki?

Bu məsələlər ölçülüb-biçilib, Fazil müəllim. Düzdür, burada açıqlanmayıb o məsələ, amma konkret situasiyaya gələndə mən məsələ ilə maraqlanmışam. Vəziyyət Siz deyən qədər də pis deyil, normaldır. Qənirə Paşayeva, buyurun.

**Q.Paşayeva**. Çox sağ olun, Ziyafət müəllim. Mən Sizin fikirlərinizə tərəfdar olaraq bildirmək istəyirəm ki, bu dəyişiklikləri çox dəstəkləyirəm. Çünki yadımıza salaq: Azərbaycan da daxil olmaqla, türk dövlətləri öz müstəqilliyini qazandığı illərdə qardaş Türkiyə türk dövlətlərindən nə qədər tələbələrin təhsilinə imkan yaratdı, dəstək oldu. O uşaqlar, o gənclər sonra Türkiyə ilə həmin türk dövlətləri arasında çox önəmli bir bağ oldu. Amma burada təbii ki, strateji məqam var. Əsasən, kimlərə öncüllük vermək? O türk dövlətlərinə öncüllük verildi və onlar, o təhsildən yararlanan tələbələr Türkiyə ilə istər Azərbaycan, istərsə də digər türk dövlətləri arasında çox önəmli bir bağ oldu.

Mən hesab edirəm ki, bu çox önəmli layihədir, burada, sənəddə də birmənalı göstərilir ki, kvotalar, ölkələr, namizədlər, bunlar hamısı müəyyən meyarlarla seçilir və təbii ki, burada türk dövlətlərinə, qardaş dövlətlərə və toplumlara üstünlük verilir.

Bir az öncə Qüdrət müəllim söylədi, məsələn, İraq türkmənləri. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, mən tarixi araşdıranda gördüm ki, onlarla biz bir bütövün parçalarıyıq. Yüzdə doxsan səkkiz eyni ləhcə ilə danışan bir millətin övladlarıyıq. Amma məsələn, onlar çətin vəziyyətdədirlər, bura gəlirdilər təhsil almağa. Biz onlara müəyyən dəstək göstərə bilmirdik. Gəlib təhsil alıb, o topluma bir xeyir vermək istəyən nə qədər gənclər var. İndi onlar bu proqramlardan yararlana bilərlər və bizim o toplumlarla bağlılığımızı artıra bilərlər. Bizim o gənclər sa-

bah həm Azərbaycanın türk dövlətləri ilə bağlarını gücləndirər, həm də müəyyən mənada təbii ki, bəzi xarici ölkələrə də bu kvotaların verilməsi bu əlaqələrə təsir edə bilər. Ona görə mən bu layihəni dəstəkləyirəm. Hesab edirəm ki, bu dəyişikliyin Azərbaycan üçün çox xeyri var.

Azərbaycanın imkanları artdıqca bu kimi layihələrin, bu kimi dəstəklərin sayı daha da çoxalmalıdır, çünki o təhsil alan gənclər, təbii ki, istedadlı, savadlı gənclər olur, sabah strateji mənada Azərbaycan üçün də çox önəmlidir. Bunu təfsilatı ilə heç söyləməsək də, özəlliklə inanıram ki, müvafiq icra qurumu bu öncüllükləri müəyyən edəndə türk dövlətlərinə, soydaşlarımıza üstünlük verəcək. Burada da vurğulandı, bu coğrafiyada, Azərbaycan dövlətinin sərhədlərindən kənarında yaşayan soydaşlarımız var. İstəyir İrandan, Cənubi Azərbaycandan, İraqdan, Gürcüstandan, digər qardaş türk dövlətlərindən gəlmək istəyirlər. Ona görə bu məsələləri dəstəkləyirik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Azay Quliyev.

**A.Quliyev.** Təşəkkür edirəm, hörmətli Ziyafət müəllim. Mən, açığı, fikrim yox idi, bu barədə danışam, amma hörmətli həmkarlarım çox maraqlı bir polemika açdılar və çox mühüm bir məsələyə toxundular. Fazil müəllim xüsusilə iki məsələyə toxundu. Mən istəyirəm, ona da münasibətimi bildirəm.

Əlbəttə, azərbaycanlı tələbələrin xaricdə oxuması ilə bağlı dövlət proqramı, hesab edirəm, çox uğurlu bir proqram idi və o proqramın müsbət nəticələri var, biz onu indi də görürük. Şübhəsiz ki, proqramda əsas məqsədlərdən biri bu idi ki, Azərbaycan tələbələri xaricdə təhsil alandan sonra Azərbaycana dönsünlər və öz dövlətlərinə töhfə versinlər. Əlbəttə, biz burada mübahisə aça bilərik ki, bunların hamısı qayıtdımı, yaxud da qayıdanlara

yaradılan şəraitlə bağlı, onların arasında, yəni işəgötürənlə və işə qəbul olunan arasında məmnunluq əmsalı nə qədər yüksək oldu, olmadı. Bu başqa bir məsələdir. Amma bir şeyi biz unutmamalıyıq ki, istənilən azərbaycanlı xaricdə təhsil alırsa və Azərbaycan dövləti buna vəsait, yatırım qoyursa, bu, dövlətimizin birmənalı şəkildə marağına uyğundur. Onun strateji maraqlarını və çıxarlarını əhatə edir.

Fazil müəllimin o təklifinə mən də qoşuluram ki, bu proqram bərpa olunsa, çox yaxşı olardı. Bildiyim qədər söhbət təxminən 10-15 milyon manat vəsaitdən gedir və bu vəsaiti də biz keçən müddət ərzində həm dövlət büdcəsi, həm də Neft Şirkətinin müvafiq fondları və qrant hesabına həyata keçirdik. Bunun bərpa olunması məsələsini Nazirlər Kabinetinin qarşısında və müvafiq qurumlar qarşısında, mən hesab edirəm, mütləq qaldırmalıyıq. Bunun çox böyük əhəmiyyəti var.

İkinci, Azərbaycanda digər vətəndaşların təhsil alması ilə bağlı. Hesab edirəm, burada qeyri-adi bir şey yoxdur. Əksinə, bu bizim xeyrimizədir. Bu gün Azərbaycanda oxuyan, təhsil alan hər bir xarici, əcnəbi vətəndaş Azərbaycanın elçisinə və səfirinə çevriləcəkdir, Azərbaycanı təmsil edəcəkdir. Yəqin siz xatırlayırsınız, Anqolanın məşhur prezidenti Santuş vaxtilə "AZİ"-də, yəni indiki Neft Akademiyasında təhsil almışdır, Bakıda təhsil aldıqdan sonra da... İndi bilmirəm, Anqolada o, rəhbərlikdə təmsil olunur ya yox. Bütün müsahibələrində bu barədə həmişə fəxrlə deyirdi. Bu istiqamətdə çoxlu sayda misallarımız var. Ona görə də hesab edirəm ki, bəli, Azərbaycanın imkanı varsa, bizim maliyyə imkanlarımız nə qədər müsaidə edirsə, biz o qədər də çox xaricdən olan vətəndaşların Azərbaycanda təhsil almaları üçün şərait yaratmalıyıq. Həm də bu, Azərbaycanın nüfuzudur. Biz

sevinək və arzu edək ki, Azərbaycanın təhsil müəssisələri və universitetləri elə bir səviyyədə olsunlar ki, məhz həmin universitetlərdə xarici vətəndaşlar oxumaq üçün həvəsli olsunlar və növbəyə dursunlar. O baxımdan da, məncə, büdcə paketi müzakirə olunan zaman bu məsələyə qayıtmalıyıq. Xüsusilə xaricdə təhsil alan, təhsil proqramı ilə xaricdə təhsil almaq üçün göndərilən tələbələrin əvvəlki metodologiyaya uyğun olaraq xərclərinin ödənilməsinə baxmalıyıq. Hesab edirəm, Azərbaycanın çox istedadlı tələbələri var və onların da dünyanın aparıcı universitetində təhsil alması üçün dövlət dəstəyini verməlidir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Bahar xanım, buyurun.

**B.Muradova.** Təşəkkür edirəm, Ziyafət müəllim. Doğrudan da, bu məsələnin ətrafında çox maraqlı fikirlər səsləndi. Təhsil bütün ölkələrdə bütün xalqlar və millətlər üçün taleyüklü bir məsələdir və əgər təcrübə mübadiləsi, tələbə mübadiləsi ölkələrə fayda verməsəydi, belə layihələr də olmazdı. Əgər biz hansısa imkanlardan özümüz üçün yararlanmaq istəyiriksə, qarşılıqlı olaraq qarşı tərəfin də bizim imkanlardan yararlanmaq istəyini təbii qəbul etmək lazımdır. Bunlar öz yerində.

Mən bir məsələyə diqqəti yönəltmək istəyirəm. Belə çıxmasın ki, elə Fazil müəllim söylədi, hər kəs onun dediklərinə cavab verdi. Amma bir cavabsız məsələ qaldı orada, onu demək istəyirəm. Bu mənim bir az izzəti-nəfsimə toxundu. Soylənilən o fikir ki Azərbaycanın universitetləri normal mütəxəssis yetişdirmir və biz də bunu qəbul etməliyik, bununla barışmalıyıq, hesab edirəm ki, kökündən yanlış fikirdir. Azərbaycanın təhsil müəssisələri normal mütəxəssis yetişdirməsə idi, bu layihələr çərçivəsində başqa ölkələrin nümayəndələri də bura təhsil almağa

gəlməzdi və özü də nəzərə alsaq ki, bunun çoxillik bir tarixi vardır, istər sovet dövründə, istərsə də ondan sonra. Azərbaycanda yetişib öz ölkələrində yüksək mənsəb tutan çoxsaylı xarici şəxslərin, nümayəndələrin adlarını çəkə bilərik.

O ki qaldı azərbaycanlılara, əgər biz bura yalnız azərbaycanlıları, soy-kökümüzdən olan insanları cəlb etməyə üstünlük vermək istəyiriksə, digər tərəfdən də söyləyiriksə ki, universitetlərimiz normal mütəxəssis yetişdirmir və biz də bununla barışmalıyıq, bəs onda məntiq haradadır? Onda elə o ölkələrdə qalıb yaxşı universitetlərdə oxusunlar da. Daha biz onları niyə gətirib burada kor qoyuruq ki?

Hesab edirəm, bir az ziddiyyətli mövqelər səsləndi burada. Bununla bağlı mən də Azərbaycanın təhsil müəssisələrinin heç də hərtərəfli və lazım olan səviyyədə mütəxəssis yetişdirmədiyi fikrinin qarşısında öz mövqeyimi bildirmək istədim. Hesab edirəm, səsə qoymaq və qəbul etmək olar. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Bahar xanım. Zahid müəllim, xahiş edirəm, yekunlaşdıraq, sözünüzü geri götürün, çünki onsuz da bu məsələyə çox vaxt ayırdıq. Hesab edirəm, hər şey aydınlaşdı. Buyurun, xahiş edirəm, "Elm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.30 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi, birinci oxunuş. Münasibət bildirək, xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 17.30 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Hörmətli həmkarlar, 35–43-cü məsələlər "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanunla uyğunlaşdırma ilə bağlıdır. Amma əlbəttə ki, müxtəlif məsələlərdir. Müxtəlif komitələrdə müzakirə olunub. Ona görə də ardıcıllıqla bəzi məsələləri müzakirə etməyə davam edəcəyik. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş). Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli Ziyafət müəllim. Ziyafət müəllim, Siz dediyiniz kimi, bu layihənin bir hissəsi uyğunlaşdırma xarakterlidir. Uyğunlaşdırma ondan ibarətdir ki, İnzibati Xətalar Məcəlləsində istifadə olunmuş "siqaret" sözü "tütün" sözü ilə əvəz olunur, çünki

artıq Qanunda bu ifadə işlədilir. Amma yenilik ondan ibarətdir ki, məsuliyyətlə bağlı iki yeni maddə nəzərdə tutulub, – 212.3.4 və 212.3.5-ci maddələr. Belə ki, təklif olunur, yetkinlik yaşına çatmayanlara tütün məmulatı almaqla, verməklə, tütün məmulatından istifadəni təklif və ya tələb etmək yolu ilə onların tütündən istifadə prosesinə cəlb edilməsi – 100 manat məbləğində cərimə, tütün məmulatları tullantılarının ətraf mühitə atılmasına görə – 50 manat məbləğində cərimə və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanun ilə qadağan edilmiş yerlərdə tütün çəkilməsinə şərait yaradılmasına görə - məsuliyyət.

Qeyd etmək istəyirəm ki, dispozisiyanın bu hissəsi dəyişdirilib, yəni sizə paylanmış variantda yoxdur. Amma qanunvericilik təşəbbüsü subyekti ilə razılaşdırılıb, yəni tütün çəkilməsinə şərait yaradılmasına görə deyil, qarşısının alınmamasına görə cərimə təklif olunur. Beləliklə, 212.3-cü maddənin dispozisiyası və sanksiyaları yenidir. Qeyd etdiyim kimi, yetkinlik yaşına çatmayanlarla bağlı olan hissədə yenilik var, qalan hissə isə ancaq uyğunlaşdırmadır, "siqaret" sözü "tütün" sözü ilə əvəz edilir. Səs verib qəbul etməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim, təşəkkür edirəm. Hörmətli deputatlar, bir məsələni sizinlə müzakirə etmək istəyirəm. DeməK, mən qeyd etdim, 35–43-cü məsələlər əsasən tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması və digər məsələlərlə bağlıdır. Gəlin belə bir qayda müəyyən edək. Bütün bu məsələlər üzrə hörmətli komitə sədrləri məruzə etsinlər, məlumat versinlər, sonra müzakirəni sərbəst şəkildə apara bilək. Olarmı belə? Sonra da müvafiq olaraq səsverməni keçirərik. "Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikasının Qanununda

dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi, birinci oxunuş. Eldar Quliyev.

**E.Quliyev,** *Milli Məclisin Aqrar siyasət komitəsi sədrinin müavini.*

Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri, birinci oxunuşda təqdim olunan qanun layihəsində "Tütün və tütün məmulatı haqqında" Qanunun 1.0.4-cü maddəsinin yeni redaksiyada verilməsi, 1.0.5, 13.2, 13.3, 14.3.4, 15.3.4 və 15.6-cı maddələrində "tütün və tənbəki yarpağında və tüstüsündə" sözlərinin "tütünün və tənbəkinin tərkibində" sözləri ilə, "siqaret" sözünün "tütün məmulatları" və "tütün" sözləri ilə əvəz edilməsi nəzərdə tutulur. "Nikotin" sözündən sonra "karbon monoksidinin" sözlərinin əlavə edilməsi təklif olunur. Ondan əlavə, 15.4-cü maddədə tütün məmulatlarının buraxılmasını bilavasitə həyata keçirən şəxsin, yəni satıcının tütün məhsulunu istifadə edən şəxsin, yəni alıcının yetkinlik yaşına çatmasından şübhə etdikdə alıcıdan onun şəxsiyyətini təsdiq edən və yaşını müəyyən etməyə imkan verən sənədi tələb etməsi nəzərdə tutulur.

"Tütün və tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" 2017-ci il dekabrın 1-də qəbul edilmiş Qanuna uyğunlaşdırılması məqsədi ilə hazırlanmış layihə birinci oxunuşun tələblərinə cavab verir və onun lehinə səs verməyinizi xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Eldar müəllim. "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi. Ülvi müəllim, buyurun. Ülvi Quliyev.

**Ü.Quliyev.** Təşəkkür edirəm, Ziyafət müəllim. Hörmətli millət vəkilləri, bu dəyişiklik texniki xarakter daşıyır. Biz 2017-ci il dekabrın 1-də "Tütün məmulatlarının

istifadəsinin məhdudlaşdırılması haqqında” Qanun qəbul etmişik. İndi biz “Bədən tərbiyəsi və idman haqqında” Qanuna uyğunlaşdırma aparırıq, burada 40-1.4.1-ci maddədə “siqaret” sözü “tütün” sözü ilə əvəzlənir. Ona görə hörmətli həmkarlardan xahiş edirəm ki, səs versinlər. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi, birinci oxunuş. Rafael müəllim, buyurun.

**R.Hüseynov.** Ümumi fəlsəfəsinə yanaşarkən tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması, əlbəttə, yaxşı haldır. Tütün məmulatlarının, digər pis vərdişlərin cəmiyyətdən, xüsusən gənclikdən daha çox uzaq olması arzulanan bir haldır və bununla bağlı qanunlarda nə dəyişiklik edilirsə, əlbəttə, təqdirəlayiqdir. Bununla əlaqədar təkcə bizim “Televiziya və radio yayımı haqqında” Qanunda deyil, digər qanunlarda, həm “İctimai televiziya və radio yayımı haqqında”, həm də “Teatr və teatr fəaliyyəti haqqında” qanunlarda dəyişikliklər nəzərdə tutulub.

O dəyişikliklər ki sırf texniki səciyyə daşıyır, uyğunlaşdırma mahiyyətlidir, ona bir söz yoxdur. Lakin tənzimlənmə prosesinin özündə bir az dəqiqlik olmalıdır. Ona görə düşünürəm ki, elə bizdə, komitədə də bu məsələlər müzakirə olunarkən müəyyən iradlar yarandı və o iradlar da haqlıdır. İndi biz Səfa müəllimlə də bu barədə müzakirə apardıq. Görünür, bu məsələdə, bizim qanunlarda bir az daha başqa yanaşma tələb olunur, çünki yaradıcılıq çox zərif bir sahədir, burada qəti yasaqlar, qadağalar olmaz. Tutalım, televiziyada, tütün istifadəsi prosesini, yaxud bu qəbildən olan məmulatların istifadəsi prosesini göstərmək, burada yazıldığı kimi, konkret qadağan olunur. Televizi-

yanın ixtiyarı yoxdur bunu göstərməyə. Bəli, ola bilər ki, müəyyən televiziyalarda hansısa anlarda səsini kəsməklərmi, yaxud onun üstünü dumanlandırmaqlamı, o cür ola bilər. Lakin tutalım ki, Stalinlə bağlı bir film göstərilir, bu da əlində qəlyanı film boyu gedir-gəlir, danışır daim. Sən bunu necə edəcəksən, onda filmin bütün mahiyyəti itəcək. Yaxud bir film, bir əsər yazılır, səhnə əsəri yazılır, teatr tamaşası göstərilir. Teatr tamaşasında da qəti surətdə qadağan edilir. Tutalım ki, bir narkomanın həyatından bəhs edir. Onun həyatında narkomaniyanın, narkotikaya aludəliyin, tütünə aludəliyin, alkoqola aludəliyin yaratdığı faciəni göstərmək üçün bu proseslər də əksini tapmalıdır. Bu, sənətdir, sənətin öz xüsusiyyətləri var. Yəni burada müəyyən, konkret yasaqlar qoymaq, küncə qısnamaq mümkün deyildir.

Yaxud klassik bir əsər nümayiş etdirilir, klassik əsərdə nələrsə nəzərdə tutulub. Tutalım, "Sevil" əsəri. "Sevil" əsərində bir ailənin dağılmasına bais olan məhz alkoqolun törətdiyi faciədir. Yaxud "Neft və milyonlar səltənətində" adlı məşhur ilk filmimizin ssenarisində də eyni süjet, eyni motivdir. Yəni yaradıcılıqda bu cür konkret, qəti qadağandır, olmaz, yasaqdır sözlərini qoymaq olmaz. Odur ki, bu cür qanunlar arasında tənzimləmələrdə – bəli, mahiyyət etibarı ilə müəyyən texniki dəyişiklik olanda oradan götürüb qoyuruq bura, – "qan qrupu" məsələsi nəzərə alınmalıdır. O qan qrupu bu qan qrupuna uyğun gəlmir. Çünki bu yaradıcılıqdır, yaradıcılığın öz xüsusiyyətləri var. Ona görə də bir halda ki, elə qanunun da adı "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunudur, mən düşünürəm ki, bu üç qanunda ifadəni bir az yumşaltmaq lazımdır. Heç olmasa, bir əl yeri qoymaq lazımdır. Yəni burada, tutalım,

deyək, "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavədə – 40.2.2-1-ci maddədə nəzərdə tutulur ki, "tütün məmulatlarını və tütün istifadəsi prosesini nümayiş etdirməmək", filan-filan gedir, "kabel yayımı vasitəsi ilə açıq yayımlamamaq". Bu, tələb olunur. Biz belə qoyaq ki, məsələn, "tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirilməsini, həmçinin tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirildiyi əsərlərin, tamaşaların, proqramların efirdə kabel yayımı vasitəsi ilə açıq nümayişinin məhdudlaşdırılması".

Heç olmasa, belə qoyaq, bir əl yeri olsun ki, lazım olan məqamda bunu tamamilə çıxartsınlar. Amma o yerdə ki əsər, onun süjeti, kontekst imkan vermir buna, onda, heç olmasa, bunu daha zəif bir şəkildə etsinlər. Çünki əsərin effekti də var, buna müəyyən zəruri kontekstdən gələn tələbat da var. Odur ki, bu məsələdə bir az ehtiyatlı olmaq lazımdır. Bir halda ki artıq biz bu düzəlişlərin də mərhələli oxunuşlar variantını nəzərdə tutmuşuq, güman edirəm, ikinci oxunuşda biz bu dəqiqləşdirməni aparmalıyıq. Tutalım ki, İctimai televiziya ilə bağlı da eyni haldır, amma "Teatr və teatr fəaliyyəti haqqında" Qanunda dəyişilən bir maddədir. Orada lap kəskin yazılır. "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikası Qanununun 14.1.4-cü maddəsinə uyğun olaraq əməl olunarsa, o qanun daha normal bir səviyyəyə gəlib çatar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Aydındır. Hörmətli həmkarlar, 41 və 42-ci məsələlər bizim komitədə müzakirə olunub. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsində dəyişikliklər edilməsi haqqında qanun layihəsidir, bir də Silahlı Qüvvələrin Qarnizon və qarovul xidmətlərinin nizamnaməsində dəyişiklik edilməsidir. Hər

iki qanun layihəsində “papiros” sözü “tütün” sözü ilə, “papiros çəkmək” sözləri “tütün çəkmək” sözləri ilə əvəz olunur. Bilirsiniz ki, tütün anlayışı daha geniş anlayışdır. Ona görə də sırf texniki xarakterli məsələlərdir.

43-cü məsələ. “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə. Hadi müəllim, buyurun.

**H.Rəcəbli.** Ziyafət müəllim, minnətdaram. Bayaqkı düzəlişlər bizim qəbul etdiyimiz qanuna uyğunlaşdırılaraq digər qanunlarda texniki düzəlişlər aparılır. Bu gün müzakirələrdə bəzi fikirlər səsləndi. Qanun artıq qəbul olunub. Söhbət o qanunun başqa qanunlara uyğunlaşdırılmasından gedir. Bir halda, 43-cü maddədə isə həmin qanunun 13.1-ci maddəsinə əlavədən söhbət gedir: “və ya satış məqsədi olmadan verilməsi, habelə onlara tütün məmulatı almaqla, verməklə, tütün məmulatından istifadəni təklif və ya tələb etmək yolu ilə”. Bu, bizim qəbul olunmuş həmin qanuna əlavədir.

Digər fikirlər isə bizim qəbul etdiyimiz qanunda təsbit olunub. Bunu digər qanunlara tətbiq edirik. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun, Hadi müəllim. Hörmətli deputatlar, beləliklə, gündəlikdə nəzərdə tutulan məsələlər haqqında hörmətli komitə sədrləri məlumat verdilər. İndi həmin qanun layihələrinin müzakirəsinə keçirik. Xahiş edirəm, nəzərə alın ki, bizim vaxtımız azalıb. Nəzərə alaq ki, bu məsələlər mahiyyətcə, əslində, o qədər də mürəkkəb deyil, hamıya aydındır. Söhbət tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılmasından gedir. Yəni burada xüsusi bir Amerika açmağa, hesab edirəm ki, ehtiyac yoxdur. Amma hər halda deputat həmkarlarımız çıxışa yazılıb və

biz müzakirəni davam etdiririk. Buyurun, Elmira Axundova.

**E.Axundova.** Çox sağ olun. Əvvəla deyərdim ki, çox yaxşı və aktual, inqilabi bir dəyişikliklərdir. Prezident Administrasiyasından, hörmətli Prezidentimizdən gələn qanun layihələri, artıq dəyişikliklər olsa da, 3 oxunuşda qəbul olunacaq. Çox gözəl bir təklifdir. Çünki hərdən bir çox deputatlar rəylərini və ya iradlarını bildirəndə biz başa düşürdük ki, bir oxunuşdur və nəyisə dəyişdirmək çətin olar. Çünki biz o qanunu bizə göndərən insana hörmət edirik. Lakin indi Rafael müəllim burada danışdı, yeri gəlmişkən, mən də onunla tam razıyam. Bizim komitədə bu müzakirə olunarkən Jalə Əliyeva bunu birinci qaldırdı ki, teatr tamaşalarında, kino tamaşalarında belə məqamlar olur ki, məsələn, Stalini çəkirlər, ya da Böyük Vətən müharibəsi səhnələri göstərirlər. Orada döyüşçüləri tütünsüz təsəvvür etmək olmaz və sair. Bu, necə deyərlər, günün tələbatı idi.

**Sədrlik edən.** Stalindən qurtardıq da. Biz bundan sonra çəkiləcək filmlər haqqında danışaq. Tutmusunuz Stalindən, yaxşı, sonra, ikinci bir misal göstərin görək. Məsələn, təzə çəkilən filmlərdə, xüsusilə indi bu seriallar daha dəbdədir, bir də baxırsan, götürüb siqareti, çəkir. Mənasız bir şeydir, orada siqaret çəkməyə heç bir ehtiyac yoxdur. Sadəcə, desinlər ki, orada filankəs, filan obraz siqaret çəkir. Çəkməsə, nə olacaq ki? O səhnənin mahiyyəti, estetikası aşağı enəcək? Boş-boş şeylərdir hamısı.

**E.Axundova.** Amma mən çox vacib bir düzəliş etmək istəyirəm. Baxın, biz bütün bu qanunlarda təzə anlayışı tətbiq etdik – tütün və tütün məmulatları. Deməli, tütün yarpaqdır, yarpaq emal olunandan sonra tütün məmulatının istehsalında əsas xammal bitkisidir. Amma tütün məmulatı bu tütün yarpağından çəkmək üçün hazırlanmış,

tərkibində nikotin, filan-filan olan məhsuldur. Biz bütün qanunlarda papirosu, siqareti "tütün" sözü ilə əvəzləyirik. Mənə elə gəlir ki, bu heç də düzgün deyil. Çünki tütün, yenə də deyirəm, əsas anlayışdan göründüyü kimi, bitkidir. Mənə elə gəlir ki, hər yerdə ikinci oxunuşda biz tütün əvəzinə tütün məmulatı yazmalıyıq. Çünki tütün düzgün deyil. Bu tütün çəkir? Bu tütün çəkmir axı. Bu ya siqaret çəkir, ya papiros çəkir, ya da siqar çəkir. Bu, tütün məmulatıdır. Ona görə tütün sözü ilə əvəz etmək düzgün deyil. Gərək tütün məmulatı olsun. Bu mənim əsas qeydimdir.

Bir də, məni çox narahat edən ikinci məqam ondan ibarətdir ki, biz burada bir çox halları sadalayırıq, məhdudlaşdırmaq məsələsi, yeniyetmələrə satmamaq və sair, müəssisələrdə çəkməmək. Lakin biz əsas məsələni unuduruq. Avropa ölkələrini götürün, Türkiyəni götürün, pozitiv nümunələri götürün. Orada bizim kimi deyil, bizdə bütün qəzet köşklərində qəzetlərdən başqa nə istəyirsiniz, satılır? Siqaretlər hər addımda satılır, supermarketlərdə satılır. Biz bu məsələni məhdudlaşdırmasaq və xaricdəki kimi siqaretlər çəkilməsi, siqaret satışı üçün xüsusi yerləri ayırmasaq, bizdə vəziyyət düzəlməyəcək. Məsələn, mənim evimin yanında 3 dənə köşk var. Gecə də satırlar siqareti, gündüz də. Kim ona nəzarət edir ki, yeniyetmə, kimsə gəlib onu almır? Alırlar. Alırlar da, satırlar da. Amma əgər siqaretlər, papiroslar tam ayrı yerdə satılsa, onda vəziyyət düzələcək. Yoxsa, hər bir supermarketdə, özü də ucuz qiymətə, siqaret, papiros, nə istəyirsiniz, satılır, biz də məhdudlaşdırmadan danışırıq. Mənə elə gəlir ki, əsas məsələ budur – yerlərin məhdudlaşdırılması, satış yerlərinin kəskin məhdudlaşdırılması. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Mən çıxışa yazılan hörmətli həmkarlarıma müraciət edirəm. Ehtiyac varmı, geniş mü-

zakirə açmağa? Hər şey aydındır da. Əgər etiraz etməsəniz, biz səsə qoyaq. Təkid edən yoxdur? Çox təşəkkür edirəm.

35-ci məsələ Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədədir. Birinci oxunuş. Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.51 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verмədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının qanununun layihəsi. Birinci oxunuş, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 17.51 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun

layihəsi. Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.52 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi. Birinci oxunuş. Buyurun, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.53 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında. Birinci oxunuş. Buyurun, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.53 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Teatr və teatr fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi. Birinci oxunuş. Buyurun, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.54 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsində dəyişikliklər edilməsi haqqında qanun layihəsi. Buyurun, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.55 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətlərinin nizamnaməsində dəyişikliklər edilməsi haqqında qanun layihəsi. Buyurun, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.55 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi. Buyurun, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.56 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun. Çox təşəkkür edirəm. Bununla da biz bir paketə daxil olan tütünlə bağlı məsələləri müzakirə edib səsə qoyduq. Bir qanun layihəsi də qalıb. "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbay-

can Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi. Çingiz Qənizadə, buyurun.

**Ç.Qənizadə,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

"Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanuna dəyişiklik edilməsi barədə qanun layihəsi, eyni zamanda, digər bir qanun layihəsi, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə dəyişikliklər komitə tərəfindən Milli Məclisə tövsiyə olunub təqdim olunur. Dəyişikliyin bu qanunun birinci hissəsinə, yəni vətəndaşlıq haqqında qanuna uyğunlaşdırma məqsədi ilə verildiyi qeyd olunur. Mülki Prosessual Məcəllədə dəyişiklik isə 2018-ci il 1 fevral tarixli qanunun icrası ilə əlaqədardır. Sadəcə olaraq, bir şeyi qeyd edim ki, Mülki Prosessual Məcəlləyə yeni bir maddə – 307.2.10-1-ci maddə əlavə olunmuşdur. Bu da vətəndaşlığın bərpası ilə bağlı prosedur qaydalarının tətbiqinin yeni bir qaydası, yeni bir formasıdır. Qeyd edim ki, bu, məhkəmə qaydasında həyata keçirilən bir prosedurdur. Səs verməyə dəvət edirəm.

**Sədrlik edən.** Təklif nə olacaq? Buyurun, xahiş edirəm. 44-cü məsələ. "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə  qanun layihəsi. Münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.58 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi. Birinci oxunuş. Buyurun, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.59 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun. Bununla da iclasımız qurtarır.